NAXÇIVAN TƏHSİLİN İNKİŞAFINDA LİDERDİR
səhifə-4-də

“MƏN NAXÇIVANI ÖYRƏNİRƏM” BİLİK OLİMPİADASININ QALİBLƏRİ MÜKAFATLANDIRILIB
səhifə-6-da

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ƏMƏKDAŞLARININ ELMİ MƏQALƏLƏRİ YÜKSƏK İMPAKT-FAKTORLU JURNALLARDA DƏRC OLUNUB
səhifə-8-də

NOVRUZ MƏRASİMLƏRİ TARİXİ QAYNAQLARDA
səhifə-13-də

SİZƏ KİMDƏN DANIŞIM...
səhifə-14-də

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR

*HEYDƏR ƏLİYEV*




# YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

31 mart 2022-ci il, №2 (44)


## BƏSTƏKAR TOFİQ BAKIXANOVA UNİVERSİTETİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM EDİLİB

Naxçıvan Dövlət Universiteti Elmi Şurasının iclasında Fəxri doktor diplomu Azərbaycan Respublikasının Xalq artisti, “Şöhrət” və “Şərəf” ordenli bəstəkar Tofiq Bakıxanova təqdim olunub.

İclasda universitetin rektoru Elbrus İsayev çıxış edərək Azərbaycanın mötəbər Bakıxanovlar nəslinin nümayəndəsi olan bəstəkarın XX əsrin ortalarında formalaşmağa başlayan çoxşaxəli və məhsuldar yaradıcılığından ətraflı bəhs edib. Bildirilib ki, Tofiq müəllimin atası, görkəmli tarzən, muğam bilicisi Əhməd ağa Bakıxanovdan öyrəndiyi muğamlar onun yaradıcılığı üçün əsaslı bünövrə olması ilə yanaşı, dahi Qara Qarayevin sinfində musiqinin incəliklərini öyrənməsi onun dünyagörüşünün, yaradıcılıq üslubunun formalaşmasına, professional zirvəyə çatmasına səbəb olub.

Rektor bildirib ki, Tofiq Bakıxanovun Naxçıvana olan sevgi və məhəbbəti muxtar respublika rəhbəri tərəfindən yüksək qiymətləndirilib və daim diqqət mərkəzində saxlanılıb. Vurğulanıb ki, Ali Məclis Sədrinin milli musiqimizin, mədəniyyətimizin inkişafına, təbliğinə, sənətə və sənətkara verdiyi önəm sayəsində bəstəkar Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına layiq görülüb və Naxçıvan musiqi ictimaiyyəti Tofiq Bakıxanov yaradıcılığı ilə daha dərindən tanış olmaq imkanı əldə edib.

Elbrus İsayev diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri cənab Vasif Talıbovun sərəncamları ilə Tofiq Bakıxanovun 75, 80 və 85 illik yubileyləri, eyni zamanda, Abbasqulu Ağa Bakıxanovun 220 illik yubileyi Naxçıvanda yüksək səviyyədə qeyd olunub.

Elmi Şura üzvlərindən Tədris və tərbiyə işləri üzrə prorektor Rafiq Rəhimov, Naxçıvan Musiqi Kollecinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Məhəbbət Babayeva, universitetin Musiqinin nəzəriyyəsi və tarixi kafedrasının müdiri, sənətşünaslıq üzrə elmlər doktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi İnara Məhərrəmova, universitetin İncəsənət fakültəsinin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov çıxış edərək təklifi yüksək dəyərləndiriblər. Çıxış edənlər



musiqi mədəniyyəti tarixində və inkişafında özünəməxsus xidmətləri olan görkəmli bəstəkarın muxtar respublikanın tərənnümünə həsr edilən yaradıcılığından, onun gözəl pedaqoq və əsl insani xüsusiyyətlərindən bəhs ediblər. Çıxışlarda, həmçinin qeyd olunub ki, bəstəkar dəfələrlə universitetin Konservatoriyasında, Naxçıvan Musiqi Kollecində, musiqi məktəblərində həm tələbələrə ustad dərsləri keçib, həm də öz dəyərli məsləhətlərini verərək tələbələrin ifasında təşkil olunan konsertlərin dinləyicisi olub.

Rektor tərəfindən görkəmli bəstəkara universitetin Fəxri doktoru diplomu və mantiyası təqdim olunduqdan sonra bəstəkar yaradıcılığında özünəməxsus yer tutan Naxçıvanla bağlı xoş xatirələrini bölüşərək bu ecazkar diyara olan sonsuz məhəbbətini ifadə edib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***



## NOVRUZ BAYRAMI XÜSUSİ TƏNTƏNƏ İLƏ QEYD OLUNUB

Ali təhsil ocağının əsas korpusunun önündə təşkil edilən tədbirdə universitetin rektoru Elbrus İsayev Novruzun xalqımızın ən əziz bayramlarından biri olduğunu qeyd edib. Bayramın ölkəmizdə dövlət səviyyəsində qeyd olunmasının ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğu bildirilib. Ölkəmizin müstəqilliyinin bərpa olunması ilə bu bayramın daha da rəngarəng, şən və yüksək əhval-ruhiyyədə keçirildiyi vurğulanıb. Bayramın tarixi kökləri, özünəməxsusluğu, o cümlədən, birlik qardaşlıq bayramı olduğunu bildirən rektor diqqətə çatdırıb ki, Novruz 2009-cu il sentyabrın 30-da YUNESKO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilib. 2010-cu ildə BMT Baş Assambleyasının 64-cü sessiyasında martın 21-i Beynəlxalq Novruz Günü elan olunub. Vurğulanıb ki, müzəffər Ali Baş Komandanımız və qüdrətli ordumuzun sayəsində artıq işğaldan azad edilən qədim yurd yerlərimizdə də tonqallar qalanır, ölkəmiz bu milli bayramı yüksək əhval-ruhiyyə ilə qeyd edir. Gənclərə milli-mənəvi dəyərlərimizə hər zaman hörmətlə yanaşmağı tövsiyyə edən rektor hər kəsi bayram münasibətilə təbrik edib, onlara cansağlığı və firavan həyat arzulayıb.

Universitetin həyətində möhtəşəm Novruz tonqalı alovlandırılıb, tələbələr tonqal ətrafında dövrə vuraraq yallı rəqsini ifa edib, maraqlı konsert proqramı ilə çıxış ediblər. Tədbirdə bayramın tarixi dəyərini, xalqımızın adət-ənənələrini, Novruz rəmzlərini əks etdirən nümunələr, tələbələrin hazırladıqları səhnəciklər nümayiş etdirilib. Novruzun rəmzlərindən olan Kosa və Keçəlin məzəli çıxışı, yumurta döyüşdürməsi maraqla qarşılanıb.

Sonra çay süfrəsi ətrafında davam edən tədbirdə İncəsənət və Pedaqoji fakültələri müəllim və tələbələrinin hazırladıqları dekorativ-tətbiqi sənətkarlığın müxtəlif sahələrinə aid sənət nümunələri nümayiş etdirilib. Çay süfrəsində bayramın milli şirniyyatları paxlava, şəkərbura, qoğal, müxtəlif çörəklər, qəlyanaltılar, içkilər, şərbətlər və şirniyyatlar təqdim edilib. Konsert proqramında Xalq Çalğı alətləri kafedrasının “Buta” instrumental ansamblının, Tələbə Teatr Studiyasının, “Naxçıvan qala” ritm qrupunun, Naxçıvan Musiqi Kollecinin müəllim və tələbələrinin çıxışları maraqla qarşılanıb. Ali təhsil ocağında təhsil alan əcnəbi tələbələrin də milli bayramımızda azərbaycanlı tələbələrlə birgəlik nümayiş etdirməsi tədbir iştirakçılarına xoş ovqat bəxş edib. Tələbələr milli musiqilərimiz və rəqslərimizi ifa etməklə hər kəsə maraqlı anlar yaşadıblar.

Tədbirdə, həmçinin idmanın güləş növündə təmsil olunan gənclərin nümunəvi çıxışları sərgilənib.

Sonda xatirə şəkli çəkdirilib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## İXTİSASARTIRMA KURSUNU MÜVƏFFƏQİYYƏTLƏ BİTİRƏN MÜƏLLİMLƏRƏ SERTİFİKAT TƏQDİM OLUNUB

Kimya, Fizika və Biologiya fənləri üzrə ixtisasartırma kursunu müvəffəqiyyətlə bitirən müəllimlərə sertifikat təqdim olunub. Tədbirdən öncə Naxçıvan Dövlət Universiteti Televiziyası tərəfindən hazırlanan ixtisasartırma kursu zamanı çəkilən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev muxtar respublikada tədris üçün yaradılan şəraitdən, elmdə və təhsildə qazanılan uğurlardan söhbət açıb. Rektor universitetdə Kimya, Fizika və Biologiya ixtisasında təhsil alan tələbələrin müasir şəraitdə qurulan laboratoriyalarda dərs keçmələrinin gələcəkdə bilavasitə ümumtəhsil məktəblərində şagirdlərin bilik və bacarıqlarının artırılmasına hesablanan addım olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, sözügedən fənlərin universitetdə bakalavr, magistratura və doktorantura pilləsində kadr hazırlığı həyata keçirilir. Elbrus İsayev ümumtəhsil məktəblərində bu fənləri tədris edən müəllimlərin şagirdlərin gələcəkdə savadlı mütəxəssis kimi yetişməsində mühüm rol oynadığını qeyd edib. Bu baxımdan Naxçıvan Dövlət Universiteti və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə bir çox nümunəvi dərs, layihə və kursların həyata keçirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsində xüsusi önəm kəsb edir deyə rektor bildirib. Keçirilən layihələrin əhəmiyyətini vurğulayan Elbrus İsayev ali və orta ümumtəhsil məktəbləri ilə əlaqəli tədbirlərin keçirilməsinin bilik və təcrübə mübadiləsi, gələcək pedaqoji fəaliyyət prinsiplərinin düzgün müəyyənləşdirilməsi baxımından önəmli olduğunu diqqətə çatdırıb. Rektor əvvəlcədən təyin edilmiş qrafikə əsasən ali təhsil ocağının peşəkar müəllimləri tərəfindən keçirilən ixtisasartırma kursunda uğurla iştirak edən edən müəllimlərin əksəriyyətinin universitetin məzunları olduğunu vurğulayıb.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov muxtar respublikada təhsilə göstərilən dövlət qayğısı, müəllim əməyinə verilən dəyər nəticəsində bu gün ali məktəbə qəbul olunan gənclərin seçdikləri ixtisaslar arasında müəllim peşəsinə böyük maraq olduğunu qeyd edib. Nazir bildirib ki, ümumtəhsil məktəblərinin müasir laboratoriya avadanlıqları ilə təmin edilməsi dəqiq elmlərin tədrisinin inkişafına, müəllimlərin peşə hazırlıqlarının yüksəldilməsinə, şagirdlərin bu sahədəki bilik və qabiliyyətlərinin artırılmasına böyük stimul yaradıb.




Universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov keçirilən kurs haqqında məlumat verib. Bildirilib ki, ixtisasartırma kursunda müasir təlim metodlarının tətbiqi, kimya, fizika və biologiya fənlərinə dair ən mühüm bilik və bacarıqlara yiyələnməsi üzrə işin sistemli şərh edilməsi qarşıya qoyulan məqsədlərə nail olmaq üçün müəllimin fəaliyyətinin əsas istiqamətləri olub.

Sonra Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin müəllimi Arzu Kərimli çıxış edərək müəllimlərin peşəkarlıq səviyyələrinin artırılması üçün təşkil edilən kursu yüksək dəyərləndirib və müəllimlər adından göstərilən diqqət və qayğıya görə minnətdarlıq edib.

Sonda ixtisasartırma kursunu uğurla bitirən müəllimlərə sertifikatlar təqdim olunub.

Qeyd edək ki, 5 gün davam edən ixtisasartırma kursunda ümumtəhsil məktəbləri üzrə hər ixtisasdan 20 nəfər olmaqla ümumilikdə 60 müəllim iştirak edib. Təşkil edilən kurs universitetin kabinə və laboratoriyalarında hər gün 2 saat olmaqla təsdiq edilmiş qrafik və müəllimlərin də təklifləri əsasında müəyyən olunan mövzular üzrə həyata keçirilib. Məlumat üçün bildirək ki, kimya fənnindən kimyəvi reaksiyanın sürəti və kimyəvi tarazlıqla bağlı təcrübələrin aparılması, hidrogenin alınması və xassələri, nitratların qızdırıldıqda parçalanması, xromatların bixromata və əksinə çevrilməsi, fizika fənnindən ifrat keçiriciliyi, termodinamikanın qanunları, mexaniki rəqslər, biologiyadan vitaminlər və vitaminli preparatların alınma biotexnologiyası, vegetativ və generartiv orqanlarda ümumi qanunauyğunluqlar, laboratoriya şəraitində göyərçinin xarici və daxili quruluşunun öyrənilməsi və bir sıra mövzular müasir avadanlıqlarla qurulan laboratoriya və kabinələrdə əyani şəkildə kurs iştirakçılarına izah edilib.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# UNİVERSİTETİN KOLLEKTİVİ "MUZEY GÜNLƏRİ" ÇƏRÇİVƏSİNDƏ NAXÇIVAN BİZNES MƏRKƏZİNDƏ OLUB

Naxçıvan Biznes Mərkəziylə tanış olan qonaqlara məlumat verilib ki, mərkəzin əsas fəaliyyət istiqamətləri ölkəmizdə aparılan iqtisadi islahatlar, dünya iqtisadiyyatındakı yeniliklər, sahibkarların bilik və iş təcrübələrinin artırılmasına yönəlmiş tədbirlərin keçirilməsi, reklam və marketinq işinin təşkili kimi sahələrdə sahibkarların maarifləndirilməsidir. Qeyd edilib ki, hələ 2004-cü ildə əl işləri və sənət əsərlərinin sərgi və satışı, sahibkarların tədris-informasiya mərkəzi kimi fəaliyyətə başlayıb və 2011-ci ildən Naxçıvan Biznes Mərkəzi kimi fəaliyyətini davam etdirib. 2013-cü ildən isə mərkəz




öz fəaliyyətini bu məqsəd üçün yeni inşa edilmiş binada davam etdirməkdədir. Bildirilib ki, sərgi salonunda muxtar respublikada 100-dən artıq istehsal və xidmət müəssisəsi tərəfindən istehsal edilən müxtəlif tikinti, ərzaq, geyim, mebel nümunələri nümayiş olunur. Onların arasında yüngül və ağır sənaye, kənd təsərrüfatı, qida, tekstil, dağmədən, metallurgiya, avtomobil sənayesi, rabitə və digər sahələrin məhsullarını misal göstərmək olar.

Qonaqlara muxtar respublikanın ənənəvi brend məhsulları olan qaya duzu, mineral sular, dağlardan toplanmış müalicəvi əhəmiyyətli bitki çayları haqda məlumat verilib. Bildirilib ki, zəngin floraya malik Naxçıvan ərazisində 150-dən çoxu rəsmi dərman bitkiləri olan 2900-dən artıq bitki mövcuddur. Muxtar respublikada özəl bölmənin təmsilçiləri olan "Gəmiqaya Holdinq", "Cahan Holdinq" Kommersiya Şirkətlər ittifaqları, "Dizayn Holdinq", "Ləzzət Qida Sənaye", "Badamlı Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətləri, Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti ilə yanaşı, çox saylı kiçik və orta müəssisələr tərəfindən istehsal olunan məhsulların sərgidə öz yerini tutduğu qonaqların diqqətinə çatdırılıb.

Vurğulanıb ki, muxtar respublikanın mövcud resursları hesabına istehsal edilən tikinti materialları, sement, kərpic, daş məhsulları, tibb sahəsində istifadə olunan müxtəlif qazlar yerli tələbatı 100% ödəyir. Bununla yanaşı daş məhsulları, sement, mebel məmulatları İran, Türkiyə və Gürcüstan respublikalarına ixrac edilir. Hazırda bir çox müəssisə 100-ə yaxın adda məhsulunu Gürcüstan, Belarus, İran,Türkiyə və MDB ölkələrinə də ixrac edir. İxac potensiallı müəssisədən olan "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətinin məhsulları ilə tanışlıq zamanı bildirilib ki, muxtar respublikada sahibkarlıq mühitinin formalaşdırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması nəticəsində müasir texnologiya əsasında yeni "Badamlı" Mineral Sular Zavodunun istifadəyə verilməsi olub. Muxtar respublikada kənd təsərrüfatı istehsalçılarına müxtəlif aqrotexniki xidmətlər göstərən, lizinq ilə kənd təsərrüfatı texnikası və ehtiyat hissələri ilə təchizatını həyata keçirən Naxçıvan "Aqrolizinq" ASC haqqında məlumat verilib.

Əl işlərinin sərgiləndiyi guşədə Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin 2009-cu il 7 fevral tarixli sərəncamı ilə sənətkarların fəaliyyətlərinin stimullaşdırılması məqsədilə xalq yaradıcılığı günlərinin keçirilməsi və sərgidə yer alan Naxçıvan abidələrinin üstünlük təşkil etdiyi nümunələr qonaqların diqqətinə səbəb olub.

Muxtar Respublikada son illər yaradılmış istehsal və xidmət obyektlərini əks etdirən xəritədə maşınqayırma, kimya, tikinti, enegetika, metallurgiya, yüngül, yeyinti və aqrar sənayesi, soyuducu anbarlar, istixana kompleksləri, heyvandarlıq, quşçuluq, arıçılıq, limonçuluq təsərrüfatlarının öz əksini tapdığı qeyd edilib.




# 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ QEYD EDİLİB

Naxçıvan Dövlət Universitetində 31 Mart Azərbaycanlıların soyqırımı gününə həsr olunmuş tədbir keçirilib. Universitetin Beynəlxalq münasibətlər və hüquq fakültəsində keçirilən tədbirdə soyqırımı qurbanlarının və Vətənimiz uğrunda canından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov qeyd edib ki, 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman erməni millətçilərinin cinayətkar əməllərinə verilən dolğun və hərtərəfli siyasi qiymət olub. Fərmanda ermənilərin Azərbaycan xalqının başına gətirdiyi müsibətlər dünyaya bəyan edilərək bu qanlı əməllərə düzgün siyasi qiymət verilib. Vurğulanıb ki, bu tarixi sənəd Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının qorunması baxımından da fundamental bir proqramdır. Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti və şanlı ordumuzun rəşadəti ilə qazandığımız qələbəni düşmənə verilən layiqli dərs kimi dəyərləndirən prorektor gənc nəsli soyqırımı qurbanlarının, hər iki Qarabağ müharibəsi şəhidlərinin xatirəsini daim əziz tutmağa və tarix boyu bədnam qonşularımızın başımıza gətirdikləri faciələrdən ibrət almağa çağırıb.

Azərbaycan tarixi kafedrasının baş müəllimi Zamin Məmmədov "31 mart-tarixi yaddaşımızdan silinməyən soyqırım", "Tarix müəllimliyi" ixtisası üzrə IV kurs tələbəsi Cabbar Məmmədov "1918-ci ildə Naxçıvanda mart soyqırımları" adlı mövzularda çıxış ediblər. Çıxışlarda bildirilib ki, azərbaycanlıların soyqırımı erməni faşizminin xalqımızın taleyində həkk etdiyi qanlı salnamə, bütün türk dünyası və bəşəriyyət üçün tarixi ibrət dərsidir. Tarix boyu Azərbaycanımıza qarşı yönəlmiş bu mənfur siyasətin doğma Naxçıvanımızdan da yan keçmədiyi vurğulanıb.

Sonda soyqırım hadisələrini əks etdirən sənədli film nümayiş olunub.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# TİBB FAKÜLTƏSİ ƏMƏKDAŞLARI BEYNƏLXALQ KONQRESDƏ

Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin dekanı, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov, tibb üzrə fəlsəfə doktoru, professor İsa Abdullayev və tibb üzrə fəlsəfə doktoru, dosent Cəbi İsmayılov Türkiyə Cümhuriyyətinin Adana şəhərində keçirilən V Çukurova Gastro-İntestinal Xəstəliklər və Cərrahi Konqresində iştirak ediblər. Beynəlxalq səviyyədə təşkil olunan konqresə bir çox təcrübəli elm adamları olmaqla, 850-dən artıq iştirakçı




qatılıb. Təcrübələrin paylaşılması məqsədilə 8 bölmədə keçirilən tədbirdə video və foto təqdimatlar üstünlük təşkil edib.

Türkiyə Ostomi Cərrahi Dərnəyi, Adana Təhsil və Araşdırma Xəstəxanası, Adana Çukurova Universiteti, Azərbaycan Endoskopik Laproskoplar Dərnəyi, Gastroenteroloji Diyetoloqlar Dərnəyinin birgə təşkilatçılığı ilə keçirilən konqresdə cərrahi xəstəliklər başda olmaqla, həzm sisteminə daxil olan orqanların ümumi və metabolik xəstəlikləri müzakirə mövzusu olub.

Konqresin açılış mərasimində çıxış edən Tibb fakültəsinin dekanı Elsevər Əsədov Naxçıvan Dövlət Universitetinin son illərdə qazandığı elmi uğurları, qardaş Türkiyə Universitetləri ilə birgə aparılan beynəlxalq əməkdaşlıq məsələlərini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Konqresdə Tibb fakültəsinin "Ümumi təbabət və klinik fənlər kafedrası"nın professoru İsa Abdullayevin "Kəskin pankreatitlərin müalicəsində müvəqqəti kimyəvi pankreatektomiyanın klinik əhəmiyyəti", həmin kafedranın dosenti Cəbi İsmayılovun "Hepatoeksternal öd yollarının İatrogen hasarları" və fakültə dekanı Elsevər Əsədovun "Naxçıvan MR ərazisindən əldə olunan arıçılıq məhsullarının həzm sistemi xəstəliklərinin müalicəsində rolu" mövzularında çıxışları dinlənilib.

Çıxışlarda qeyd edilib ki, ümumi cərrahiyyənin əsas mövzularından biri olan həzm sistemi xəstəliklərinin, xüsusən də xərçəngin yayılmasının günümüzdə çox artmasının şahidi oluruq. Bildirilib ki, qida borusu, mədə və yoğun bağırsaq xəstəliklərinin cərrahi müalicəsi hələ də öz əvəzedilməz xüsusiyyətini qoruyub saxlayır. Bu sahədə açıq cərrahi əməliyyatla yanaşı, laparoskopik, robotik və endoskopik tətbiqlərin həyata keçirilməsinin məqəduyğunluğu da diqqətə çatdırılıb. Həmçinin, müzakirələrdə qeyd olunub ki, müalicə prosesində uğurların əldə olunması üçün bu sahədə sürətlə artan elmi araşdırmaları, nəşrləri və texnoloji inkişafları daima izləmək, müalicə üsullarının multidisiplinar müzakirə edilməsi vacibdir.

Bölmə iclaslarının təşkilində professor İsa Abdullayevin də iştirakı təmin edilib.

Konfransın yekununda iştirakçılara sertifikatlar təqdim olunub, gələcəkdə belə konqreslərin Naxçıvanda keçirilməsi də müzakirə edilib.

Qeyd edək ki, konqres ümumi cərrahlar, cərrah köməkçiləri, dietoloqlar, tibb tələbələri və tibb işçiləri üçün mühüm əhəmiyyət daşıyan bir tədbir olub. Konqres texnologiya və cərrahiyyənin bir araya gəldiyi konfranslar, canlı yayımlar, ekspert məsləhətləşmələri və dəyirmi masa müzakirələri ilə yanaşı, təcrübəli mütəxəssislərlə görüş imkanlarının dəyərləndirilməsi baxımından da öz əhəmiyyətliliyi ilə yadda qalıb.

# ADA UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI UNİVERSİTETDƏ OLUBLAR




ADA Universitetinin Kommunikasiya və Rəqəmsal Media proqramının rəhbəri Şəfəq Mehrəliyeva, Tələbə qəbulu şöbəsinin əməkdaşı Elşad Göyüşov Naxçıvan Dövlət Universitetində olublar. Beynəlxalq münasibətlər və hüquq fakültəsində keçirilən tədbirdə universitetin Ümumi işlər üzrə prorektoru Xəyal Camalov qonaqları salamlayıb. Ali təhsil ocağının elmi potensialı, maddi-texniki bazası və bu ali məktəbdə yerinə yetirilmiş beynəlxalq layihələr haqqında məlumat verilib.

ADA Universiteti Tələbə qəbulu şöbəsinin əməkdaşı Elşad Göyüşov qeyd edib ki, universitetin tarixi 2006-cı ildən başlayır. Belə ki, 2006-cı ilin martında Azərbaycan Xarici İşlər Nazirliyinin nəzdində Azərbaycan Diplomatik Akademiyası adı altında ali təhsil müəssisəsi yaradılıb. Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasının və Azərbaycan Respublikasında İnformasiya Texnologiyaları Universitetinin əsasında ADA Universiteti yaradılıb. Diqqətə çatdırılıb ki, universitetin əsas məqsədi diplomatiya, ictimai münasibətlər, biznes, informasiya texnologiyaları və sistem mühəndisliyi üzrə qlobal liderlər hazırlamaqdır. Sonra qonaq tələbələri universitetə qəbul qaydaları ilə tanış edib. Vurğulanıb ki, aparılan mühazirənin əsas məqsədi magistr təhsil pilləsi haqda tələbələri məlumatlandırmaqdır. Diqqətə çatdırılıb ki, ADA Universiteti qəbul zamanı yüksək nəticə göstərmiş tələbələrə universitetdə işləyərək həm təhsil haqqından azad olmaq, həm də təcrübə qazanmaq şansı verir.

ADA Kommunikasiya və Rəqəmsal Media proqramının rəhbəri Şəfəq Mehrəliyeva vurğulayıb ki, universitet seçmə fənlər və ümumi təhsil proqramı vasitəsilə əməkdaşlıq edərək və ünsiyyət quraraq həllər təklif edən yüksək potensiala malik məzunlar yetişdirir. Qarşılılqlı müzakirə şəklində keçirilən mühazirədə tələbələrin sualları cavablandırılıb.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ TƏLƏBƏ GƏNCLƏR TƏŞKİLATI ÖLKƏ ÜZRƏ "İLİN ƏN YAXŞI TƏLƏBƏ GƏNCLƏR TƏŞKİLATI" ADINI QAZANIB

Azərbaycan Respublikası Gənclər Fondu və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının təşkilatçılığı ilə Bakı şəhərində 2 fevral Gənclər gününə həsr olunmuş Tələbə Gənclər Təşkilatlarının I strateji planlaşdırma forumu həyata keçirilib.

Forum çərçivəsində 2021-ci ildə ölkədə ictimai və sosial əhəmiyyətli o cümlədən könüllü fəaliyyətin təşkili və bu fəaliyyətin həyata keçirilməsində fəal iştirakına görə Naxçıvan Dövlət Universiteti Tələbə Gənclər Təşkilatı "İlin ən yaxşı Tələbə Gənclər Təşkilatı" nominasiyası üzrə mükafatlandırılıb.




Qeyd edək ki, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı qeyri-siyasi, qeyri-kommersiya və qeyri hökumət təşkilatı olmaqla hazırda Azərbaycan Respublikasının 101 ali və orta ixtisas təhsil müəssisəsində fəaliyyət göstərən Tələbə Gənclər Təşkilatını özündə birləşdirir. Bu təşkilatın sırasına həm paytaxt, həm də regionların ali təhsil müəssisələri aiddir.

Məlumat üçün onu da bildirək ki, Naxçıvan Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatının əsas məqsədi dövlət gənclər siyasətinin həyata keçirilməsi istiqamətində tələbələrin və ayrı-ayrılıqda hər bir tələbənin maraqlarını təmsil və müdafiə etmək, respublikanın ictimai-siyasi, mədəni, sosial, iqtisadi həyatında onların fəal iştirakını təmin etməkdir. Məhz ali təhsil ocağının tələbə təşkilatlarının fəallığı nəticəsində universitet tələbələri muxtar respublikada, Azərbaycanda keçirilən müsabiqələrdə, olimpiadalarda, sərgilərdə, festivallarda və digər tədbirlərdə fəal iştirak edir və qələbə qazanırlar.

# UNİVERSİTETİN NÜMAYƏNDƏ HEYƏTİ AVRASİYA ALİ TƏHSİL SAMMİTİ EURİE-2022-NİN RƏSMİ AÇILIŞINDA İŞTİRAK EDİB

Naxçıvan Dövlət Universitetinin nümayəndə heyəti Türkiyənin İstanbul Aydın Universitetində hibrid formatda 7-ci Avrasiya Ali Təhsil Sammiti EURİE 2022-nin rəsmi açılışında iştirak ediblər. Naxçıvan Dövlət Universiteti Elm və innovasiyalar bölməsinin müdiri Rza Məmmədov, Beynəlxalq əlaqələr bölməsinin müdiri İlahə Hüseynova, Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri Şəhla Şirəliyevanın qatıldığı sammitdə 50-yə yaxın ölkədən nümayəndə heyəti iştirak edib.

EURİE 2022-nin açılış mərasimində çıxış edən Avrasiya Universitetlər Birliyinin prezidenti Mustafa Aydın tədbirə həm canlı həm də onlayn olaraq qoşulan rəsmi nümayəndələri salamlayaraq sammitin əhəmiyyətindən danışıb. Tədbirin rəsmi açılışından sonra tədbir bölmə iclasları ilə davam edib.

Sammitin ikinci günündə tədbir Mərmərə Universitetində davam edib. Tədbirdə universitetin tanıtım çarxı nümayiş olunub. Mərmərə Universitetinin Beynəlxalq Əlaqələr və Akademik işbirliyi ofisinin baş direktoru professor Nuri Tınaz qonaqları salamlayaraq universitetin beynəlxalq əlaqələri və akademik əməkdaşlıq haqda ətraflı məlumat verib. Sonra Amerika, İngiltərə, Əfqanıstan, Pakistan, Özbəkistan, Rumıniya, Misir və s. dünyanın müxtəlif ölkələrindən sammitdə iştirak edən universitet əməkdaşları təmsil etdikləri universitet haqqında qısa məlumat veriblər. Universitetimizin Beynəlxalq əlaqələr bölməsinin müdiri İlahə Hüseynova da Naxçıvan Dövlət Universitetinin keçdiyi tarixi inkişaf yolu və beynəlxalq əməkdaşlıqda qazandığı uğurları tədbir iştirakçılarının diqqətinə çatdırıb.




Universitetlərin tanıdılması, həmçinin gələcək əməkdaşlıqların qurulması baxımından çox səmərəli olan sammit bölmə iclasları ilə öz işinə davam edib. Bölmələrdə Qırğızıstanın Mərkəzi Asiyanın American Universitetinin əməkdaşları Bermet Tursunkulova "Qaçqınların ali təhsilə çıxışı", Ulukbek Visid "Əfqan (qaçqın) tələbələr üçün xüsusi mentorluq proqramı", İstanbul Universitetindən Hakan Ergin "Suriyalı qaçqınların Türkiyə Ali Təhsilinə inteqrasiyasına baxış" mövzularında çıxış ediblər.

Qeyd edək ki, EURIE 2016-cı ildən təşkil edilən illik beynəlxalq ali təhsil konfransı və sərgisidir. EURİE sərgisi müxtəlif ölkələrdən və regionlardan gələn iştirakçı ali təhsil müəssisələri və ali təhsildə digər maraqlı tərəflər üçün böyük şəbəkələşmə, akademik tərəfdaşlıq və biznesin inkişafı imkanlarını təklif edir. EURİE-nin zəngin konfrans proqramı bu sahədə tanınmış mütəxəssislərin iştirakı ali təhsilin idarə edilməsində əsas mövzulara toxunur.

"Beynəlxalq təhsilin gələcəyini təsəvvür etmək" mövzusunda keçirilən EURIE-2022-də akademik rəhbərlik, universitetlərin əməkdaşları, beynəlxalq marketinq xidməti təminatçıları, xaricdə təhsil üzrə məsləhətçilər və dövlət ali təhsil orqanları iştirak ediblər.

Məlumat üçün onu da bildirək ki, 3 gün davam edən sammitin proqramına panel sessiyaları, dəyirmi masalar, tanınmış təhsil nümayəndələri ilə görüşlər, tematik seminarlar, eləcə də təhsil sərgisi daxil idi.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***



# MAGİSTRANTLAR ÜÇÜN TƏLİM KEÇİRİLİB

Naxçıvan Dövlət Universitetində dissertasiya işlərinin yazılması qaydaları, araşdırma bacarıqlarının artırılması məqsədilə magistrantlar üçün təlim keçirilib.

Universitetin Elm və İnnovasiyalar bölməsi, Magistratura mərkəzi və Tələbə Elmi Cəmiyyətinin birgə təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə açan ali təhsil ocağının rektoru Elbrus İsayev magistrantların maarifləndirilməsi üçün bu kimi təlimlərin əhəmiyyətindən bəhs edib. Vurğulanıb ki, kadr potensialının gücləndirilməsi, tələbələrin elmi biliklərinin və peşə vərdişlərinin inkişaf etdirilməsi baxımından bu kimi təlimlər əhəmiyyətlidir. Qeyd olunub ki, dissertasiya işi magistrantın elmi fəaliyyətinin əsasını təşkil etdiyi üçün bu işdə məsuliyyətli olmalı və yüksək araşdırma qabiliyyəti ortaya qoyulmalıdır. Bildirilib ki, dissertasiya işinin yazılmasında magistrantın üzərinə düşən öhdəliklərlə yanaşı aidiyyatı kafedralar və elmi rəhbər də bu işlə yaxından maraqlanmalı və dissertasiya işlərinin nəşrində yardımçı olmalıdırlar.

Tələbə Elmi Cəmiyyətinin sədri Təbrizə Bağırova təlimin proqramını və təlimçilərə dair məlumatları iştirakçıların diqqətinə çatdırıb.

Magistratura mərkəzinin direktoru Etibar Məmmədov "Dissertasiya işlərinin yazılması qaydaları" mövzusundan bəhs edərək qeyd edib ki, dissertasiya işi qəbul olunmuş standartlara uyğun olaraq tərtib olunmalı və müəyyən tələblərə cavab verməlidir. Dissertasiya işi nədir, dissertasiya işində mövzunun seçilməsi, magistrantın fərdi iş planı, magistr dissertasiyasının tərkib hissələri- mündəricat, giriş, əsas hissə, nəticə, istifadə olunan ədəbiyyatlar və əlavələrin yazılması qaydaları izah edilib. Eyni zamanda dissertasiyanın tərtibinə verilən əsas tələblər, dissertasiyanın quruluşu və müdafiəsi təlim iştirakçılarına slayd vasitəsilə təqdim olunub.

Elm və İnnovasiyalar bölməsinin müdiri Rza Məmmədov "Tədqiqat metodikası və beynəlxalq elmi nəşrlər" mövzusunda slayd vasitəsilə təlim keçib. Rza Məmmədov elmi tədqiqat nədir, tədqiqatın planı, növləri, araşdırma metodikası, metodları, gedişi, xüsusiyyətləri, tədqiqat zamanı qarşıya çıxan problemlər, tədqiqatın etikası və digər məsələlər barədə məlumat verib. Beynəlxalq elmi nəşrlər haqqında məlumat verən təlimçi orcid.org və web of science saytlarında qeydiyyatdan keçmək və elmi məqalələrin nəşr olunması qaydalarını izah edib.

Sonda təlim iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# UNİVERSİTETİN MÜƏLLİMİ AİDƏ CƏLİLZADƏ BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK EDİB

Naxçıvan Dövlət Universiteti "İngilis dili və tərcümə" kafedrasının baş müəllimi Aidə Cəlilzadə Türkiyənin İstanbul şəhərində yerləşən MEF Universitetinin onlayn təşkil etdiyi IV Beynəlxalq Tələbə Konfransında iştirak edib. Konfransda fəxri qonaq qismində çıxış edən Aidə Cəlilzadə "Naxçıvan Dövlət Universitetinin müasir tədris strategiyası" mövzusunda məruzə ilə çıxış edib. Çıxışda ali təhsil ocağında müasir tədris üsulları, mövcud fakültələr, universitetin beynəlxalq əlaqələri haqda məlumat verilib. Bildirilib ki, Naxçıvan Dövlət Universitetinin apardığı beynəlxalq əməkdaşlıqda qardaş Türkiyə universitetlərinin xüsusi payı vardır.

Qeyd edək ki, bu il IV dəfədir keçirilən beynəlxalq konfransa 6 ölkə və 19 şəhərdən olmaqla professor-müəllim heyəti, doktorant, magistr və tələbələr qatılıblar. Məlumat üçün onu da bildirək ki, iki gün davam edən konfransda müəllim və tələbələrin sualları cavablandırılıb.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***




# "KOSMİK RAKETLƏR VƏ PEYKLƏR" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB



Ali təhsil ocağının Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı Bəhruz Məmmədov çıxış edərək müasir dövrümüzdə aktual olan sahəyə həsr olunan təlimin xüsusi əhəmiyyətini qeyd edib.

Tədbirə onlayn olaraq qatılan Azərkosmosun İctimai Əlaqələr üzrə mütəxəssisi Fidan Behbudova Azərkosmosun fəaliyyəti, bu sahəyə olan xüsusi diqqət haqda məlumat verib və təlimin təşkilatçılarına öz minnətdarlığını ifadə edib.

Kosmik raketlər və peyklər haqqında "Azərkosmos" ASC-nin peyk əməliyyatları üzrə aparıcı peyk operatoru Murad Məmmədov qeyd edib ki, Azərbaycanda müasir kosmik sənayenin formalaşdırılması Prezident İlham Əliyevin hakimiyyəti illərində açılıb. Sağlam təməllər üzərində dayanmış Azərbaycan iqtisadiyyatı məhz bu illərdə özünün ən sürətli inkişaf dövrünü yaşamağa başlayıb. Digər sahələrdə olduğu kimi bu sahənin də yenidən qurulması və müasir prinsiplərlə formalaşdırılması uzunmüddətli strateji yanaşma ilə mümkün olub. Bildirilib ki, 2008-ci ildə "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı imzalanıb, 2009-cu ildə "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" təsdiqlənib, növbəti ildə peyklərin orbitə çıxarılması, idarə edilməsi və istismarı işlərinin həyata keçirilməsi məqsədilə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti təsis edilib. Vurğulanıb ki, 2013-cü ildə "Azerspace-1" telekommunikasiya, 2014-ci ildə "Azersky" Yerin məsafədən müşahidəsi, 2018-ci ildə isə "Azerspace-2" telekommunikasiya peyki orbitə çıxarılıb. Murad Məmmədov, həmçinin diqqətə çatdırıb ki, bu peyk layihələrinin həyata keçirilməsinin əsas məqsədləri ölkənin milli təhlükəsizliyinin təmin olunmasına, sosial-iqtisadi inkişafa, elmi tədqiqatların aparılmasına dəstək verilməsi və beynəlxalq kosmik təşəbbüslərdə iştirak edərək ölkənin beynəlxalq imicinin yüksəldilməsinə töhfə verməkdir.

**Nazlı Himmətova**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

# NAXÇIVAN QARNİZON TAM ORTA MƏKTƏBİN ŞAGİRDLƏRİ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ OLUBLAR

"Fənlərin tədrisi və metodikası" kafedrasının müdiri, pedoqogika üzrə fəlsəfə doktoru, dosent Mətanət Quliyeva qeyd edib ki, məktəblilərin müxtəlif peşələrə olan meyl və maraqlarının müəyyənləşdirilməsi, gələcəkdə peşə və ixtisas seçimində onlara kömək göstərilməsi, şagirdləri yaradıcı əməyə hazırlamaq və düzgün ixtisas seçiminə yönəldilməsi baxımından bu kimi görüşlər xüsusi önəm kəsb edir.



Tədbirdə çıxış edən Riyaziyyat üzrə fəlsəfə doktoru, baş müəllim Nizami Quliyev qonaqları salamlayaraq davamlı olaraq orta məktəb şagirdlərinin Texnologiya mərkəzinə gələrək məktəbdə "Texnologiya" fənnində öyrəndikləri nəzəri bilikləri burada təcrübi olaraq artırdıqlarını qeyd edib.

Sonra şagirdlər mərkəzdə yerləşən kabinələrlə tanış olublar. Onlar qədim xalq sənəti olan xalçaçılığın sirlərini mənimsəyib, ilmə atma bacarığının incəliklərini öyrəniblər.

Eyni zamanda şagirdlər qurama, istifadə müddəti bitmiş geyimlərdən xalçaların toxunmasının əyani şahidi olublar. Mərkəzdə müxtəlif qəliblərdə sabun və şamların hazırlanması haqqında da şagirdlərə məlumat verilib. Qonaqlar, həmçinin, bədii tikmə, toxuma, məişətdə gündəlik istifadə edilən əşyaların hazırlanması qaydaları ilə tanış olublar. Kulinariya kabinəsində şagirdlərə Novruz bayramının əvəzolunmaz ənənələrindən olan səməni hazırlanması və yumurta boyanması haqqında məlumat verilib.

Daha sonra tələbələrin hazırladığı bayram yumurtaları qonaqlara təqdim edilib.

Qeyd edək ki, Naxçıvan Qarnizon tam orta məktəbin 6-cı sinif şagirdlərinin iştirakı ilə keçirilən tədbirdə 11 məktəbli iştirak edib.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# NAXÇIVAN TƏHSİLİN İNKİŞAFINDA LİDERDİR

Muxtar respublikanın ucqar dağ kəndlərinin şagirdləri bilik səviyyəsinə görə Azərbaycan miqyasında davamlı şəkildə necə rekordçu olurlar?

...Azərbaycanda ən çox xarici tələbənin hansı ali məktəbdə təhsil aldığını bilirsinizmi?

Bu, heç də yaşı 80-100 olan universitetlər, tanınmış akademiyalar deyil. Blokada şəraitinin ağır çətinlikləri, fəsadları altında fəaliyyət göstərən Naxçıvan Dövlət Universitetidir...

Bu informasiya muxtar respublikada təhsillə bağlı eşitdiyimiz ilk, ancaq son müsbət təəccübümüz olmadı. Bəli, təhsildə heyrətə səbəb olan faktlar, proseslər nə yaxşı ki, hələ də var imiş...

**55 yaşlı müdrik cavan**

1967-ci ildə 3 ixtisas üzrə 3 ştatlı müəllim və 102 tələbə ilə Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi ilk qədəmini atan, 1972-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutuna çevrilən, artıq 22 ildir dövlət universiteti kimi fəaliyyət göstərən bu 55 yaşlı ali məktəb indi muxtar respublikanın təhsil bayraqdarıdır. Bununla bərabər, ölkə miqyasında xeyli təhsil ilklərinə müəlliflik edir və pafoslu planları, bəlağətli hədəfləri ilə deyil, məhz konkret fəaliyyət nəticələri, real uğurları ilə çox "təhsil flaqmanından" önə keçir.

Heydər Əliyev Naxçıvan Dövlət Universitetini (NDU) hər zaman xüsusi himayə edib, onun inkişafı üçün düzgün yol müəyyənləşdirib. İlk dəfə 48 il əvvəl - 1974-cü ildə olduğu, sonradan isə dəfələrlə ziyarət etdiyi universitet barədə Ulu Öndər deyirdi: "Çox xoşbəxtəm ki, mən bu universitetin yaranmasının təməlini qoyanlardan biri və onun təşəbbüskarıyam. Böyük iftixar hissi keçirirəm ki, əsasını qoyduğumuz bu gözəl təhsil ocağı indi böyük şöhrətə malikdir. Naxçıvan təhsili, məktəbi mənim üçün əzizdir. Naxçıvan Dövlət Universiteti isə Naxçıvan təhsilinin zirvəsidir".

Bu qayğı Prezident İlham Əliyev tərəifndən də davam etdirilib. Dəfələrlə olduğu, hər dəfə də mühüm infrastruktur açılışlarını etdiyi universitet barədə dövlət başçısının bu sözləri xüsusilə diqqət çəkir: "Naxçıvan Dövlət Universiteti böyük və şərəfli yol keçmişdir. Mən şadam ki, universitet çox sürətlə inkişaf edir, burada çox böyük işlər görülür. Universitet dünyanın aparıcı ali məktəbləri ilə çox yaxşı işgüzar əlaqələr yarada bilibdir. Burada müxtəlif ölkələrdən tələbələr oxuyur. Bu da onu göstərir ki, Naxçıvan Dövlət Universitetinin nüfuzu dünyada kifayət qədər yüksək səviyyədədir. Burada görüləcək işlər, yeni fakültələrin açılması və gələcək planlar, əlbəttə, imkan verəcək ki, Naxçıvan Dövlət Universiteti nəinki regionda, hətta dünya miqyasında tanınmış ali məktəblərin birinə çevriləcəkdir".

Prezident NDU qarşısında konkret məqsəd müəyyənləşdirmişdi və 15 il öncə elan edilən bu hədəf indi gerçəyə çevrilir. Bu mövzuda universitetin rektoru Elbrus İsayev böyük şövqlə, qürurla danışır. Ölkənin ən gənc rektoru olan Elbrus müəllim universitetin sabahı ilə bağlı aydın vizyona, prinsipial mövqeyə, ən əsası isə əminliyə sahibdir. Onunla söhbətləşdikcə, əməl hesabatını dinlədikcə onun öz fəaliyyətində müasir çağırışlarla mükəmməl ənənələri uğurla birləşdirdiyini, məsuliyyət daşıdığı sahəni nəticəsiz, populist eksperimentlərdən qoruyaraq düzgün məcrada inkişaf etdirdiyini və etimada bəslədiyi sədaqəti aydın görmək olur. Maraqlı məqam odur ki, rektorun tələbəlikdən etibarən həyatı məhz bu universitetlə bağlıdır. Burada bakalavr, magistr, doktorantura təhsili alıb, tələbəlik illərində universitet Gənclər Təşkilatının, Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifələrində çalışıb. Müəllimi, baş müəllimi, dekanı olduğu universitetə rəhbərlik 3 il öncə ona həvalə edilib. Çoxsaylı təltif, mükafata sahibdir, elə ən sonuncusunu xatırladaq: "2021-ci ilin ən yaxşı rektoru" sosial sorğusunun qalibi olub.

Rektorla bərabər universitetin korpuslarını gəzirik. Onun "universitet şəhərciyi" ifadəsi ilə razılaşmıram. Bura şəhərcik deyil, elə şəhərdir - müasir gənclər şəhəri, modern təhsil şəhəri! 108 hektarlıq ərazidə 13 tədris korpusundan əlavə, elektron kitabxana, konservatoriya, sosial xidmət mərkəzi, universitet xəstəxanası, olimpiya idman mərkəzi, Tələbə evi, Qonaq evi, 2 stadion və digər çoxsaylı təhsil-sosial infrastrukturları yerləşir. Hər biri də 4-6 mərtəbəli, tam təmirli, ən son nəsil avadanlıqlarla təchiz edilmiş, zövqlə tikilmiş binalar...

Əslində, bütün korpuslarda olmaq üçün heç bir gün də kifayət etməz. Həyat burada hər addımda qaynayır. Hazırda universitetdə 451 professor-müəllim heyəti çalışır ki, onların da arasında Milli Elmlər Akademiyasının müxbir üzvü, elmlər doktoru, professor, fəlsəfə doktoru, Xalq rəssamı, Əməkdar elm xadimi, Əməkdar müəllim, Əməkdar artist, Əməkdar mədəniyyət işçisi və digər yüksək elmi-ictimai statusu şərəflə daşıyanlar var. 12 fakültədə bakalavriat səviyyəsi üzrə 70 ixtisas, magistraturada 82 ixtisaslaşma, doktoranturada 52 və rezidentura üzrə 32 ixtisasda ümumilikdə 8 minə yaxın tələbə təhsil alır. 13 ixtisasda 516 tələbəyə təhsil verən Musiqi kolleci də ötən il universitetin tabeliyinə verilib. Rektor növbəti iki il ərzində tələbə sayının 10 min nəfəri keçəcəyinə əmindir.

Xarici tələbələrlə qarşılaşırıq. Elbrus İsayev məlumat verir ki, ümumilikdə burada bakalavr və magistratura səviyyəsində 9 ölkədən 1493 tələbə təhsil alır. Bu rəqəm indi ölkə üzrə rekord göstəricidir. Deməк, illər boyu muxtar respublikada minlərlə xarici tələbə təhsil alıb. Tələbələrin hansı ölkələrdən gəlmələri ilə maraqlanırıq. Türkiyə, İran, Rusiya, Pakistan, Özbəkistan və digərləri sırasında dünyanın ən modern təhsil modellərindən birinə malik Cənubi Koreyadan da tələbə olduğunu eşidəndə təəccüblənirik. Cənubi Koreyanın KOICA təşkilatı ilə birlikdə "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsini həyata keçirən NDU-nun ABŞ-dan İngiltərəyə, Çindən Rusiyaya, Fransadan Misirə, Almaniyadan Pakistana, İspaniyadan İrana qədər, bir sözlə, dünyanın 50-dən çox ölkəsinin 100-dən artıq ali təhsil ocağı ilə faydalı əməkdaşlıq əlaqələri var.

Maraqlıdır, axı o uzaq ölkələrdən gələn tələbə, özü də minlərlə tələbə niyə məhz Naxçıvanı seçir? Rektor bunun səbəblərini izah edir: həm normal yaşam üçün tələb olunan bölgənin yüksək inkişaf və sabitlik göstəriciləri, həm təhsil nailiyyətləri, həm də burada gördükləri yüksək qayğı, himayə, qonaqpərvərlik... Digər səbəblərin də hər biri əsaslıdır. Məsələn, əcnəbi tələbələrə davamlı olaraq ərzaq payı ayrılır. Pandemiya dövründə isə muxtar respublika rəhbərliyi tərəfindən xarici tələbələrə maddi dəstək göstərilir, soyuducuları boş qalmır. Bu mənəvi dəyərlər kontekstində NDU-nun xaricdə əsas təbliğatını məhz burada təhsil almış, indi də təhsil alan tələbələr aparır və həmvətənlərini universitetə cəlb edirlər.

Xatırladaq ki, NDU-da təhsil alan yerli tələbələrin coğrafiyası Azərbaycanın bütün bölgələrini əhatə edir.

**Populist planlar yox, məhz real nəticəli innovasiyalar var**

Avropa Rektorlar Klubu tərəfindən "Minilliyin universiteti" adına layiq görülən NDU yeni texnologiyaların tətbiqi, tədrisin səviyyəsi, mənimsəmə və davamiyyətə görə Azərbaycan ali məktəblərinin reytinq cədvəlində də iki dəfə birinci yerə sahib olub.




Universitetin bir nailiyyəti də tələbələrin təkmil təcrübə keçməsini və nəticədə sonradan rahat iş tapa bilməsini təmin edəcək layihənin artıq üç ildir icra olunmasıdır. Muxtar Respublika Ali Məclisi Sədrinin müəllifi olduğu bu təşəbbüs əsasında universitetdə bakalavriat səviyyəsi üzrə 70 ixtisas müvafiq olaraq 34 dövlət təşkilatına, subbakalavriat səviyyəsi üzrə isə 13 ixtisas 4 dövlət təşkilatına hamiliyə verilib. Dövlət strukturlarının rəhbərləri, nazirlər tələbələrlə mütəmadi görüşür, təmsilçiləri onlara mühazirələr oxuyur, təcrübə prosesinin keyfiyyətli gedişini təmin edir, nəticədə fərqlənən tələbələr işlə təmin olunur. Rektorun təbirincə desək, ixtisasların dövlət qurumlarına hamiliyə verilməsi kadr potensialının inkişafı ilə yanaşı, gənclərin istedadlarının üzə çıxarılması, ideyaların reallaşması və startap təşəbbüslərinin dəstəklənməsi sahəsində mühüm addımdır.

Bu, Azərbaycan təhsilində bir ilkdir, amma Naxçıvan miqyası üçün yeganə ilk deyil... Ölkəmizin ali təhsil müəssisələri arasında ilk dəfə Naxçıvan Dövlət Universitetində Distant Təhsil Mərkəzi istifadəyə verilib. Elektron universitetin fəaliyyətə başlaması isə Azərbaycan ali təhsil məkanında büdcəsinə və layihəsinin genişliyinə görə ən irihəcmli və əhəmiyyətli layihələrdəndir. Elektron təhsil, onlayn sənəd dövriyyəsi, akademik idarəetmə və digər təhsilin idarəedilməsi modellərini özündə birləşdirən Elektron universitet təhsilin elektron vasitələrlə həyata keçirilməsi ilə yanaşı, elektron imtahanları da əhatə edir.

İnnovasiyalar, dövrün qlobal trendlərinə qoşulma, yeni çağırışlara uyğun mütəxəssis yetişdirmə müasir təhsilin əsas faktorlarıdır. Ancaq ölkə miyqasında bu sahədə hələ də yetərincə səmərəli nəticələr əldə etməyən ali məktəblər var. Bəs NDU-da bu sahədə vəziyyət necədir?

Rektor Elbrus İsayev bu istiqamətdə həyata keçirilən çoxsaylı layihə, onların nəticələrindən danışır. Məsələn, Ali Məclis Sədrinin təşəbbüsü ilə yaradılan "Startap Naxçıvan" hərəkatı universitetin müasir təfəkkürlü peşəkar mütəxəssis hazırlığına, tələbə-gənclərdə innovativ ideyaların üzə çıxarılmasına, yaradıcı düşüncənin inkişafına xidmət edir. Universitetdə gənclərin layihələrini, ideyalarını dəstəkləmək üçün yaradılan "İnnovasiya mərkəzi" və "İnnovasiya laboratoriyası" tələbələrin startapla bağlı biliklərinin formalaşması, biznes layihə və planlarının qurulması, maarifləndirici treninqlərin keçirilməsini təmin edir. Eyni zamanda startap hərəkatına qoşulmanı optimallaşdırmaq və operativ əlaqələrin qurulması məqsədilə "İdeya bankı" fəaliyyət göstərir. Hazırda 20-yə yaxın startap layihəsi icra olunur.

Tədris prosesində İKT-nin tətbiqi sahəsində professor-müəllim heyətinin fənlər üzrə mühazirə mətnləri elektronlaşdırılıb və ixtisaslar üzrə tələbələrin şəxsi kabinetlərinə yerləşdirilib. Bu isə etiraf edək ki, ölkə ali məktəblərində rastlanan azsaylı faktlardandır və daim tələbələrin haqlı narazılığını yaradır. İmtahan sessiyasından əvvəl tələbələrin imtahanaqədərki balları şəxsi kabinetlərinə yüklənilir. Ötən il elektron test üsulu ilə 1141 imtahan keçirilib. Ali təhsil ocağının "E-cədvəl" mobil tətbiqi Azərbaycanın milli internet mükafatına layiq görülüb. Rəqəmsal ödəniş xidmətlərinin tətbiqi və nağdsız hesablaşmaların genişləndirilməsi məqsədilə tələbələrə yeni nəsil smart tələbə kartları verilib.

Tikintisi davam edən nəhəng kompleksin qarşısındayıq. Elbrus İsayev "Bura gələcəkdə yalnız universitetimizin və muxtar respublikanın deyil, bütün Azərbaycanın ən müasir elmi-texnoloji mərkəzlərindən olacaq" deyir. Rektorun mütləq əminliklə gələcək təyinatını müəyyənləşdirdiyi məkanla maraqlanırıq. Bura Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkı olacaq.

Bu infrastrukturu Ali Məclisin Sədri Vasif Talıbovun növbəti innovasiya təşəbbüsü kimi səciyyələndirən rektor qeyd edir ki, ümumiyyətlə, dünyada az sayda universitetdə texnopark vardır. Bura universitetin imkanlarını daha da genişləndirməklə yanaşı, beynəlxalq rəqabətqabiliyyətliliyin təmin olunması, innovativ layihələrin dəstəklənməsi və keyfiyyətli kadr hazırlığı kimi məsələlərə böyük təsir imkanları yaradacaq. 5 mərtəbəli Texnologiyalar Parkı universitetin 43 ixtisasının fəaliyyət sahəsinə daxil olacaq.

Layihəyə nəzər salırıq. Nano araşdırmalar, biotexnologiyalar, prototip mərkəzləri, proqramlaşdırma və avtomatlaşdırma, texnoservis, innovasiya, layihələrin əlaqələndirilməsi, informasiya texnologiyaları, süni intellekt elmi-tədqiqat mərkəzləri, incəsənət, dizayn və memarlıq layihələri xidməti, biznes inkubatoru, ideya bankı, energetika, startap mərkəzləri, nəbatət bağı, kənd təsərrüfatı və aqronomluq, coğrafiya, meliorasiya, arıçılıq sahələri, biopark, texnopark binaları... Bəli, bunlar Naxçıvan Dövlət Universitetində mövcud olacaq!

**Qədim alimlər yurdunda modern elmi yeniliklər**

Universitet ərazisində hərbi geyimli gənclərlə qarşılaşırıq. Məlum olur ki, onlar Tibb fakültəsində ötən ildən fəaliyyətə başlayan "Hərbi həkim" ixtisası üzrə təhsil alan tələbələrdir. Tibb fakültəsində olarkən isə maraqlı məqamla rastlaşırıq. Əczaçılıq və biokimya laboratoriyalarında müəllimlərlə yanaşı, tələbələr də iş başında idi. Yeni dərman vasitələri üzrə araşdırmalar aparılırdı. Məlum oldu ki, fakültənin dekanı, dosent Elsevər Əsədovun "Arı vərəmumu əsaslı oral və nazal sprey" layihəsi artıq patent üçün Əqli Mülkiyyət üzrə Dövlət Agentliyinə göndərilib və ilkin mərhələdən keçib. Qeyd edək ki, bu dərman vasitəsi universitetin müəllim və tələbələri ilə yanaşı, artıq ətrafda da geniş populyarlıq qazanıb və pandemiyanın fəsadlarından qorunmaq üçün təsirli sprey kimi qəbul olunur.

Bəs NDU-da - bu gənclər şəhərində tələbələrin dərsdənkənar asudə vaxtı necə keçir? Əvvəl yataqxanadan başlayaq. Tam təminatlı, müasir təchizatlı, yüksək təmirli, 2 korpuslu, ən əsası, bəlkə də simvolik sayılan ödənişli yataqxana 500-ə yaxın tələbənin isti ocağına, evinə çevrilib. Yaxınlıqdakı üç mərtəbəli Sosial Xidmət Mərkəzində isə tələbənin cibinə uyğun kafelər, istirahət, sərgi, mədəniyyət məkanları günboyu tələbələrin istifadəsindədir. Universitetin öz xəstəxanası da var. 3 mərtəbəli korpusda cərrahiyyə bloku, reanimasiya palataları, elektrokardioqrafiya, ultrasəs, rentgen və müayinə otaqları, klinik laboratoriya, aptek, 3 auditoriya, oftalmoloji, stomatoloji kabinələr və digər lazımi mükəmməl tibbi infrastruktur yaradılıb. Tələbə və müəlliflərin ixtiyarında təmənnasız olan bu xəstəxana həm də Tibb fakültəsinin təcrübə məkanıdır.

Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti, Tələbə Turizm Assosiasiyası, Tələbə İnformasiya Mərkəzi, tələbə teatr və opera studiyaları, xor, vokal və rəqs qrupları, İdman klubu universitetdə tələbələrin yaradıcılıq axtarışlarının, bilik və bacarıqlarının, dünyagörüşlərinin, təşkilatçılıq qabiliyyətlərinin daha da inkişaf etdirilməsinə, asudə vaxtlarının səmərəli təşkilinə geniş imkanlar yaradır. Universitetin gənc müəllimi Əziz Qasımovun bu günlərdə gənclər siyasəti və gənclərlə iş sahəsi üzrə fərqləndiyinə görə Prezident mükafatına layiq görülməsi isə həm də elə NDU-ya dövlət başçısının növbəti etimadıdır. Qeyd edək ki, Universitetin Tələbə Gənclər Təşkilatı da "İlin ən yaxşı Tələbə Gənclər Təşkilatı" nominasiyası üzrə mükafata layiq görülüb.

100 mindən artıq kitabxana fondu olan Naxçıvan Dövlət Universitetində ən yüksək kampus simsiz internet şəbəkəsindən istifadə olunur. Burada 3 internet mərkəzi, Media mərkəzi, Universitet televiziyası, radiosu, nəşriyyatı, "Elmi əsərlər" jurnalı, "Yeni fikir" qəzeti və bir neçə muzey fəaliyyət göstərir.

NDU müasir təhsil mərkəzi olmaqla yanaşı, həm də mükəmməl elm məkanı kimi formalaşır. Bu isə universitetin əsas fəaliyyət göstəricilərindən, mühüm qiymətləndirmə əmsallarından biri olmaqla yanaşı, daim "alimlər yurdu" kimi səciyyələnən Naxçıvanın nüfuzuna da böyük töhfədir.

Yeri gəlmişkən, bu ənənənin yaşaması üçün Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi də xüsusi səy göstərir. 20 il öncə fəaliyyətə başlayan bölmədə 6 elmi tədqiqat institutu birləşib. Burada çalışan 248 əməkdaş, o cümlədən 93 elmi işçi sırasında iki akademik, 4 müxbir üzvü, 5 elmlər doktoru, 50 fəlsəfə doktoru var. İndiyədək dissertasiya şuralarında 17 elmlər, 98 fəlsəfə doktoru dissertasiyası müdafiə olunub. Əməkdaşlarının 252 monoqrafiyası, 235 kitabı, çoxsaylı metodik və dərs vəsaiti, elmi məqalələri, atlas və xəritələri çap olunan bölmənin alimləri tərəfindən 2 cilddə "Naxçıvan Ensiklopediyası", "Naxçıvan abidələri ensiklopediyası", "Naxçıvan tarixi atlası", 3 cilddə "Naxçıvan tarixi", "Naxçıvan teatrının salnaməsi", 3 cilddə "Naxçıvanın folkloru antologiyası", "Dədə Qorqud yurdu-Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlası, 2 cilddə Naxçıvan Muxtar Respublikasının "Qırmızı kitabı", 2 cilddə "Naxçıvan coğrafiyası" və digər fundamental nəşrlər işıq üzü görüb.

**Prezident qayğısının əməli nəticələri**

Blokadanın məhrumiyyətləri altında fəaliyyət göstərən 55 yaşlı universitetin hələ çox kiçik qisminə toxunduğumuz genişmiqyaslı nailiyyətləri ümumilikdə Naxçıvanda təhsilə, elmə olan qayğının və himayənin təcəssümüdür. Naxçıvan ənənələr diyarıdır, burada hər bir bucaqda hansısa tarixi ənənənin nişanına rastlamaq, hər bir evdə ənənələrin yaşadıldığına şahid olmaq mümkündür. Bu ənənələrin ən mükəmməllərindən biri də elə qeyd etdiyimiz təhsilə və elmə olan bağlılıqdır.

Naxçıvanda ən ucqar yaşayış məntəqəsində, ən hündur dağ kəndində belə iki-üç mərtəbəli, tam isidilən, dərslikdən kompütərə, idman zalından laboratoriyalara qədər müasir təhsil üçün tələb olunan bütün vasitələrlə təmin olunan orta məktəblər tikilib. Hələ kəndlərdə üçmərtəbəli musiqi məktəblərini görmək də böyük təəccüb yaradır.

Prezident İlham Əliyevin Naxçıvanda açılış lentini kəsdiyi onlarca orta məktəb necə modern və təminatlıdırsa, dağ kəndlərindəki yüzlərlə digər məktəb də onlardan əsla və əsla fərqlənmir!

Son onilliklərdə muxtar respublikada 200-dən artıq məktəb binası istifadəyə verilib, hamısı da ən müasir səviyyədə! Muxtar respublikanın ümumtəhsil məktəblərində oxuyan 53 mindən çox şagirdin təhsili ilə 7257 müəllim məşğul olur. 5700-dən artıq kompüter və 650-dən artıq elektron lövhə quraşdırılan təhsil müəssisələrinin hamısında sürətli internetə çıxış var. 22 mindən çox şagird 103 ümumtəhsil məktəbində STEAM təhsilinə cəlb olunub. İstedadı ilə fərqlənən şagirdlərin adı gənc istedadların "Qızıl kitabı"na yazılır və onlar Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünü alırlar.

Bu yüksəksəviyyəli və təchizatlı məktəb infrastrukturları Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi nəzarəti, birbaşa himayəsi, göstərişi əsasında inşa olunub, Ali Məclis Sədri Vasif Talıbovun fədakarlığı, zəhməti ilə ərsəyə gəlib. Amma Azərbaycan reallığında bir həqiqət də var: əsas məktəbin vizual göstəricisi deyil, mühüm olan oradakı təhsilin keyfiyyətidir!

Düzgün istiqamət, mükəmməl təcrübə və vicdanlı müəllim hesabına çıraq işığında onilliklər boyu əsl ziyalılar yetişib, akademiklərin təhsil yolu uçuq məktəb binalarından başlayıb! Təhsil - sabahımızdır, təhsilin bugünkü durumu sabahımızın necə olacağını elə indidən müəyyənləşdirir! Təhsilin keyfiyyət göstəricisi kimi yəqin, onlarca amil var. Bəs biz nəyə, hansına istinad edək?

İndi əlacsız valideynlər, on minlərlə ailə ümidi, yəni normal təhsili məktəbdə yox, ondan kənarda axtarır. Ən böyük gerçəklik isə "repetitor məktəbi"nin orta məktəbdən daha səmərəli, daha əhəmiyyətli nəticə verən olmasıdır! Naxçıvan timsalında isə biz fərqli, ürəkaçan, təsəlli verən nümunəni görürük. Təhsilin keyfiyyət nəticələrini sadə insanlar birmənalı olaraq, ali məktəblərə qəbulun nəticə statistikasında axtarır ki, bu göstəricidə də əsas payı, əlbəttə, "repetitor məktəbi" tutur. Naxçıvanda isə repetitorluq sadəcə yoxdur! Dil, sənət, ilkin təlimləri öyrədən kurslar və təmənnasız, yalnız öz 3-4 geri qalan şagirdinə gücləndirici əlavə dərsdənkənar vaxt ayıran vicdanlı müəllimləri kənara qoysaq, yalnız və yalnız məktəb var!

**Təcrübə və məsuliyyət - islahatların uğur rəhni**

Ötən tədris ilinin qəbul statistikasının monitorinqini Dövlət İmtahan Mərkəzi (DİM) hələ ki, yekunlaşdırmayıb. Sadəcə o məlumdur ki, 2021-ci ildə muxtar respublika məzunlarının ali təhsil müəssisələrinə və orta ixtisas məktəblərinə qəbul göstəricisi 73 faiz təşkil edib. 261 məzun 500-dən yuxarı bal toplayıb, 3-ü Prezident təqaüdünə layiq görülüb.

Amma öncəki illərin rəqəmlərini DİM elan edib. Kiçik araşdırma apardıq. Məsələn, 2020-ci ildə I mərhələ üzrə buraxılış imtahanlarında bölgələr üzrə ən yaxşı göstərici, yəni lider mövqe Naxçıvan Muxtar Respublikasına - Ordubada məxsusdur. II mərhələdə isə rayonlar üzrə təsnifatların ilk onluğunda muxtar respublikanın 4 rayonu var! Hətta paytaxt Bakının bura düşmədiyi, ilk yerində isə ən məşhur dövlət və özəl liseylərin toplusunun yerləşdiyi siyahıda ikinci yeri Ordubad, 5-ci yeri Naxçıvan şəhəri, 7-ci yeri Kəngərli, 9-cu yeri Şahbuz tutur. Yüksək bal toplayan tələbələr siyahısında ilk beşlikdə isə muxtar respublika 2 yaşayış məntəqəsi ilə təmsil olunur: Naxçıvan şəhəri və Şahbuz. 2019-cu ildə də abituriyentlərin qəbul göstəricilərinə görə ilk 15-likdə muxtar respublika 4 yaşayış məntəqəsi ilə təmsil olunub: Şahbuz, Kəngərli, Ordubad və Naxçıvan şəhəri (paytaxt Bakıdan bir pillə öndə).

Yaxud ölkəmizdə fəaliyyət göstərən ali təhsil müəssisələrinə 2020-ci il qəbulunda qruplar üzrə orta bal göstəricilərində də Naxçıvan Dövlət Universiteti öndədir. II qrupda NDU görün kimləri üstələyir: BDU, Dövlət Neft və Sənaye, Texniki, Memarlıq və İnşaat, Pedaqoji, Dillər, Slavyan, Bakı mühəndislik, Mədəniyyət və İncəsənət, Turizm və Menecment və digər bütün bölgə universitetlərini... III qrupda yenə də paytaxtın xeyli, bölgələrin isə bütün ali məktəblərini gerirdə qoyan Naxçıvan Dövlət Universiteti IV qrupda Tibb Universitetindən sonra ikinci nəticə ilə 17 ali məktəbdən öndədir. Ümumilikdə isə NDU qəbul balına görə 42 ali məktəb arasında 12-ci mövqedə olub.

Unutmayaq, Dövlət İmtahan Mərkəzinin real rəqəmləri, hesabatı təhsilin keyfiyyəti barədə mülahizə yürütməyə, rəy söyləməyə əsas verən hələ ki, yeganə istinaddır və bunun timsalında ölkə təhsilinin, o cümlədən Naxçıvan təhsilinin vəziyyətini düzgün dəyərləndirə bilərik. Ancaq bir məqam da var: "Ordubad, Şahbuz, Kəngərli və digər rayon məktəbləri ölkə üzrə öndədir" deyib, mövzunun üstündən sakitliklə keçməyək. Blokadanın ağır və çətin məhrumiyyətlərini, dağ kəndlərinin spesifik problemlərini, təbiətin bu bölgə üçün davamlı fəsadlarını və digər onlarca obyektiv amili nəzərə alaraq, qazanılan nailiyyətə qiymət verək.

Bu, qəhrəmanlıqdır, səmimi vətənpərvərlikdir, əsl Azərbaycansevərlikdir, sabahımıza ən dəyərli töhfədir!..

Naxçıvanda Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın təhsillə bağlı tələblərinin, hədəflərinin, məqsədlərinin gerçəkləşməsinə vicdanla, məsuliyyətlə yanaşırlar və bunu vətəndaşlıq borcu kimi qəbul edirlər!

Buna görə də Prezident İlham Əliyev Naxçıvanı inkişafın bütün istiqamətləri üzrə Azərbaycanın lider və rekordsmen bölgəsi elan edib!

Təhsil səviyyəsini Azərbaycan miqyasında lider və rekordsmen mövqeyinə çıxardan Naxçıvanın indi Prezident İlham Əliyev qarşısında bir öhdəliyi də var: bu nailiyyətləri qlobal məkana keçirtmək. Bunu da bacaracaqlar!..

**İxtiyar Hüseynli,**
***"Azərbaycan"qəzeti***
***Bakı-Naxçıvan-Bakı***

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN HƏDƏFLƏRİ: REALLAŞMA VƏ YENİ KEYFİYYƏT MƏRHƏLƏSİ



Naxçıvan Dövlət Universiteti modern təhsil imkanlarının artırılması sahəsindəki tədbirlərini qətiyyətlə davam etdirməkdədir. İstər infrastruktur, istər təşkilatlanma, istərsə də uzunmüddətli hədəflər prizmasından yanaşdıqda aydın olur ki, universitet hər bir istiqamət üzrə kifayət qədər təcrübə yolu keçmiş, bütün bunlar isə cari və gələcək mərhələlər üzrə geniş perspektivlər təşkil etməkdədir. Hazırda Naxçıvan Dövlət Universitetində reallaşan tədbirlər təhsil sektorunun davamlı inkişafı ilə yanaşı, həmçinin cəmiyyət üzvlərinin həyat keyfiyyətlərinin daha da yaxşılaşmasına, sağlamlığının qorunmasına və bu sahədəki etibarlılığın artmasına yol açmaqdadır. Bütün dövrlərdə aktual olan sahələrin inkişafına diqqət göstərilməsi və bu sahədəki hədəflərə səlis idarəetmə ilə nail olunması universitetin artıq ənənə halı alan uğurları içərisində yer almaqdadır. Geridə qalan mərhələlərdə iqtisadi və sosial sferalar üçün zəruri olacaq proseslər universitetdə reallaşan layihələrin çox mühüm mahiyyətini təşkil etmişdir. Məhz həmin dəyərlər əsasında o, son illərin zəruri inkişaf dövrünü yaşamaqdadır. Bunlara:

- ilk dəfə tədrisi ingilis dilində olan iqtisadiyyat ixtisasına qəbulun uğurla keçirilməsi mümkün oldu. Hazırda həmin ixtisasa ikinci tədris ili üzrə də qəbul uğurla həyata keçirilmiş və bu isə peşəkar mütəxəssislərin formalaşmasında çox mühüm amilə çevrilmişdir. Təbii ki, bunlar, iqtisadiyyatın gələcək hədəflərinin təhsil əsasında daha möhkəm olacağını bir daha göstərmiş olur;

-ilk dəfə ikili diplom layihəsinin təqdimatı və həyata keçirilməsinin çox mühüm əsasları yaradılmışdır. Artıq universitet tələbələrinin elmi, təcrübi, bilik, ideya, axtarış və digər çoxsahəli perspektivləri həm də beynəlxalq mahiyyətinə qovuşmuşdur. Həmçinin burada, qeyd olunan keyfiyyətlər üzrə mübadilənin və işbirliyinin etibarlı dayaqları yaranmış olacaq;

- ilk dəfə elektron jurnaldan istifadə olunmaqla, tədris olunan fənlərin qeydiyyatının aparılması təmin olunmuşdur. Şəffaf qiymətləndirmənin və informasiya əlçatanlığının təmin olunması sürətlənmişdir. Artıq bu dövrdən başlayaraq, universitet öz təhsil və tədris məqsədlərinə doğru daha inamla addımlayacaq;

- ilk dəfə Texnopark tikilməsi ilə nəzəriyyədən təcrübəyə keçidin münbit və əlverişli əsasları yaradılmışdır. Bununla da, tələbələrin (gənclərin) daha mühüm nəticələrə doğru addımlaması səmərəliliyi ilə seçilməkdədir;

- ilk dəfə tədrisi həyata keçirilən hərbi tibb ixtisasının təqdimat mərasimi keçirilmişdir. Yeni mərhələdə universitetimiz Vətənimizin keşiyində dayanan qəhrəman övladlar üçün öz qayğısını və qulluq imkanlarını genişləndirmiş olacaq. Bu məqsədlə, hərbi tibb ixtisasına qəbul olunan tələbələrə həkim xalatları və hərbi formalar təqdim olunmuşdur. Artıq bununla, həyata keçirilən islahatların geniş əhatədə nəticələrinin şahidləri olmaqdayıq.

Qeyd etmək olar ki, ali məktəbin hər bir fəkültəsində, onların hər bir ixtisasında bu müasirləşməni görmək mümkündür. Texnoloji inkişafa və innovativ təşkilatlanmaya doğru atılan inamlı addımlar bu sahələr üzrə şaxələndirmənin təminatına çevrilmişdir. Elə bütün bunların nəticəsidir ki, artıq Naxçıvan Dövlət Universitetinin ölkənin rəqəmsallaşma mühitindəki yeri və rolu daha da artmaqdadır. Yeni inkişaf mərhələsində universitet dünya təhsilinə inteqrasiyanın çox mühüm mərhələsini keçməkdədir. Bu daha elmli, daha təhsilli, daha ixtisaslı, daha savadlı və daha dünyagörüşlü tələbələrlə çox asan olacaq. Qeyd etmək olar ki, universitet haqqında məlumatların, tədris proseslərinin təşkili, tədris illəri haqqında məlumatlar daha asan qaydada əlçatan olmaqdadır. Belə ki, universitetin mobil tətbiqi olan "NETTY 2021" bu sahədəki göstəricilərlə Azərbaycanın Milli İnternet Mükafatına layiq görülmüşdür. Naxçıvan Dövlət Universitetinin tələbələri bu vasitə ilə dərslər, kollokviumlar, imtahan cədvəllərinin, imtahan suallarının və nəticələrinin vahid platformada birləşdiyi istənilən elektron materialı "E-cədvəl" mobil tətbiqindən əldə edə bilirlər. Daha böyük uğurlara qapı açan, zəmin yaradan və motivasiya olan bu proseslər son illərin məqsədyönlü tədbirlərinin həm də məntiqi davamıdır.

Naxçıvan Dövlət Universitetinin tələbələrinin ideya və təşəbbüs müəllifləri olaraq, eyni zamanda, nəzəriyyədən təcrübəyə doğru səmərəli keçid kimi mərhələlərdə sərgiləmiş olduqları fəaliyyətləri keçən hər bir gün daha da təkmilləşməkdədir. Bu sahədə onlara yaradılan hərtərəfli şərait daha yeni, daha aktual, daha araşdırma tələb edən mövzuların ortaya qoyulmasına yol açmaqdadır.

Tələbələr milli maraqlarımızı uca tutmaqla, ona sadiq qalmaqla, bu gündən gələcəyə böyük potensial daşımaqdadırlar. Milli iqtisadiyyatımızın uzunmüddətli prioritetlərinə, neft və qeyri-neft sektorlarının perspektivlərinə və bütün sahələr üzrə uğurla davam etdirilən islahatların gedişinə öz töhfələrini vermək üçün bilik və bacarıqlarını səfərbər edirlər. Bütün bunlar universitet tələbələrinin qloballaşan dünya iqtisadiyyatının reallıqlarını yaxından izlədiklərini, düzgün yanaşma ortaya qoyduqlarını və pozitiv nəticələrə gəlmə bacarıqlarına malik olduqlarını hər addımda göstərməkdədir.

Elə bütün bunlar, İqtisadiyyat və idarəetmə fakültəsinin, NDU TGT, NDU THT-nin təşkilatçılığı ilə 17 dekabr tarixində Diplomatiya Mərkəzində keçirilən "OPEC" simulyasiyasında özünü bir daha göstərmiş oldu. Tələbələr qənaətlərini dolğun və əsaslandırılmış faktlarla izah etməklə, sərbəst şəkildə OPEC ölkələrinin mövqelərini ifadə edə bilmiş, mülahizə və təklifləri ilə mövcud proseslərə dəqiq yanaşma irəli sürmüşlər. Təbii ki, bütün bunlar, tələbələrə yaradılan hərtərəfli diqqət və qayğıdan səmərəli yararlanmanın real təsdiqi olmaqdadır.

Naxçıvan Dövlət Universitetinin həm tədris proseslərində, həm tələbələrlə işlərin düzgün qurulmasında və təbii ki, həm də qarşıdakı illər üzrə beynəlxalq əlaqələrinin daha perspektivli olması sahəsində həyata keçirmiş olduğu tədbirlər məqsədyönlülüklə davam etdirilməkdədir.

Artıq hər bir tələbə universitet adlı modern binanın qurulmasında fəal iştirakçıdır. Elmi biliklərin artırılmasında, nəzəri və təcrübi keyfiyyətlərin düzgün sintezində, dünyagörüş imkanlarının əhatəsinin genişlənməsində Naxçıvan Dövlət Universiteti öz potensialını həm bəyan edir, həm də təbii ki, onu bir nümunə olaraq qəbul etmək olar.

Bunu tədrisi ingilis dilində olan iqtisadiyyat ixtisasında təhsil alan tələbələrin ixtisaslaşmasında, dünya reallıqlarına onun öz dilində yanaşmasında, milli iqtisadiyyatımızın hazırkı inkişaf mərhələlərinin məhz bu əsasda təqdimatında görmək hər birimizə qürur verməkdədir. Universitetimizdə iki il əvvəl güclü təcrübə əsasında keçirilən qəbul artıq bu ixtisasın əhəmiyyətini bir daha ortaya qoymaqdadır.

22 dekabr tarixində Universitetin İqtisadiyyat və İdarəetmə fakültəsində "İqtisadiyyatın qloballaşmasına mənim baxışım" mövzusunda keçirilən dəyirmi masada tədrisi ingilis dilində olan iqtisadiyyat ixtisasının birinci kurs tələbələrinin fəallığı təqdirəlayiqdir. Dəyirmi masada tələbələr öz düşüncələrini, yanaşmalarını və baxışlarını sərbəst şəkildə olmaqla, ifadə edə bilmiş, ən əsası artıq gələcəyin dünyaya çıxış imkanları olan mütəxəssisləri olaraq formalaşdıqlarının məsuliyyətini hiss etmişlər.

Qeyd edək ki, geridə qalan tədris ilində də eyni ixtisasın indiki II kurs tələbələrinin dəyirmi masada müzakirələri keçirilmiş, həmin tədbir də bizlərə qürur vermişdir.

Beləliklə, Naxçıvan Dövlət Universiteti davamlı inkişaf yollarında inamla addımlayır. Həmin yolda tədris proseslərini zənginləşdirən amillər içərisində sosial, iqtisadi, mədəni, hüquqi, ictimai və digər sahələr üzrə dəyərlər əhatəli şəkildə yer almaqdadır. Həmçinin bunlar qarşıdakı dövrlərdə daha mühüm nəticələrin başlanğıcını təşkil edəcəkdir.

**Cavadxan Qasımov**
***"Dünya və menecment iqtisadiyyatı" kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent***

# ZƏNGƏZUR DƏHLİZİNİN NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İQTİSADİ İNKİŞAFINA TƏSİRİ

Ötən əsrin 90-cı illərinin əvvəllərində SSRİ-nin süquta uğramasından sonra İttifaqa daxil olan respublikaların demək olar ki, hamısında özbaşınalıq, xaos hökm sürürdü. Fürsətdən istifadə edən bədxah qonşularımız öz çirkin niyyətlərinin həyata keçirilməsini məqsədəuyğun hesab edərək birinci Qarabağ müharibəsini başlatdılar. Əzəli qonşuları olan Azərbaycan xalqına qarşı misli görünməmiş ərazi iddiaları irəli sürüldü. Erməni qəsbkarları İran İslam Respublikası ilə sərhəddə yerləşən Azərbaycan rayonlarını işğal etməyə başladılar. Qədim Azərbaycan torpaqları olan Qubadlı, Zəngilan və Cəbrayıl rayonları, Füzuli rayonunun üçdə bir hissəsi artıq ermənilər tərəfindən işğal edilmişdi. Vəhşi ermənilər işğal etdikləri torpaqlarda daşı daş üstə qoymurdular. İşğal olunmuş ərazilərdə yerləşən və Azərbaycan Dəmir Yollarına məxsus olan 40 kilometrə yaxın məsafədə dəmir yolu infrastrukturu tamamilə dağıdılmış, ərazidəki yolun üst quruluşu materiallarının hamısı talan edilmişdir. Beləliklə, elə həmin vaxtdan Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə quru əlaqəsi kəsilmişdi. O vaxtdan naxçıvanlıların paytaxt Bakı ilə əlaqəsi yalnız hava yolu və ya İran İslam Respublikası üzərindən həyata keçirilir ki, bu da əlavə xərclər tələb etməklə xeyli çətinliklər yaradır.

Naxçıvanın nəqliyyat blokadası həmişə respublika rəhbərliyinin gündəmində olmuşdur. Azərbayanın ümummilli lideri Heydər Əliyev istər Muxtar respublikaya rəhbərlik etdiyi dövrdə, istərsə də Azərbaycanın prezidenti olduğu dövrdə həmişə Zəngəzur dəhlizi barədə fikir söyləmiş, bu dəhlizin muxtar respublika üçün əhəmiyyətini qeyd etmişdir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev də hər dəfə Naxçıvanla bağlı fikir söyləyəndə, doğma diyarımıza səfərlər edəndə əminliklə bu dəhlizin açılacağından, dəhlizin Naxçıvan iqtisadiyyatına böyük təsirindən danışıb. Xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələrində əzəli Azərbaycan torpaqlarında məskunlaşmış ermənilərin işğalçı siyasətini dəfələrlə tənqid etmiş, onları danışıqlar stolu arxasında lazımi qərarların verilməsinə səsləmişdir. Lakin öz bəd əməllərindən əl çəkməyən, dənizdən dənizə xülyası ilə yaşayan ermənilər və onların havadarları əməllərinin cəzasız qalacağına inanaraq Azərbaycan torpaqlarında öz vəhşiliklərinə davam edirdilər. İşğal edilmiş torpaqlarda heç bir quruculuq işləri aparmadan mövcud tikili və qurğuları, yaşayış binalarını və ictimai iaşə obyektlərini yerlə bir etmişlər. Bu illər ərzində muxtar respublikamızda vüsət almış geniş miqyaslı tikinti-quruculuq işlərindən xəbərdar olsalar da, bu nailiyyətləri görməzdən gələrək öz çirkin iddialarından əl çəkməyi ağıllarından belə keçirmirdilər.

Nəhayət, 2020-ci ilin payızında ermənilərin təhriki ilə ikinci Qarabağ müharibəsi başladı. Artıq səbir kasası dolmuş Azərbaycan xalqı öz müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ata-baba torpaqlarının düşmən tapdağından azad olunmasına başladı. Təsadüfi deyil ki, şanlı Azərbaycan ordusu ilk həmlələrini məhz İran İslam Respublikası sərhəddində yerləşən rayonlarımızın işğaldan azad edilməsinə yönəltdi. Bir-birinin ardınca şəhər və kəndlərimizin işğaldan azad olunması xəbərləri gəlməyə başladı. Hər dəfə Azərbaycan xalqı dövlət başçısının yeni-yeni yaşayış məntəqələrinin işğaldan azad edilməsi xəbərini böyük sevinc hissi və qürurla qarşılayırdı.Gücü tükənmiş düşmən qüvvələri artıq döyüş qabiliyyətini itirmişdi. İşğal etdikləri kənd və şəhərlərdən qaçarkən döyüş texnikalarını, şəxsi əşyalarını və hətta , öz silahdaşlarını, qoca və qadınları, körpələri arxada qoyurdular. Tərk etdikləri kənd və şəhərləri yandırmaq ermənilərin vizit kartına çevrilmişdi.

Beləliklə, 10 noyabr 2020-ci il tarixdə Azərbaycan, Ermənistan və Rusiya dövlət başçılarının iştirakı ilə atəşin dayandırılması barədə üçtərəfli saziş imzalandı. Sazişin 9-cu bəndinə əsasən Ermənistan tərəfi Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin yaradılmasına zəmanət verir. Zəngəzur dəhlizi vasitəsilə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz daşınması nəzərdə tutulur. Sazişə əsasən Azərbaycan və Ermənistan Respublikalarının razılığı ilə ərazidə yeni nəqliyyat infrastrukturunun yaradılması planlaşdırılır. Dəhlizdə nəqliyyat əlaqələrinin təhlükəsizliyinə nəzarəti Rusiya sərhəd xidməti orqanlarının həyata keçirəcəyi qeyd olunur.



11 yanvar 2021-ci ildə Azərbaycan, Ermənistan və Rusiya dövlət başçılarının imzaladığı bəyənnamədə Rusiya prezidenti Vladimir Putinin ərazidə iqtisadi və nəqliyyat dəhlizinin reallaşması məqsədilə üçtərəfli işçi qrupunun yaradılması təklifi bəyənilmişdir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin dediyi kimi Naxçıvanın nəqliyyat blokadasının aradan qaldırılması ilə 30 ilə yaxın bir vaxtdan sonra Azərbaycanla Naxçıvan arasında dəmir yolu əlaqələri bərpa ediləcəkdir. Ermənistan isə Azərbaycan ərazisindən keçməklə İran İslam Resublikası və Rusiya ilə əlaqələr qurmaq imkanına nail olacaqdır.

2021-cı ilin fevralında Füzuli rayonunda Horadiz-Ağbənd dəmir yolunun tikintisinə başlanıldı.100 km yaxın uzunluğu olan bu dəmir yolu xətti Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasını birləşdirəcək xəttin üzərində yerləşir. Naxçıvan Muxtar Respublikasının yerləşdiyi coğrafi mövqe onu deməyə əsas verir ki, türkdilli dövlətlərin nəqliyyat arteriyası rolunu oynayacaq Zəngəzur dəhlizinin açılması doğma diyarımızın iqisadi inkişafı üçün əvəzolunmaz əhəmiyyətə malikdir. Muxtar respublikanın təbii qazla təminatında da Zəngəzur dəhlizinin açılmasının böyük rolu olacaqdır.

**Yadulla Həziyev**
***"Nəqliyyat mühəndisliyi və texniki fənlər" kafedrasının müəllimi***



# MUXTAR RESPUBLİKADA İLK DƏFƏ REALLAŞDIRILAN İNFORMASİYA – KOMMUNİKASİYA TEXNOLOGİYALARININ BOOTCAMP LAYİHƏSİ UĞURLA YEKUNLAŞIB

Naxçıvan Dövlət Universiteti İnformasiya - Kommunikasiya Texnologiyaları və Elektron Təhsil şöbəsi, Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının maliyyə dəstəyi ilə "Ağbulaq" istirahət mərkəzində informasiya texnologiyaları üzrə BootCamp layihəsinə start verilib. Layihənin təşkilatçıları universitetin İnformasiya - Kommunikasiya Texnologiyaları və Elektron Təhsil şöbəsinin müdiri Hüseyn Əsgərli və universitetin tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Hüseyn İmanov layihə haqda çıxış edərək iştirakçıları məlumatlandırıb.

Açılış nitqi ilə çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilati Aparatının rəhbəri, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov müasir dövrdə vacib olan İKT bacarıqlarının qiymətləndirilməsi və bu sahədə süni intellekt texnologiyalarının geniş istifadəsində bu cür təlimlərin xüsusi əhəmiyyətini qeyd edib.

Universitetin rektoru Elbrus İsayev layihənin işinə uğurlar arzulayıb. Rektor universitetdə gənclərin layihəsi əsasında həyata keçirilən 3 mobil tətbiqdən danışıb. Bildirilib ki, mobil tətbiqlər tələbələrin İKT sahəsində təcrübəsini artırmaqla yanaşı, tələbələr üçün də məlumatların əlçatanlığını təmin edir. Texnopark layihəsinin həyata keçirilməsində informasiya texnologiyalarının vacibliyini qeyd edən rektor bu sahədə yeni bilik və bacarıqların əldə olunmasının effektiv təsirini xüsusilə qeyd edib.

Tədbirə onlayn qatılan İKT Lab Tətbiq və Tədris Mərkəzinin direktoru Rauf Cabarov qeyd edib ki, mərkəzin əsas missiyası sürətlə dəyişən texnologiyalar dövründə İnformasiya-Kommunikasiya Texnologiyalarından (İKT) səmərəli istifadəni insanlara öyrətmək və bütün fəaliyyət sahələrində texnologiyaların geniş tətbiqinə nail olmaqdır. Mərkəzin direktoru rəqəmsal bacarıqlar və ofis proqramları, data analitika, şəbəkə və sistem inzibatçılığı, kiber təhlükəsizlik, qrafik dizayn və digər təlim metodlarından danışıb. Rauf Cabarov muxtar respublikada həyata keçirilən BootCamp layihəsinin mühüm əhəmiyyətini vurğulayıb.

Üç gün davam edən layihənin ilk günü veb tərtibatçı Durna Zeynallı "React" proqramlaşdırma dili haqqında iştirakçıları məlumatlandırıb. Qeyd edilib ki, "React" istifadəçi interfeyslərinin qurulması üçün açıq mənbəli JavaScript kitabxanasıdır. Bu feysbuk və fərdi inkişaf etdiricilər və şirkətlər birliyi tərəfindən təmin edilir.

Estoniyadan təlimə onlayn qoşulan həmyerlimiz, veb tərtibatçı Haşım Haşımov "Backend proqramlaşdırma" mövzusunda çıxış edərək "Python haqqında", "Pythonun kitabxanaları", "Köməkçi alətlər" kimi mövzulardan bəhs edib.

Təlimin ikinci günü "Bulud texnologiyaları" haqqında onlayn məlumat verən BestCompt MMC-nin əməkdaşı İlyas Novruzlu bildirib ki, bulud texnologiyaları konsepsiyası kompüter texnologiyalarının infrastrukturunun və proqram təminatının bilavasitə şəbəkə mühitində yaradılmasını və istifadə edilməsini təmin edir.

Günün II yarısı Naxçıvan Dövlət Universitetinin aparıcı mühasibi Təhmasib Quluzadə "Rəqəmsal iqtisadiyyat, rəqəmsal marketinq" mövzusunda təlim keçib. Qeyd edilib ki, marketinq fəaliyyətini rəqəmsal texnologiyaların köməyi ilə həyata keçirmə prosesi olan rəqəmsal marketinqin əsas məqsədi markanı, məhsul və ya xidməti internet vasitəsi ilə tanıtmaqdır.

Təlimin sonuncu günü universitetin İKT və Elektron Təhsil şöbəsinin müdiri Hüseyn Əsgərli "Əşyaların interneti: əldə edilən təcrübə və perspektivlər", "Startap və ekosistemlərin tətbiqində İKT" adlı təlimlərdə bu sahədə baş verən ən son texnoloji yenilikləri iştirakçıların diqqətinə çatdırıb. Təlim zamanı tələbələrin hazırladığı Startap layihələri dinlənilib, onlara mentor dəstəyi göstərilib.

Təlimlər zamanı tələbələrin asudə vaxtlarını səmərəli keçirmələri üçün intellektual oyunlar təşkil edilib. Layihənin yekun günündə "SR Group CO" şirkətinin baş sistem administratoru Rəşad Bayramovun "İT sahəsinə gedən yol" mövzusundakı təlimi dinlənilib. Təlimdə beynəlxalq İT sertifikatlarının əldə olunması məqsədilə tələbələrə metodiki göstərişlər, həmçinin "İKT LAB"-ın resurslarından istifadə qaydaları barədə məlumat verilib. Eyni zamanda iştirakçılara "Cisco"nun netacad.com təhsil portalında olan kursları təqdim edilib.

Qeyd edək ki, təlimin sonunda təlimçilərə universitet adından təşəkkürnamə təqdim edilib.

# "MƏN NAXÇIVANI ÖYRƏNİRƏM" BİLİK OLİMPİADASININ QALİBLƏRİ MÜKAFATLANDIRILIB

Naxçıvan Dövlət Universitetində Yeni Azərbaycan Partiyası Ərazi Partiya Təşkilatının təşəbbüsü ilə ali təhsil müəssisələrinin tələbələri arasında keçirilən "Mən Naxçıvanı öyrənirəm" bilik olimpiadasında iştirak edən tələbələr mükafatlandırılıb. Mükafatlandırma mərasimində çıxış edən universitetin rektoru Elbrus İsayev təşkilatın bu cür təşəbbüslərini qiymətləndirərək ali təhsil ocağında bu istiqamətdə - Siyasi biliklər olimpiadasını, Müstəqillik illərində inkişafın Naxçıvan modeli esse yazı müsabiqəsinin uğurla nəticələndiyini diqqətə çatdırıb. Bildirilib ki, muxtar respublikanın tanıdılması baxımından öz əhəmiyyətliliyi ilə seçilən olimpiada həmçinin yüksək vətənpərvərlik hisslərinin təbliği baxımından da təqdirəlayiqdir. Qeyd edilib ki, bilik olimpiadalarının muxtar respublika ali təhsil müəssisələrini əhatə etməsi onlar arasında sıx əlaqələrin qurulmasına da xidmət edir. Rektor bu sahədə ali təhsil ocağında fəaliyyət göstərən tələbə təşkilatlarının da xüsusi fəallığını qeyd edib. Vurğulanıb ki, tələbələrin şəxsi təşəbbüsü ilə keçirilən bu cür yarışmalar onların təcrübələrinin artmasına və dünyagörüşlərinin formalaşmasına müsbət təsir göstərir. Rektor qarşıdan gələn



Novruz bayramı münasibətilə gəncləri təbrik edib, bundan sonrakı yarışmalarda uğurlar arzulayıb.

YAP Universitet şəhərciyi Ərazi partiya təşkilatının sədri Arzu Abdullayev layihənin əhəmiyyəti, məqsədi və nəticələri barədə danışıb. Qeyd edilib ki, muxtar respublikanın uğurlu inkişaf modelini gənclərə aşılamaq məqsədini daşıyan olimpiadada Naxçıvanın tarixi, ədəbiyyatı, mədəniyyəti, coğrafiyası və digər bu kimi sahələr təbliğ edilib və gənclərin yüksək bilik və bacarığı üzə çıxarılaraq onların ictimai və elmi fəaliyyəti qiymətləndirilib. Vurğulanıb ki, bilik olimpiadasında muxtar respublikanın ali təhsil müəssisələrinin tələbələri ilə bərabər magistr və doktorantlar da iştirak ediblər.

Sonra iki mərhələdə keçirilən olimpiadanın finalında qaliblə birgə 10 iştirakçıya diplom və qiymətli hədiyyələr, ən yüksək nəticə göstərmiş 10 iştirakçıya isə diplom təqdim edilib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# "BİR GÜN TƏLƏBƏ" ADLI LAYİHƏ UĞURLA YEKUNLAŞIB

Ali təhsil ocağının Beynəlxalq münasibətlər və hüquq fakültəsinin akt zalında keçirilən açılış tədbirində universitetin tanıtım və ötən il həyata keçirilən eyni adlı layihənin videoçarxına baxış olub.

Giriş sözü ilə çıxış edən universitetin rektoru Elbrus İsayev ötən ildən etibarən bu cür layihələrin uğurlu icrasından danışıb. Bildirilib ki, universitet ərazisində istifadəyə veriləcək Texnopark haqqında iştirakçıları məlumatlandırıb. Diqqətə çatdırılıb ki, tələbələr gələcəkdə burada öz ideyalarını, layihələrini sərbəst şəkildə hazırlayıb, həyata keçirmək imkanı əldə edəcəklər. Rektor məktəblilərə təhsil həyatında uğurlar arzulayıb.

Tələbə Gənclər Təşkilatının sədri Əziz Qasımov layihə haqqında



layihənin məqsədi muxtar respublika şagirdlərinin universitet, tələbə mühiti ilə tanış olması, həmçinin məktəblilərin ali təhsil müəssisəsinə qəbul prosesi dövründə onlarda ruh yüksəkliyi yaratmaqdan ibarətdir. Universitetin beynəlxalq əlaqələri haqda geniş məlumat verən rektor ali təhsil ocağının qoşulduğu layihələr, tərəfdaş olduğu universitetlər barədə ətraflı məlumat verib. Qeyd edilib ki, universitet nəinki ölkədaxili hətta xarici universitetlər arasında da sayılıb-seçilən ali təhsil müəssisələri sırasındadır. Startap, ikili diplom layihələrindən bəhs edən Elbrus İsayev ümumi məlumat verib. Qeyd edilib ki, artıq ikinci dəfədir ki, baş tutan layihə şagirdlərin universiteti tanımaları, onların gələcək karyeralarını qurmaları istiqamətində mühüm əhəmiyyət daşıyır.

Naxçıvan şəhər Təhsil şöbəsinin baş məsləhətçisi Gülxanım Orucova çıxışı zamanı təhsili, dünyagörüşü ilə fəqlənənən şagirdləri nümunə göstərib. Gələcəkdə onların arasından peşəkar müəllimlərin, həkimlərin, pedaqoqların, mühəndislərin çıxacağına əminlik ifadə olunub.

Baytarlıq ixtisası üzrə I kurs tələbəsi Əzizə Məmmədova ötən il baş tutan "Bir gün tələbə" layihəsində iştirak etdiyini və ona ixtisas seçimində bu layihənin dəstək olduğunu bildirib. Bir vaxt şagird kimi gəldiyi ali təhsil ocağının tələbəsi olmaqdan qürur duyduğunu diqqətə çatdırıb.

Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbin XI sinif şagirdi Ayşən Qəribli məktəblilər adından çıxış edərək, layihə təşkilatçılarına minnətdarlığını bildirib.

Beynəlxalq münasibətlər və Hüquq fakültəsində olan şagirdlər fakültənin bazasında yaradılan və "Beynəlxalq münasibətlər" ixtisası üzrə təhsil alan tələbələrin öz elmi-siyasi, diplomatik və ən əsası dövlətçilik biliklərinin artırılması üçün nəzərdə tutulan Diplomatiya Mərkəzində olub, "Hüquq" ixtisasının tələbələri üçün yaradılan və müasir texniki vasitələr ilə təchiz edilən "Kriminalistika" laboratoriyasının iş imkanları ilə tanış olublar. Memarlıq və mühəndislik fakültəsində şagirdlərə sxemotexnika və kodlaşdırma ilə də məşğul olan və fakültənin gələcək perspektivlərində mühüm əhəmiyyət daşıyan "Robototexnika" kabinəsinin fəaliyyəti haqda ətraflı məlumat verilib. Xarici dillər fakültəsi Sinxron tərcümə mərkəzində olan məktəblilər linqafon kabinələrin iş prinsipi ilə də tanış olublar. Tədrisi ingilis dilində aparılan "İqtisadiyyat" ixtisasında keçirilən dərs prosesi şagirdlərdə xüsusi maraq oyadıb. Pedaqoji fakültənin "Atıcılıq mərkəzində" olan məktəblilər atıcılıq qaydaları və üsullarını öyrəniblər.

Sonda anket sorğuda iştirak edən məktəblilər xoş təəssüratlarla universitetdən ayrılıblar.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# UNİVERSİTETİN FRANSIZ DİLİ MÜƏLLİMLƏRİ FRANSIZ İNSTİTUTUNUN ONLAYN PEDAQOJİ TƏLİMİNDƏ İŞTİRAK EDİBLƏR

Fransanın Azərbaycandakı səfirliyinin nəzdində fəaliyyət göstərən Fransız İnstitutunun Azərbaycanda Fransız dili müəllimləri üçün pedaqogikaya dair təlimi təşkil olunub. Naxçıvan Dövlət Universiteti Xarici dillər fakültəsinin "Roman-german dilləri" kafedrasının baş müəllimi Əzizə Əliyeva və həmin kafedranın müəllimi Hidayət Əkbərov təlimdə iştirak ediblər. İki hissədən ibarət təlimin birinci mərhələsində onun təşkili qaydaları, ikinci mərhələdə isə təlimin tətbiqinə dair məsələlərə aydınlıq gətirilib. Fransanın Franş-Komte Universitetinin Tətbiqi Dilçilik Mərkəzinin eksperti, fransız dili üzrə müəllim Aude Dubuisson Jouffroyun keçdiyi təlimdə dilin tədrisinə aid müxtəlif mövzulara toxunulub, dilin öyrənilməsində qarşıya çıxan çətinliklər və onların həlli yolları müzakirə olunub. Təlimdə nəzəri biliklərlə yanaşı, təcrübi məşğələlər və simulyasiyalar da göstərilib. Sonda müəllimləri maraqlandıran suallar cavablandırılıb.




Qeyd edək ki, təlimdə, həmçinin Bakı Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan-Fransız Universiteti (UFAZ), Azərbaycan Dillər Universiteti, Bakı Slavyan Universiteti və digər tədris sektorlarından, Bakı Slavyan Universitetinin Humanitar Liseyi, Landau məktəbi ("Landau School") ndən seçilmiş 15 nəfər fransız dili müəllimi iştirak ediblər. Fransız dili müəllimlərinin seçilməsində Azərbaycan Fransız İnstitutunun direktor müavini Hakan Jonathan Ünlünün əməyi xüsusilə qeyd edilib. Məlumat üçün onu da bildirək ki, 8 gün davam edən təlimi uğurla keçən hər bir iştirakçı attestat ilə təltif olunub və Azərbaycanda Fransız İnstitutunun fransız dili müəllimləri üçün təşkil edəcəyi növbəti təlimlərdə iştirak hüququ əldə ediblər.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***



# “ELMİ TƏDQİQATLARIN MÜASİR ASPEKTLƏRİ” MÖVZUSUNDA ELMİ-NƏZƏRİ SEMİNAR

Seminarda Magistratura mərkəzinin direktoru Etibar Məmmədov “Magistr hazırlığı: müasir dövrün tələbləri” mövzusunda çıxış edərək bildirib ki, magistratura ali təhsilin ikinci səviyyəsinin tələblərinə uyğun olaraq, yüksək ixtisaslı, sərbəst yaradıcılıq fəaliyyəti göstərə biləcək mütəxəssislərin hazırlığını təmin edən təhsil prosesidir. Qeyd olunub ki, magistr hazırlığının ən mühüm məsələsi dissertasiya işlərinin tələb olunan şəkildə yazılmasıdır. Nəzərə çatdırılıb ki, bu istiqamətdə magistr dissertasiyalarında mövzunun seçilməsi ən vacib məqamdır.

Elm və innovasiyalar bölməsinin müdiri Rza Məmmədov “Elmi-tədqiqat işlərinin nəticələrinin tətbiqi və səmərəliyi” mövzusunda çıxışı zamanı vurğulayıb ki, elmi-tədqiqat işlərinin təcrübəyə tətbiqi aparılan araşdırma prosesinin son mərhələsi hesab olunur. Diqqətə çatdırılıb ki, tətbiq prosesi mütərəqqi ideyalar, ixtiralar və innovasiyaların praktiki istifadəsi zamanı əldə olunan uğurla ölçülür.

“Elmi tədqiqatda şəxsi münasibət və motivasiya” mövzusunda Təhsildə qiymətləndirmə və monitorinq ixtisaslaşması üzrə II kurs magistrant Sevinc Məmmədova, “Təhsil və elmi-tədqiqat proseslərinə təsir edən psixoloji amillər” mövzusunda Azərbaycan dili ixtisaslaşması üzrə II kurs magistrant Fatma Seyidli çıxış ediblər.

Sonda magistrantları maraqlandıran suallar cavablandırılıb.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# ÖZ UĞURLARI İLƏ UĞURUN ZİRVƏSİNDƏ DAYANAN GƏNC

Bütün dövrlərdə hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə gəncliyə bağlayır, gələcəyi onda görür. Buna görə də gənc nəslin düzgün yetişdirilməsi hər bir ölkə üçün ən başlıca məsələdir. Dünyanın bütün ölkələrində gənclər sosial-iqtisadi inkişafın ən aparıcı qüvvələrindən biri, yaşlı nəslin davamçısı, cəmiyyətin ən dinamik zümrəsi olmaqla ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir, baş verən bütün proseslərin mərkəzində dayanırlar. Zaman keçdikcə dünya dəyişir, nəsillər dəyişir, ölkələr inkişaf edir. Ancaq ənənələr, milli dəyərlər, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın inkişafının və ölkənin çiçəklənməsinin heç bir zaman dəyişilməyən əsas şərtidir.



Ölkəmizdə gənclərin yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu olmuşdur. Bu siyasətin banisi isə unudulmaz siyasətçi, xalqımızın əbədi sərkərdəsi Heydər Əliyevdir. Ulu Öndərin gənclər siyasəti əsrlər boyu xalqımızın sahib olduğu milli-mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq ideyalarına sadiq olan gənc nəslin yetişdirilməsindən ibarət olub.

Ümummilli liderimiz deyirdi: "Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun!" Bu kəlməni özünə rəhbər tutaraq Ulu Öndərin ideyalarına sadiq qalan gənclərdən biri də Naxçıvan Dövlət Universitetinin "Hüquq fənləri” kafedrasının gənc müəllimi Əziz Qasımovdur. 1996-cı ildə Naxçıvan şəhərində dünyaya göz açan Əziz müəllim hələ uşaqkən öz intellektual biliyi ilə seçilib. 2013-cü ildə Şərur Türk liseyini fərqlənmə ilə bitirən Əziz elə həmin ildə Naxçıvan Dövlət Universitetinin "Hüquqşünaslıq" ixtisasına qəbul olur. Tələbəliyi dövründə fəallığı ilə seçilən bu gənc müxtəlif layihələrin ideya müəllifi, rəhbəri və təşkilatçısı olub. O, öz aktiv fəallığı ilə dövlət qurumlarının da diqqətini çəkə bilmiş və 2018-ci ildə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən "İlin fəal gənci" adına layiq görülmüşdü. Aldığı hər təltif onu daha da ruhlandırmış, yeni-yeni uğurlar üçün çalışmağa sövq etmişdi. O, hətta 2019-cu ildə Naxçıvan Dövlət Universitetinin magistratura pilləsi üzrə "Dövlət hüququ" ixtisasını da fərqlənmə ilə bitirərək "İlin magistrantı" fəxri diplomuna layiq görülür. 2020-ci ilin dekabrından isə təhsil aldığı və sonradan müəllim kimi işlədiyi Naxçıvan Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatının sədri seçilən Əziz müəllim daim yeniliklərə imza ataraq ölkəmiz üçün ictimai və sosial əhəmiyyətli fəaliyyətlər həyata keçirməyə davam edir. Fəal və səmərəli fəaliyyətinə görə Əziz müəllimin sədri olduğu Naxçıvan Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatı 31 yanvar 2022-ci il tarixində Bakıda Gənclər gününə həsr olunmuş Tələbə Gənclər Təşkilatlarının I Strateji Planlaşdırma Forumunda ölkə üzrə 101 ali və orta ixtisas təhsil müəssisələri arasında “İlin ən yaxşı Tələbə Gənclər Təşkilatı” nominasiyasına layiq görüldü. Gənc müəllimin uğurları bununla kifayətlənmir. Əziz müəllim elm və təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqləndiyi üçün Prezident mükafatına da layiq görüldü. Universitetimizin kollektivi adından Əziz müəllimi təbrik edir, ona gələcək fəaliyyətində yeni uğurlar arzulayırıq. İnanırıq ki, sadiq olduğunuz ideyalar sizinlə birlikdə bir çox gənci daim zirvələrə qaldıracaq!

**İlahə Allahverdiyeva**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# İQAİNAR - DAXİLİ KEYFİYYƏT TƏMİNATI ERASMUS LAYİHƏSİ ÜZRƏ TƏRƏFDAŞ UNİVERSİTETLƏRİN KOORDİNASİYA GÖRÜŞÜ OLUB

Naxçıvan Dövlət Universtietinin qoşulduğu uğurlu beynəlxalq layihəyələrdən biri də hazırda icra olunan İQAinAR - Daxili keyfiyyət təminatı layihəsidir. Layihəyə ötən ilin fevraından start verilmiş və onlayn yolla icrasına başlanılmışdır. Cari ilin fevral ayında layihə iştirakçıları olan universitetlərin onlayn görüşü baş tutmuşdur. Görüşdə Naxçıvan Dövlət Universiteti üzrə layihənin koordinatoru, Beynəlxalq Əlaqələr Şöbəsinin müdiri İlahə Hüseynova , layihə iştirakçılarından universitetin keyfiyyət təminatı üzrə inspektoru Əkrəm Hüseynzadə, universitet əməkdaşlarından Xumar Məmmədova, Leyla Zeynalova və Əli Cabbarov iştirak etmişlər.




Qeyd edək ki, Avropa Birliyinin həyata keçirdiyi ERASMUS proqramı çərçivəsində Hollandiyanın Vittenborq Tətbiqi Elmlər Universitetinin koordinatorluğu ilə başlanılmış “İQAinAR” layihəsinə qoşulmuş 9 universitetdən biri olan Naxçıvan Dövlət Universiteti üçün bu layihə mütərrəqi təhsil metodlarının tətbiqi və təhsildə keyfiyyətə nəzarət mexanizmlərinin təkmilləşdirilməsində qabaqcıl təcrübəni öyrənmək baxımından çox əhəmiyyətlidir. Belə ki, ötən il ərzində layihənin 1-ci tapşırıq paketinə daxil olan bütün tapşırıqlar yerinə yetirilərək, layihə icraçıları tərəfindən universitetin məzunları, tələbələr, akademik heyət, inzibati idarəetmə strukturu, həmçinin məzunların işlə təmin olunduğu müəssisə və firmaların sahibkarlarının iştirakı ilə sorğular keçirilmişdir. Daha sonra ötən ilin sentyabrında tərəfdaş universitetlərin milli seminarında keyfiyyətə nəzarət üzrə qarşıda duran vəzifələr muzakirə olunmuşdur. Bu tədbirdə Naxçıvan Dövlət Universtieti ilə yanaşı Azərbaycan Dövlət Pedaqoji Universiteti və Sumqayıt Dövlət Universitinin də iştirakı təmin olunmuşdur.

Layihənin məqsədinin işıqlandırılması üçün universitet televiziyasında veriliş təşkil olunmuş, Naxçıvan Dövlət Universtietinin “İqainar-NSU” feysbuk səhifəsi yaradılmış, yerli mətbuatda layihə barəsində məqalələr dərc olunmuşdur.

Fevralın 7-də keçirilmiş koordinasiya görüşündə tərəfdaşlar qarşısında qarşıdakı dövrdə görüləcək işlərin yol xəritəsi müəyyən olunmuş, mərhələli şəkildə tapşırıqların icrası tövsiyə olunmuşdur. İkinci paketə daxil olan bu tapşırıqlarda birinci mərhələdə əldə olunmuş ilkin göstəricilərin təhlil olunaraq inkişaf etdirilməsi, bu barədə informativ seminarların keçirilməsi, planlaşdırılan görüşlər çərçivəsində keyfiyyətə daxili nəzarət sahəsində mövcud Avropa təcrübəsinin ölkələrin mövcud təhsil standartlarına uyğun olaraq tərəfdaş universitetlərə inteqrasyia olunması, sosial mediada aktivliyin artırılması kimi vəzifələr əks olunmuşdur.

Qeyd edək ki, layihənin həyata keçirilməsi üçün nəzərdə tutulan 3 il ərzində əməkdaş universitetlərdə daxili keyfiyyət nəzarəti üzrə treninqlərin keçirilməsi, burada qazınılmış təcrübənin əməkdaş ölkələrin digər ali təhsil müssisələrində də tətbiqinə nail olunması nəzərdə tutulur. Təhsildə Avropa standartlarına uyğun nəzarət sisteminin tətbiqi, universitetlərdəki mövcud akademik heyət və tələbə kontingentinin dərs, praktiki təcrübə və araşdırma sahələrində birgə əməkdaşlığının yaradılması layihə iştirakçılarının gözlədiyi hədəflərdəndir.

**Əli Cabbarov**
***“Bələdiyyə və turizm” kafedrasının dosenti***

# BEYNƏLXALQ POEZİYA GÜNÜ QEYD EDİLİB

Beynəlxalq poeziya günü ilə əlaqədar Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasında "Heydərbabadan haray salıb sənə ömür salaq" adlı ədəbi-bədii gecə təşkil olunub. Universitetin rektoru Elbrus İsayev poeziya gününün tarixinə nəzər salıb. Bildirilib ki, şeirin oxunmasını, yazılmasını, nəşrini və tədrisini bütün dünyada təbliğ etmək məqsədini daşıyan tarixi gün YUNESKO tərəfindən 1999-cu il 21 martdan etibarən qeyd olunur. Vurğulanıb ki, poeziya sənətini təbliğ etmək, şeiri insanlara sevdirmək, xalqları ədəbiyyatın bu janrı ilə bir-birinə yaxınlaşdırmaq məqsədini daşıyan tarixi gün Azərbaycanda 2007-ci ildən etibarən qeyd olunur. Rektor muxtar respublikada da poeziyaya, şeir, sənət adamlarına göstərilən dövlət qayğısından danışaraq bildirib ki, Azərbaycan ədəbiyyatının çoxəsrlik inkişaf tarixində Naxçıvan ədəbi mühitinin özünəməxsus yeri var. İstər ədəbi-bədii yaradıcılıq, istərsə də elmi–tədqiqat sahəsində Naxçıvanlı qələm sahibləri həmişə öz sözlərini deyib, ədəbiyyatşünaslığımıza layiqli töhfələr veriblər. Elbrus İsayev şeirə, sənətə dəyər verən hər kəsi təbrik edib, belə tədbirlərin davamlı olmasını arzulayıb.



Universitet Elmi Kitabxanasının direktoru Fariz Əhmədov qeyd edib ki, auditoriya genişliyi və rəngarəngliyi ilə seçilən tədbirdə Naxçıvan Dövlət Universiteti, Naxçıvan Universiteti, Naxçıvan Müəllimlər İnstitutunun müəllim və tələbələri, AMEA Naxçıvan bölməsi İncəsənət Dil və Ədəbiyyat İnstitutunun icraçı direktoru Elxan Yurdoğlu, Naxçıvan Radiosunun əməkdaşı, şair-jurnalist Təranə Arifqızı, orta məktəb şagirdləri də iştirak ediblər.

Fərqli formatda təqdim olunan tədbirdə iştirakçılar M.H. Şəhriyarın “Heydərbabaya salam” poemasını bədii qiraət ediblər. Tədbirdə ali təhsil ocağının əcnəbi tələbələrinin də şairin şeirlərini bədii qiraət etməsi tədbiri daha yaddaqalan edib.

Həmçinin ədəbi-bədii gecədə ölməz şairin yaradıcılığından digər ədəbi nümunələr də səsləndirilib. Naxçıvan Radiosunun əməkdaşı, şair-jurnalist Təranə Arifqızı Şəhriyarsayağı yazdığı “Təndirçörəyi” şeirini səsləndirib.

Sonda ssenari müəllifi universitet Elmi Kitabxanasının müdiri Fariz Əhmədov, operatoru Sərxan Əliyev olan nisgilli şairin keşməkeşli həyatını özündə əks etdirən videoçarx tədbir iştirakçılarında yaddaqalan təəssürat oyadıb. Qeyd edək ki, videonun mətnini Naxçıvan televiziyasının əməkdaşı Yaqub İsayev səsləndirib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# MİLLİ TEATR GÜNÜ QEYD EDİLİB

Ali təhsil ocağının İncəsənət fakültəsində Milli teatrın yaradılmasının 149-cu ildönümü münasibətilə tədbir keçirilib.

Teatr və mədəniyyətşünaslıq kafedrasının müdiri, Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi, filologiya üzrə fəlsəfə doktoru Gülxarə Əhmədova çıxışı zamanı qeyd edib ki, 149 yaşını qeyd edən Azərbaycan Milli teatrı 1873-cü il martın 10-da görkəmli maarifçilər Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov və Əsgər ağa Goraninin təşəbbüsü ilə Mirzə Fətəli Axundzadənin “Lənkəran xanının vəziri” əsəri ilə qoyulub. Bu əlamətdar tarix hər il universitetin Teatr və mədəniyyətşünaslıq kafedrasında bütün müəllim və tələbə-aktyor heyəti ilə birgə qeyd edilir. Bildirilib ki, ali təhsil ocağında 20 ildən artıqdır ki, fəaliyyət göstərən Tələbə Teatr Studiyası mədəni həyatın tərkib hissəsinə, çoxminli kollektivin mənəvi-estetik ehtiyaclarının ödənilməsi işinə xidmət edən mədəniyyət ocağına çevrilib. Studiya hazırladığı tamaşalar universitetin müəllim və tələbə heyətinin rəğbətini qazanmaqla bərabər, həmçinin muxtar respublikanın mədəni həyatında, respublikamızdan kənarda da uğurlar əldə edib.



Daha sonra Xalq yazıçısı Kamal Abdullanın “Bir, iki – bizimki!” pyesi əsasında hazırlanan, Aktyor sənəti üzrə II kurs tələbəsi Xəlil Hüseynovun və Aktyor ifaçılığının tarixi və nəzəriyyəsi üzrə II kurs magistrant Vəfa Qurbanzadənin iştirakı ilə eyniadlı tamaşa təqdim olunub. Səhnə əsəri iki fərqli dünya insanının söhbəti, bir-birinə təmassız toxunuşları, sevgisi, peşmanlığı, əsəbi, mübahisəsi, yenə də qovuşmaq arzuları üzərində qurulub. Müəllif Kamal Abdulla pyesi 5 şəkildən ibarət, bir-birini anlamaq istəyən və anlamayan, tapmaq istəyən və tapmayan iki nəfərin duyumlar dramı kimi təqdim edir.

Tamaşadan sonra rektor “Aktyor sənəti” ixtisasında təhsil alan tələbələrlə görüşüb. Elbrus İsayev tələbə və müəllimlərin işini yüksək qiymətləndirərək əməyi keçən hər kəsə öz təşəkkürünü bildirib. Qeyd edilib ki, muxtar respublikamızda teatr və incəsənət sahələri üzrə ixtisaslı kadrların hazırlanması işinə xüsusi əhəmiyyət verilir. 2011-ci ildə ali təhsil ocağında Teatr və Mədəniyyətşünaslıq kafedrasının nəzdində “Aktyor sənəti” ixtisasının fəaliyyətə başlaması ixtisaslı aktyor kadrlara olan tələbatın ödənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Vurğulanıb ki, artıq bir çox tələbə müxtəlif teatrlarda əmək fəaliyyətinə başlayıb ki, bu da çox sevindirici haldır. Rektor Gülxarə Əhmədovanın teatr sahəsindəki fəaliyyətini, universitetin bu sahədə inkişafında xüsusi rolu olduğunu qeyd edərək diplom, kitab və pul mükafatı, il ərzində öz bacarıqları ilə seçilən, tədbirlərdə fəal iştirak edən tələbələrə təşəkkürnamə, digər müəllimlərə isə pul mükafatı təqdim edib.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ƏMƏKDAŞLARININ ELMİ MƏQALƏLƏRİ YÜKSƏK İMPAKT-FAKTORLU JURNALLARDA DƏRC OLUNUB

Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsi “Orkestr alətləri və dirijorluq” kafedrasının müəllimi Aidə Novruzovanın “XII-XIII əsrlərdə Azərbaycan xalqının mədəniyyətində musiqinin rolu” adlı elmi məqaləsi Ukraynada “Müasir dünyada mövcud elmi tədqiqatlar” adlı jurnalda dərc olunub. Müəllif məqalədə XII-XIII əsrlərdə Azərbaycan xalqının mədəniyyətində musiqinin necə rol oynadığından bəhs edilir. Çoxəsrlik tarixə malik olan Azərbaycan musiqi nəzəriyyəsinin yaranmasında və inkişafında böyük rolu olan XII-XIII əsrlərdə yaxın və orta Şərqin iki ən böyük alimi Səfiyəddin Urməvi və Əbdülqadir Marağayinin yaradıcılığı haqda ətraflı məlumat verilir. Məqalədə, həmçinin milli musiqimizin dəyərli incilərindən saylan muğamlarımızın özünəməxsus cəhətlərinə də nəzər salınır.






Naxçıvan Dövlət Universiteti İngilis dili və metodika kafedrasının müdiri Cavid Babayevin elmi məqaləsi Rusiyanın Penza şəhərində “Avropa Elmi Konfransı“ (European Scientific Conference) jurnalında nəşr olunub. “Şəxsiyyətləşdirmə və onun digər oxşar stilistik vasitələrdən fərqi” (“Personification and its difference from other similar stylistic devices”) adlı elmi məqalədə ən çox istifadə olunan leksik üslubi vasitələrdən biri olan personifikasiyanın incə məqamlarından bəhs olunur. Məcazın bir növü kimi personifikasiyanın insan keyfiyyət və xüsusiyyətlərinin cansız cisimlər üzərinə köçürülməsi olduğunu qeyd edən müəllif tədqiqat əsərində personifikasiyanın təqliddən, antropomorfizmdən, zoomorfizm, təşbeh və metonimiyadan fərqli xüsusiyyətlərini araşdırıb.




Naxçıvan Dövlət Universitetinin İngilis dili və metodika kafedrasının müdiri Cavid Babayevin “Antanaklassisin digər dil layları ilə müqayisəsi” (“Comparison of antanaclassis with the components of language layers”) adlı elmi məqaləsi Rusiyanın Moskva şəhərində yüksək impakt-faktorlu “Müasir elm və təhsil problemləri” (“Problems of Modern Science and Education”) jurnalda dərc olunub. Müəllif məqalədə paronomasiyanın bir növü olan antanaklassis haqda araşdırma aparıb və onun dil uzisinə aid olan yanıltmaclarla müqayisəli cəhətlərinə nəzər salıb. Tədqiqatda qeyd edilib ki, antanaklassis bir cümlənin bir-neçə dəfə dalbadal sürətlə deyilməsi ilə gülünc və yumor doğuran vulqar ifadənin ortaya çıxmasına səbəb olur. Müəllif antanaklassisin yanıltmacla oxşar olduğu qənaətinə gələrək bildirib ki, hər iki dil layında iki normal cümlə dalbadal işlənir və sürətlə deyilir. Fərqli cəhətlərinə gəldikdə isə yanıltmaclar dil dolaşmağa xidmət edir, gülünc və yumor doğurmaya bilər. Bundan başqa yanıltmaclar vulqar söz yaratmır.




Naxçıvan Dövlət Universiteti Bədən tərbiyəsi və idman kafedrasının müdiri Əvəz Tağıyevin “Gənclərin fiziki tərbiyəsində təlim məşq prosesinin əsasları və əhəmiyyəti” adlı elmi məqaləsi Polşada “Müasir elmi çağırışlar və meyllər” (Modern Scientific Challenges and Trends) adlı elmi jurnalda dərc olunub.

Müəllif məqalədə məşq prosesini düzgün keçirməkdən ötrü bioloji elmlərin, ilk növbədə bədən tərbiyəsinin elmi, təbii əsası olan idman fiziologiyasının əhəmiyyəti, gənc idmançıların təlim-məşq prosesində məşqçinin didaktik prinsiplərə nəzər salaraq öyrətməsindən bəhs edir. Qeyd edilir ki, ümumi gimnastika hazırlığının qarşısına qoyulan əsas vəzifə idman gimnastikasının əvvəlcə sadə, daha sonra mürəkkəb olan eyni tipli hərəkətlərinin mənimsənilməsi və gimnastika hərəkətləri texnikasının əsaslarına yiyələnməkdən ibarətdir.

Məqalədə həmçinin məşqçinin qabaqcıl iş təcrübəsini ümumiləşdirmək yolu ilə, idmanın texnikasının təkmilləşdirilməsinə, bu texnikanı mənimsətmək prosesinin sürətləndirilməsinə nail ola bilməsi də öz əksini tapıb.




Naxçıvan Dövlət Universiteti Bədən tərbiyəsi və idman kafedrasının müdiri Əvəz Tağıyevin həmin kafedranın baş müəllimi Kifayət Hüseynova ilə birgə yazdığı “İdmançıların məşqetmə dərəcəsi, yorulma və bərpa proseslərinin sinir sistemi tərəfindən tənzimlənməsi” adlı elmi məqaləsi Ukraynada “Müasir dünyada mövcud elmi tədqiqatlar” adlı jurnalda dərc olunub.

Məqalədə müəlliflər idmançıların məşqetmə dərəcəsindən, müntəzəm məşq prosesi zamanı orqanizmin yorulması və bərpasından bəhs edirlər. Həmçinin ağır yarışlardan sonra yorulan idmançıların gərginliyini azaltmaq üçün etdiyi qaydalar haqda məlumat verilir. Məqalədə vurğulanır ki, idmançı məşq etdiyi zamana diqqət etməli və bilməlidir ki, həddindən artıq məşq prosesi sinir sistemini pozar, iş qabiliyyətini azaltmaqla fiziki yükü artırar. Məqalədə məşqçilərin bütün məşq boyu idmançıları nəzarətdə saxlamalı olduğu məsələlərə də aydınlıq gətirilib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***




Naxçıvan Dövlət Universiteti İngilis dili və metodika kafedrasının müdiri Cavid Babayevin elmi məqaləsi Norveçin paytaxtı Oslo şəhərində “Norveç inkişaf və elm jurnalı”nda (Norwegian Journal of Development and Science) nəşr olunub. “Dilin danışıq layının üslubi imkanları” (Stylistic opportunities of colloquial layer of the language) adlı məqalənin dərc olunduğu jurnal dünyanın ən nüfuzlu beynəlxalq indeksləmə bazasında yer alan Copernicus, Journal Factor, Calameo, GIF, Cosmos, Cite Factor və digər sistemlərdə qeydiyyatdadır. Jurnal həmçinin Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya komissiyasının tövsiyyə etdiyi ən nüfuzlu 6 beynəlxalq xülasələndirmə sistemindən birinə Copernicus-a daxildir. Müəllif məqalədə dilin danışıq layının üslub imkanlarından bəhs edir. Bildirilir ki, dilin danışıq layına jarqonlar idiomlar slenqlər atalar sözləri və qısaltmalar aiddir. Onlar burada - perifraza, antimetabola, metalepsis, ellipsis, prozopopeya və digər bu kimi müxtəlif üslub və ifadə vasitələri yaradırlar ki, bu da məqalədə öz əksini tapır.




Naxçıvan Dövlət Universiteti Meliorasiya və Geodeziya kafedrasının müəllimi Hüseyn İmanovun “Ekoloji sənət perspektivindən təbiət” adlı elmi məqaləsi Rusiyanın Penza şəhərində nəşr olunub. Müəllif məqalədə təbiət və incəsənət arasındakı əlaqəni araşdırıb. Bildirilib ki, təbiət hadisələri hər zaman incəsənət adamları üçün ilham mənbəyi olub. Həmçinin, məqalədə qeyd edilir ki, qlobal istiləşmə, səhralaşma kimi iqlim dəyişiklikləri heykəltəraş və rəssamların əsərlərində uğurla təsvir edilib. Bəzi rəssamlar hətta öz əsərlərində belə ətraf mühitin çirklənməsinə etiraz nümayiş etdiriblər. Müəllif sonda belə qənaətə gəlir ki, ətraf mühitin ekoloji vəziyyətinin gərginləşməsi insan – təbiət münasibətlərinə yeni baxışlar tələb etdiyi üçün bu həlli vacib olan bir problemə nəinki ekoloqlar, ictimaiyyətin böyük bir kütləsi, həmçinin sadə adamlar xüsusi həssaslıqla yanaşmalıdırlar. Ən əsası isə odur ki, təbiətə qarşı düzgün münasibət lap kiçik yaşlarından insanlara tərbiyə edilməlidir.




## TEODOR DRAYZERİN “DAHİ” ƏSƏRİNİN MÜZAKİRƏSİ KEÇİRİLİB

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında “Kitablardan pıçıltılar” oxu yarışmasının yekunu olaraq Teodor Drayzerin “Dahi” əsərinin müzakirəsi keçirilib.




Universitet Elmi Kitabxanasının direktoru Fariz Əhmədov ali təhsil ocağında fevral ayının başlanğıcından etibarən başlanan oxu yarışması haqda məlumat verib. Qeyd edilib ki, muxtar respublika və Azərbaycanı da əhatə edən layihə öz iri həcmliliyi ilə seçilib. Belə ki, yarışmada Naxçıvan Dövlət Universitetindən müəllim və tələbələr qatılmaqla bərabər onlayn olaraq Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Naxçıvan Müəllimlər İnstitutundan müəllim və tələbələr, Bakıdan orta məktəb müəllimi, Naxçıvan şəhər 14 nömrəli orta məktəbin şagirdi, Aralıq kənd sahə xəstəxanasının baş həkimi və digər şəxslər iştirak ediblər.



İştirakçılar Amerika yazıçısı Teodor Drayzerin həyat və yaradıcılığından, eləcə də onun “Dahi” romanı haqqında ətraflı danışıblar. Müzakirədə əsər barədə təzadlı fikirlər səsləndirilib.

Çıxışlarda qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə bu romanın oxunması zəruri olan kitablar siyahısına daxil edilməsi gənclərin mənəvi tərbiyəsinə göstərilən diqqət və qayğının daha bir nümunəsidir.

Məlumat üçün onu da bildirək ki, gənclərin mütaliəni bir vərdiş olaraq mənimsəmələri baxımından layihənin gələcəkdə davam etdirilməsi də proqnozlaşdırılır.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# MÜƏLLİMLƏRİN YUBİLEYLƏRİNİN QEYD OLUNMASI ƏNƏNƏ HALINI ALIB

“Pedaqogika və psixologiya” kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Vahid Rzayevin 70 illik yubileyi qeyd olunub. Bu münasibətlə keçirilən tədbirdə çıxış edən universitetin rektoru Elbrus İsayev qeyd edib ki, ömrünün 43 ilini Naxçıvan Dövlət Universitetində pedaqoji yönümlü ixtisaslarda təhsil alan tələbələrə həsr edən Vahid Rzayev nümunəvi müəllimdir. Rektor vurğulayıb ki, özünəməxsus tədqiqat əsərlərinin müəllifi kimi seçilən yubilyar elm sahəsində qazandığı uğurlarla universitet tarixində iz qoyan alimlərdəndir. Diqqətə çatdırılıb ki, gənc nəslin yetişməsinə mühüm töhfələr verən Vahid müəllim muxtar respublikada və Azərbaycanda uğurla fəaliyyət göstərən pedaqoji kadrların hazırlanmasında xüsusi xidmətləri ilə seçilir. Elbrus İsayev yubilyara universitetin fəxri fərmanını və gül dəstəsini təqdim edərək ona sağlam ömür və işlərində uğurlar arzu edib.



Universitetin Pedaqoji fakültəsinin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vəli Əliyev işinə xüsusi diqqət və məsuliyyətlə yanaşan Vahid müəllimin fakültədəki fəaliyyətindən bəhs edib və onunla bağlı xoş xatirələrini bölüşüb.

Pedaqogika üzrə elmlər doktoru, professor İsmayıl Əliyev Vahid Rzayevin çoxşaxəli elmi fəaliyyətindən danışıb. Azərbaycanda pedaqogika sahəsində öz yeri olan Vahid müəllimin əməyinin dövlət tərəfindən yüksək qiymətləndirilərək 2017-ci ildə Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi fəxri adına layiq görüldüyünü diqqətə çatdırıb.

Pedaqogika və psixologiya kafedrasının müdiri, psixologiya üzrə fəlsəfə doktoru, dosent Sevinc Orucova Vahid Rzayevin pedaqoji fəaliyyətindən bəhs edərək bildirib ki, tələbələrlə hər zaman yaxından maraqlanaraq onların böyük sevgisini qazanan alim öz peşəsinə daim sevgi ilə yanaşır. Qeyd olunub ki, Vahid müəllimin tədqiqat sahəsi Azərbaycan məktəb və pedaqoji fikir tarixinin tərkib hissələrindən biri olan Naxçıvan mədəni mühiti, burada məktəb təhsilinin və yeni pedaqoji ideyaların yayılması və inkişaf mərhələsi ilə bağlıdır.

Çıxış edənlər yubilyar haqqında xatirələrini bölüşərək ünvanına xoş fikirlər səsləndirib və hədiyyələr təqdim ediblər.

Sonra yubilyar ziyalılara göstərilən yüksək diqqət və qayğıya görə minnətdarlıq edərək bundan sonra da elmi fəaliyyətində yeniliklər edəcəyinə əminliyini ifadə edib.

Qeyd edək ki, Vahid Məmməd oğlu Rzayev 1952-ci ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şərur qəsəbəsində anadan olub. 1971-1975-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası üzrə təhsil alıb. Əmək fəaliyyətinə 1975-ci ildə Şərur rayonunun Aşağı Daşarx kənd səkkizillik məktəbində başlayan Vahid Rzayev 1979-cu ildə universitetin Pedaqogika və psixologiya kafedrasının müəllimi, 2001-ci ildə həmin kafedranın baş müəllimi, hazırda isə dosent vəzifəsində çalışır, 2 monoqrafiyanın, 7 kitabın, 3 metodik vəsaitin və 100-dən artıq elmi məqalənin müəllifidir. Vahid Rzayev nüfuzlu beynəlxalq konfranslarda iştirak edib, həmçinin Azərbaycan məktəb və pedaqoji fikrinin bir sıra problemlərinə aid məqalələr nəşr etdirib. Əsərləri Türkiyə, Rusiya, Gürcüstan, Ukrayna, İngiltərə, ABŞ və Avstriyanın elmi jurnallarında nəşr olunub. Vahid Rzayev 1993-cü ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

---

Xarici dillər fakültəsində Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi, “Rus və şərq dilləri” kafedrasının baş müəllimi Rəmziyyə Əsgərovanın 70, həmin fakültənin “İngilis dili və tərcümə” kafedrasının baş müəllimi Bülbül Hacıyevanın 60 illik yubileylərinə həsr olunan tədbir keçirilib.

Universitetin rektoru Elbrus İsayev qeyd edib ki, vətəndaş, təhsil mühitinin yaradılmasında əməyi keçən hər bir müəllimin rolu əvəzolunmazdır ki, hər iki müəllim bu vəzifənin öhdəsindən layiqincə gəlməkdədir. Diqqətə çatdırılıb ki, Xarici dillər fakültəsində peşəkar mütəxəssis və kadrlar hazırlanır ki, artıq həmin kadrlar öz müəllimləri ilə çiyin-çiyinə fəaliyyət göstərirlər. Bu da müəllimlərin əməyinin, onların universitetin inkişafında əvəzsiz rolu olduğunun bariz nümunəsidir. Yubilyarların elmi-pedoqoji fəaliyyətlərini yüksək qiymətləndirən rektor, onları yubileyləri münasibətilə təbrik edərək universitetin fəxri fərmanını və gül dəstəsini hədiyyə edib.



Xarici dillər fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Şirməmməd Qulubəyli yubilyarlar haqqında danışarkən bildirib ki, 1986-cı ildən Naxçıvan Dövlət Universitetində əmək fəaliyyətinə başlayan Rəmziyyə Əsgərova, 1995-ci ildən “Rus və şərq dilləri” kafedrasında baş müəllim vəzifəsində çalışır, 8 elmi əsərin müəllifidir. Dekan Bülbül Hacıyeva haqqında məlumat verərkən diqqətə çatdırıb ki, müəllim 2000-ci ildən bəri universitetin İngilis dili və tərcümə kafedrasında fəaliyyət göstərir. Qeyd edilib ki, Bülbül müəllim eyni zamanda elmi fəaliyyətlə də məşğul olur ki, bu illər ərzində 13 elmi məqaləsi nəşr olunub. Dekan yubilyarları təbrik edərək, gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

İngilis dili və Tərcümə kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent İlhamə Məmmədova qeyd edib ki, hər iki müəllim fəaliyyətlərinin ilk dövrlərindən tələblərin sevimlisinə çevriliblər. Vurğulanıb ki, məsuliyyəti, əməksevərliyi ilə seçilən müəllimlərin xidmətləri təqdirəlayiqdir.

Rus və Şərq dilləri kafedrasının müdir əvəzi Ceyhun Əliyev Yubilyarları təbrik edərək, onlara uzun ömür, can sağlığı arzulayıb.

Sonda yubilyarlar yaradılan şəraitə, göstərilən qayğıya, xoş sözlərə və təbriklərə görə minnətdarlıqlarını ifadə ediblər.

---



Memarlıq və mühəndislik fakültəsinin “Memarlıq” kafedrasının baş müəllimi Məmməd Rəcəbovun 70 illik, “Dünya iqtisadiyyatı və Menecment” kafedrasının baş müəllimi Mədinə Allahverdiyevanın isə 60 illik yubileyi münasibətilə tədbir keçirilib.

Açılış nitqi ilə çıxış edən universitetin rektoru Elbrus İsayev qeyd edib ki, peşəkar müəllimlərə sahib olmaq universitetin ən yüksək göstəricilərindən biridir. Vurğulanıb ki, elm və təhsilə, müəllimlərə göstərilən qayğının nəticəsidir ki, ziyalılarımız cəmiyyətdə hər zaman ön sıralarda yer alır. Bildirilib ki, universitetin məzunları müxtəlif sahələr üzrə muxtar respublikada, Azərbaycanda, hətta dünyada uğurla fəaliyyət göstərir ki, bunları da müəllimlərimizə borcluyuq. Universitetin çətin və keşməkeşli dövrlərində fasiləsiz olaraq fəaliyyət göstərən hər iki müəllimi universitetin canlı tarixi kimi qiymətləndirən rektor yubilyarları təbrik edərək, onlara uzun ömür cansağlığı arzulayaraq universitetin fəxri fərmanını və gül dəstəsini təqdim edib.

Memarlıq və mühəndislik fakültəsinin dekanı, riyaziyyat üzrə elmlər doktoru, professor Cavanşir Zeynalov yubilyar haqda danışaraq bildirib ki, Məmməd Rəcəbov 1974-1976-cı illərdə Tumaslı kənd orta məktəbində riyaziyyat müəllimi, 1977-ci ildən Naxçıvan Pedaqoji İnstitutunun “Cəbr və həndəsə” kafedrasında baş laborant, 1980-ci ilin fevralından həmin kafedrada müəllim, 1994-cü ildən baş müəllim, 2004-cü ildən 2018-ci ilədək Memarlıq və mühəndislik fakültəsində dekan müavini işləyib. Hal-hazırda həmin fakültənin “Memarlıq” kafedrasında baş müəllim vəzifəsində çalışır və 35 elmi məqalənin müəllifidir. Cavanşir müəllim hər iki yubilyarı təbrik edərək, onlara bundan sonraki fəaliyyətlərində uğurlar arzulayıb.



“Memarlıq” kafedrasının müdiri, memarlıq üzrə fəlsəfə doktoru, dosent Gülnarə Qənbərova və “Nəqliyyat mühəndisliyi və texniki fənlər” kafedrasının müdiri, fizika üzrə fəlsəfə doktoru, dosent Məftun Əliyev Məmməd müəllim ilə birgə çalışdıqları dövrləri xatırlayaraq, onun haqqında xoş fikirlər səsləndiriblər.

“Dünya iqtisadiyyatı və menecment” kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent Cavadxan Qasımov Mədinə Allahverdiyeva haqqında dəyərli fikirlər səsləndirib.

“Bələdiyyə və turizm” kafedrasının müdiri Flora Kərimova Mədinə müəllimi və Məmməd müəllimi yubileyləri münasibətilə təbrik edərək onları ideal müəllim adlandırıb.

Çıxış edənlər yubilyarların ünvanına xoş sözlər, səmimi arzular səsləndiriblər.

Məlumat üçün onu da bildirək ki, Mədinə müəllim 2005-ci ildən universitetdə pedaqoji fəaliyyətə başlayıb. İndiyə kimi 34 məqalə, 8 fənn proqramı, 2 metodik vəsaiti çap olunub. 2014-cü ildən universitetin “Dünya iqtisadiyyatı” kafedrasının baş müəllimi seçilib. Hazırda “Dünya iqtisadiyyatı və menecment” kafedrasında müəllim kimi fəaliyyət göstərir.

Daha sonra tələbələrin müəllimləri üçün səsləndirdiyi musiqi nömrələri dinlənilib.

Sonda yubilyarlar çıxış edərək, xoş sözlərə, təbriklərə və təşkilatçılığa görə minnətdarlıqlarını ifadə ediblər.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

---



Ali təhsil ocağının Tibb fakültəsində Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi, baş müəllim Yazgül Rzayevanın 70, müəllim və həkim-laborant Qadir Əliyevin isə 60 illik yubileyi qeyd edilib.

Tədbiri giriş sözü ilə açan ali təhsil ocağının rektoru Elbrus İsayev muxtar respublikada həkim və müəllimlərə göstərilən etimaddan söz açıb. Qeyd edilib ki, muxtar respublikada bütün sahələrlə yanaşı, səhiyyə sistemi, həkimlər də daim dövlətin diqqət və qayğısı ilə əhatə olunub. Diqqətə çatdırılıb ki, universitetdə bele savadlı mütəxəssislərin fəaliyyət göstərməsi, tibbi kadrların hazırlanması universitetin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Vurğulanıb ki, hər iki müəllim səhiyyə sisteminə və tibb təhsilinin formalaşdırılmasına layiqli töhfələr verib. Rektor yubilyarları təbrik edərək, onlara universitetin fəxri fərmanını və gül dəstəsini təqdim edib.

Tibb fakültəsinin dekanı, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov yubilyarlar haqqında iştirakçıları məlumatlandırıb. Qeyd edilib ki, Yazgül Rzayeva 2000-ci ildə Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin klinik xəstəxanasında işləməklə yanaşı, Pediatriya kafedrasında müəllim kimi fəaliyyət göstərib. Diqqətə çatdırılıb ki, müəllim vaxtilə “Pediatriya”, “Tibbi klinik fənlər” kafedralarında, hal-hazırda isə “Ümumi təbabət və klinik fənlər” kafedrasında baş müəllim işləyir. Elsevər Əliyev yubilyarları təbrik edərək, onlara fəaliyyətlərində uğurlar arzulayıb.”

Ümumi təbabət və klinik fənlər” kafedrasının müdiri Gültəkin Əliyeva Qadir Əliyev haqqında danışarkən qeyd edib ki, müəllim 2002-ci ilə qədər ayrı-ayrı vaxtlarda muxtar respublikanın müxtəlif xəstəxanalarında və universitetin Tibb fakültəsində həkim kimi fəaliyyət göstərib. Bildirilib ki, Qadir Əliyev haliyədə universitet xəstəxanasında həkim, Tibb fakültəsində isə müəllim kimi fəaliyyətini davam etdirir.

“Təməl tibb fənləri” kafedrasının müdiri İlhamə Mustafayeva yubilyarların ünvanına xoş sözlər səsləndirərək, onları təbrik edib.

Sonda yubilyarlar çıxış edərək, təşkilatçılığa və təbriklərə görə minnətdarlıqlarını bildiriblər.

**Məmmədbağır Dünyamalıyev**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# DÜZGÜN İNFORMASİYANI HARADAN VƏ NECƏ TOPLAMALI? - MƏSLƏHƏT

Hamı yaxşı bilir ki, indi dünyada ən mühüm olan amillərdən biri də informasiya və ya məlumatdır. Hətta müasir dövrün adamları belə bir atalar sözü də işlədirlər: "İnformasiyaya sahib olan dünyanın da sahibidir". Geniş mənada səslənsə də, bu ifadədə informasiyanın gücü aydın görünür. İnformasiya ilə işləmək vərdişləri və prinsipləri bir çox sahələrə aiddir. Bu sahələrdən bəziləri məxfilik, bəziləri məhdud ortam, bəziləri isə hamı - geniş auditoriya üçündür. Təbii ki, geniş auditoriya üçün məlumat toplayanlar dedikdə birmənalı şəkildə göz önünə jurnalistlər gəlir. Çünki informasiya olmasa, jurnalistika da, demək olar ki, yoxdur. KİV-də təqdim edilən hər bir yazının, məqalənin, verilişin, radio proqramlarının, hətta musiqinin belə arxasında informasiya vermək məqsədi dayanır. Yəni fakt olmasa, bütün bunlar da olmaz. Bütün bunların hazırlanan materialda yoxluğu sadəcə uğursuz cəhddir. Deməli, hər bir KİV məhsulunun özülündə fakt-məlumat dayanır. Ali təhsil ocaqlarında peşəkar jurnalist yetişdirmək üçün sərf edilən vaxtda hər bir fənnin məqsədi mütləq informasiyanın düzgün toplanması və təqdimatına xidmət edir. Bu istiqamət düzgün təyin edilib seçilərsə, onda həmin təhsil ocağını bitirən tələbə gələcəkdə yaxşı və sanballı jurnalist ola bilər. Beləliklə, ilk növbədə ümumi biliklərlə yanaşı, tələbə-jurnalistlərə faktla işləməyi öyrətmək də vacibdir. Amma o da var ki, faktlarla, informasiya ilə işləmək özü ayrıca bir bacarıq tələb edir. Bəlkə də bu bir istedaddır. Bu cür bacarığı olan insanlar jurnalistika ixtisasını bitirməyə də bilərlər. Bununla bağlı yetərincə faktlar var. Yəni bu gün tanıdığımız və hörmət etdiyimiz jurnalistlərin sırasında qeyri-ixtisasdan bu sahəyə gələnlər az deyil. Lakin yenə də təməl biliklər verilən ixtisaslardan bu sahəyə gələnlərin uğurları daha çoxdur.

Hər bir jurnalist uğur qazanmaq üçün faktlarla işləməyi, hətta onu tapmağı bacarmalıdır. Bu gün etiraf edək ki, informasiya bolluğu yaradan müasir texnologiyaların fonunda izləyici və ya tamaşaçını heyrətləndirmək çətin məsələdir. Peşəkarların rəqibinə çevrilən smartfonlar-ağıllı telefonlar və sosial şəbəkələr indi jurnalistlərdən daha çevik düşüncə və inadla axtarılan dəqiq fakt tələb edir. Digər tərəfdən ölkədəki söz və fikir azadlığı nəticəsində yaradılan çoxsaylı informasiya resursları xəbərlərin daha tez kim tərəfindən verilməsi ilə bağlı əsl rəqabət savaşı diktə edir. Bəzən bir xəbər o qədər müxtəlif mənbələrdə paylaşılır ki, onun ilkin müəllifini tapmaq çətin olur. Təbii ki, burada qazanan izləyici, oxucu, tamaşaçıdır. Amma uduzan jurnalistdir. Daha dəqiqi, informasiya sahəsində çalışan adamlardır. Yəni onlar axtarıb tapır, faktı işıqlandırır, izləyici marağını xəbərə cəlb edir, sonra isə başqaları onun bu zəhmətinə şərik çıxırlar. Bunun üçün də qəbul edilən qaydaya görə xəbərin mənbəyi mütləq bildirilməlidir. Gənc jurnalistlər və qeyri-peşəkarlar çox zaman bu barədə əsl mənada əziyyət çəkirlər. Bütün sahələrdə olduğu kimi informasiya istiqamətində də yaxşı mənada bir "tez xəbər çatdırma" savaşı olmalıdır. Hər kəs öz xəbərini hamıdan birinci təqdim etməyi özünün peşə prinsipi hesab etməlidir. Düzdür, dədiqləşdirilməyən, heç bir rəsmi mənbəsi olmayan xəbərləri yayımlamaq KİV-ə və onun mənsubuna ancaq etibarsız mənbə, qərəzli jurnalist adı qazandırar. Bunun üçün də obyektivlik və dəqiqlik əsas prinsip kimi bu hallarda operativlikdən öndə getməlidir.



Xəbərlərin və informasiyanın əldə edilməsi üçün mütləq peşəkar vərdişlərə sahib olmaq lazımdır. Bunun üçün peşəkar jurnalistlərin "öz informasiya mənbələri" olur. Həmin mənbələr tərəfindən onlara mütəmadi olaraq maraqlı xəbərlər ötürülür. Bəs bu sahədə təcrübəsi olmayanlar, gənclər necə etməlidirlər? Geniş kütləyə təqdim ediləcək informasiyanı toplamağın yollarından biri mətbuat xidmətlərinin yaydığı məlumatlardır. Onlar tam rəsmi və birinci mənbə sayılır. Amma bu qurumlar yaydığı məlumatlarda birmənalı şəkildə öz işlərini göstərmək, geniş auditoriyaya təqdim etmək məqsədi daşıyırlar. Bunun üçün də jurnalistlər onların təqdim etdiyi yazılarda daha çox oxucu, izləyici və tamaşaçı üçün maraqlı olan məqamları axtarıb tapmalı və ipucu olaraq da bu informasiyaların üzərində işləməlidirlər. Digər yollardan biri yuxarıda qeyd etdiyimiz kimi başqa informasiya mənbələridir. Amma burada da informasiyanı (rəsmi qurumların xüsusi əhəmiyyətli məlumatları istisna olmaqla), kiminsə təqdim etdiyini olduğu kimi "copy-paste" edib vermək yox, özünəməxsus şəkildə, necə deyərlər, "özününküləşdirərək" təqdim etmək lazımdır. Belə olan halda informasiya təkrar xəbər deyil, yenidən işlənərək faktın, hadisənin mühüm məqamlarını daha geniş əhatə edən məlumata çevrilir.

İndi bu sahədə öz işlərini bir qədər təkmilləşdirənlər sosial şəbəkələrdən bu informasiyaları ustalıqla "tuturlar". Ona görə də yeni başlayanlar bu təcrübədən istifadə edə bilərlər. Son illər sosial şəbəkələrin sərbəstliyi hər kəsin gördüyünü, çəkdiyini, yazdığını və hətta düşündüyünü də ictimaiyyətə adi hal kimi təqdim etməyə geniş imkan yaradır. Nəticədə isə multimediya funksiyaları – video, audio, infoqrafika və digər üstünlükləri olan istifadəçi özünün sosial şəbəkə hesabında qəzetə, televiziyaya, radioya və digər imkanlara sahib olduğunu göstərir. Yəni indi sosial şəbəkə fərdin televiziyası, radiosu və qəzetidir. Orada istədiyi hadisəni, məlumatı, informasiyanı sərbəst şəkildə yayır. Düzdür, rəsmi mənbəyi olmayan bu məlumatlar, yazılar, fotolar qeyri-peşəkar şəkildə təqdim edilir. Amma kütlə bunu bilmir və onun üçün ən önəmlisi yeni nə isə əldə etməkdir. Belə olan halda peşəkar jurnalistlər bu informasiyaların içərisində qeyri-peşəkarların hiss etmədiyi xəbər mövzusunu yaxşı bilməli və onu sanballı məlumata çevirməyi bacarmalıdır. Artıq sosial şəbəkələrdə yayılan bu cür videoların sonradan televiziya proqramlarında və rəsmi informasiya agentliklərinin səhifələrində daha yaxşı işlənərək təqdim olunmasının şahidiyik.

Müasir texnologiyanın sayəsində indi həddindən artıq informasiya bolluğu və rəqabət yaranıb. Amma bunların arasından cəmiyyət və insanlar üçün faydalı olanını seçmək məsuliyyəti yenə də jurnalistlərin öhdəsinə qalır. Yəni özünü peşəkar sahədə sınayan və jurnalist hesab edən hər kəsdən informasiyanı toplamaqla yanaşı, onun əhəmiyyətli olub-olmamasını seçmək və bu cür vərdişlərə, iş prinsiplərinə yiyələnmək də tələb olunur. Əks halda "çevir tatı, vur tatı" ilə heç bir informasiya rəqabətində qalib gəlmək olmaz.

**Səməd Canbaxşiyev**
***"Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müəllimi***

# MƏNİM QƏZETLİ DÜNYAM VƏ YA "YENİ FİKİR"DƏN BAŞLAYAN QƏZETÇİLİK YOLU-İLLƏR ARXASINDAN BOYLANAN XATİRƏLƏR

Ariflər deyirlər ki, ömrünün böyük bir hissəsini xoşbəxt, şad-xürrəm yaşamaq istəyirsənsə, sevdiyin işlə məşğul ol, o, nəinki səni xoşbəxt edəcək, hətta gələcək uğurlarının da ən gözəl təminatçısı olacaq. Elə bu hikmətamiz ifadələri mövzuma bələdçi tutaraq gənc ömrümün yazıb-yaratmaq adlı kiçik tarixçəsinin səyahətinə çıxıram. Bu tarixçə məni çox-çox əvvələrə, orta məktəbin ibtidai sinfində parta arxasında əyləşib "Tumurcuq" qəzetini vərəqlədiyim, kiçik şeirlərimə, məqalələrimə tamaşa etdiyim illərə aparır. Çünki həmin illərin hər bir kəsdə olduğu kimi mənim həyatımda da şirin, əvəzolunmaz xatirələri var. Həyat səhifələrini mənə vərəqlədib nostalji hissləri yenidən gözlərimdə canlandıran, dünya içindəki kiçik dünyamın-mənim qəzetçilik dünyamın bünövrəsinin qoyulduğu xatirlərə nəzər saldıran və mənə bu mövzunu qələmə almaq üçün ilham verən, bax elə həmin illərin şirin xatirələridir...O illərdə mən orta məktəbin 3-cü sinfində oxuyurdum. Dərs zamanı müəllimimizin ayda bir-iki dəfə bizlərə sərbəst mövzuda inşa yazı materialları yazmağı tapşırması isə ən sevdiyim, mənə mənəvi zövq verən maraqlı ev işi tapşırıqlarından biri olurdu. Çox zaman yazdığım yazılara da müsbət rəy alır, sinif üzrə fərqləndirmələrə layiq görülürdüm. Zaman keçdikcə bu ülvi həvəs də mənimlə birgə addımlayaraq, o dövrlərdə məktəbli şagirdlərin şeirlərinin, rəsmlərinin, məqalələrinin yer aldığı "Tumurcuq" qəzetinin səhifələrində işıqlandırılmağa başladı. Xatırlayıram ki, ilk yazımı bu qəzetin səhifələrində görəndə necə də sevinib, xoşbəxt olmuşdum. Dəfələrlə qəzeti açıb vərəqləyib məqaləmə tamaşa edir, hətta evimizə hər gələn qonağa göstərməyi də unutmurdum. Həmin yazımı bir qış səhərində, fevral ayının qarlı-boranlı günlərinin birində qələmə alaraq qarşıdan gələn Xocalı faciəsinə həsr etmişdim. Zaman keçdikcə müəllimlərimin "Səndən yaxşı publisist, jurnalist olar" fikirlərinə böyük doğmalıqla yanaşmağa başlamışdım. Nə bilərdim ki, ötəri həvəs kimi baxdığım yazıb-pozmaq sənəti mənim gələcək peşəm, karyeram olacaq. Düzdür, atam da uzun illərdir bu sahədə, televiziyada çalışdığı üçün hələ körpəlikdən onunla birgə ailəmizin bir neçə fərdini vərəq-qələmlə, söz sənətilə təmasda görmüşəm. Amma həyatdakı peşə yolumun zamanla bu səmtə üz tutacağını heç ağlıma belə gətirməzdim...

Zaman keçdi, illər ötdü, təhsil aldığım məktəbi yaxşı qiymətlərlə bitirib tələbə adını qazandım. Topladığım nəticəm qarşımda bir neçə ixtisasın perspektivlərini açsa da, mən uşaqlıq arzuma sadiq qalaraq öz gələcək yolumu məhz Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasından saldım. Artıq gələcək peşəm də, cəmiyyət qarşısında daşıdığım status və məsuliyyət də bəlli idi mənim üçün. Mən artıq 147 illik şərəfli bir yol qət edən Azərbaycan mətbuatının gələcək gənc nümayəndələrindən biri, tələbə-jurnalist idim. Bu gün də özümə təlqin etdiyim bu müsbət fikirlərlə mənə doğma olan ali təhsil ocağının yolunu tuturam, peşəmə olan məhəbbətimi qəlbimdə daha da artırmağa çalışıram...

Nəhayət sentyabr ayının 15-i gəlib çatmışdı. Səhərin erkən saatlarından qalxıb ilk dərsimin həyəcanını yaşayır, universitetə getmək üçün hazırlaşırdım. Nə qədər özümü sakitləşdirməyə çalışsam da, həyəcanımın kənardan hiss olunduğunu yaxşı bilirdim. Amma bununla belə formamı əynimə geyinib güzgü qarşısında dayanan gələcəyin jurnalistinə tamaşa etdikcə necə xoşbəxt olduğumun bir daha fərqinə varırdım.

... Zəng çalındı, hər kəs sinifdə, fakültəmizin 409-cu otağında ilk dərsin başlamasını və müəllimlə tanış olacağı anı gözləyirdi. Nəhayət qapı açıldı, çöhrəsində xoş təbəssümlü, doğma baxışlı bir gənc müəllimə "Jurnalistikaya giriş" fənnini tədris etmək üçün sinfə daxil oldu. Uzun illərdir universitetimizdə çalışan, tələbə gəncləri gələcəyin jurnalistləri kimi yetişdirən, mətbuatımızda fəal çıxış edən müəllimlərimizdən biri olan Səadət müəllimlə ilk tanışlığımız da belə başladı. Bir məqamı məxsusi olaraq qeyd etməliyəm ki, elə ilk dərsdən tələbələrinin sevimli müəlliminə çevrilən Səadət müəllimin, kafedra müdirimiz, peşəkar jurnalist Şəhla müəllimin mənim yaradıcılıq yolumda əvəzsiz zəhmətləri var. Məhz onların məni jurnalistikaya həvəsləndirməsi, bir-birindən maraqlı keçən mühazirələri mənim yenidən qələmi əlimə alıb ilk tələbə-jurnalist statusunda məqalələrimi yazıb-pozmağa imkan yaratmışdı. Elə ilk məqaləm də birinci kursun sonlarında Səadət müəllimin təşəbbüsü ilə "Nuhçıxan" İnformasiya Agentliyində və Şəhla müəllimin redaktorluğu ilə "Yeni Fikir" qəzetində işıqlandırılmışdı. Bununla da mənim "Yeni fikir" dən başlanan qəzetçilik yolumun, öz səmimi təbirimcə desəm dünya içindəki dünyamın–mənim qəzetçilik dünyamın əsası qoyulmuşdu.

***"Yeni fikir" qəzetindən "Şərq qapısı"qəzetinədək...***

Muxtar respublikamızın 100 yaşlı qocaman mətbuat orqanı olan "Şərq qapısı" qəzeti ilə əməkdaşlıq etməyimin, tələbə-jurnalistkən muxtar respublikanın gənc jurnalistlərindən biri olmaq hüququnu qazanmağımın da maraqlı tarixçəsi var. Bundan iki il öncə, ikinci kursa yenicə başlamışdıq ki, Şəhla müəllim bir gün məni otağına çağırıb "Məcid, dünən "Şərq qapısı" qəzetinin redaktoru Mehriban Sultanova zəng etmişdi, səninlə görüşüb tanış olmaq istəyir. Əgər razı olsan, müntəzəm olaraq qəzetlə əməkdaşlıq edəcəksən, "Estafet" rubrikasında da yazıların dərc olunacaq" - dedi. Sözün düzü bir az duruxdum, öz-özümə mən hara "Şərq qapsı" qəzeti hara? - deyib ürəyimdə bu təklifə yox demişdim. Bu fikrim də əsassız deyildi, çünki yaxşı bilirdim ki, "Şərq qapısı" qəzeti muxtar diyarımızın mərkəzi mətbuat orqanı olmaqla yanaşı, həm də bir ədəbi məktəbdir, yaradıcılıq ocağıdır. Burada Naxçıvan mətbuatında öz sözünü demiş neçə-neçə savadlı, peşəkar jurnalistlər çalışır. Şəhla müəllim də üz ifadəmdən bunu hiss edib "Narahat olma, Mehriban müəllimi mən çoxdan tanıyıram, özü də bizim kafedranın müəllimidir. Yaxşı jurnalist, redaktor olduğu kimi, həm də gənclərlə işləməyi, onları öyrətməyi bacaran humanist insandır. Elə bu gündən gedib Mehriban müəllimlə görüş, inan ki, hər şey yaxşı olacaq" dedi. Mən də "yaxşı" deyib otaqdan çıxdım. Şəhla müəllimlə bu səmimi söhbətimiz biraz əvvəlki narahatlığımı demək olar ki, aradan qaldırmışdı, "Şərq qapısı" qəzetinə getməyə də razı olmuşdum.

Bu hadisədən cəmi bir həftə keçmişdi, oktyabr ayının ikinci həftəsi idi. Dərsimiz bitdikdən sonra Universitetdən çıxıb "Şərq qapısı" qəzetinin yolunu tutdum. Yol boyu həyəcanımda məni tərk etmək bilmirdi ki, bilmirdi. Elə hey nə deyəcəyimi düşünür, fikirlərimi götür qoy edir, hərdən də bəlkə geri qayıdım deyib ayaq saxlayırdım. Bu fikirlərlə yol yoldaşlığı edə-edə gəlib ünvana çatmışdım. Başımı qaldırıb bu üçmərtəbəli, üzərində "Şərq qapsı" qəzeti yazılmış binaya baxdım, son dəfə nəfəsimi dərib içəriyə daxil oldum. Çox keçmədi ki, Mehriban müəllim böyük təvəzökarlıqla məni otağına dəvət etdi, yaxından tanış olub bir qədər söhbət etdikdən sonra üzünü mənə tutub dedi: "Sənin yazılarını müntəzəm olaraq mətbuatda görürəm, günün nəbzinə uyğun aktual, əlindən gəldiyi qədər maraqlı yazılar yazırsan. İstəyirəm ki, bizim qəzetlə də əməkdaşlıq edəsən, inanıram ki, göstərilən etimadı layiqincə doğruldacağın təqdirdə, tez bir zamanda qəzetimizin gənc jurnalist müxbirlərindən biri də sən olacaqsan, onların sırasına sən də qoşulacaqsan". Mehriban müəllimin qəlbimdə inam yaradan bu sözləri məni o qədər həvəsləndirdi ki, həyəcanımı bir təhər cilovlayıb dilim söz tutar-tutmaz "Çox sağ olun, Mehriban müəllim! Çalışacağam mənə göstərdiyiniz bu etimadı doğruldum" - deyib otaqdan ayrıldım. Tez tələsik aşağı düşüb növbəti məqaləni hazırlamaq üçün evə getdim. Həmin günü gecənin yarısınadək "Gənclər Paytaxtının xoşbəxt gəncləri" adlı məqaləmi yazıb sabah üçün hazır etmişdim. Növbəti gün universitetdə dərslər bitdikdən sonra böyük həvəslə redaksiyaya gəldim. Mehriban müəllim məni qəzetin məsul katibi, əməkdar jurnalist Muxtar Məmmədovun iş otağına getməyim üçün yönləndirdi. Getdim. Otağın qapısını döyüb içəriyə daxil oldum. Muxtar müəllim də məni böyük doğmalıqla, səmimiyyətlə qarşıladı. Bir qədər söhbət etdikdən sonra məqaləmə göz gəzdirib sabah dərsdən sonra gəlib götürməyimi tapşırdı. Muxtar müəllimin adını bir neçə dəfə eşitmişdim. Bilirdim ki, uzun illərdir "Şərq qapsı" qəzetində müxbir, məsul katib vəzifəsində çalışır. Bununla yanaşı, o, həm də neçə-neçə jurnalisti öz qələminin "şinelindən" keçirərək muxtar respublika mətbuatında tanınmış qələm sahibləri kimi formalaşdırıb. Artıq bu dəfə növbə məndə idi.

Ertəsi gün Muxtar müəllimdən məqaləmin redaktə olunmuş variantını almaq üçün redaksiyaya yaxınlaşdım. Məqaləni əlimə alıb baxdığımda gördüyüm mənzərədən, sözün əsl mənasında, dəhşətə gəlmişdim. İlahi, yazımdan demək olar ki, əsər-əlamət qalmamışdı. Məqalənin hər bir cümləsində Muxtar müəllim müəyyən düzəlişlər etmiş, yazımın üslubunu da müsbət yöndə dəyişmişdi. Bir qədər bu səhnə qarşısında donub qalsam da, fikrimi bir yerə cəm etdim və Muxtar müəllimin izahatlarına diqqətlə qulaq asmağa başladım. Yaxşı başa düşürdüm ki, uğura gedən yol heç də asan qət olunmur. Bilirdim ki, bunların hər biri mənim gələcək inkişafım üçün zəmin yaradır. Mənim vəzifəm isə bu məşəqqətli, şərəfli yolda səbr və inam göstərmək, peşəmi bütün incəlikləri ilə öyrənmək idi.

Bir müddət qəzetlə tələbə-jurnalist kimi əməkdaşlıq etdim, peşəkar kollektivin arasında jurnalistikanın bir çox incəliklərini öyrəndim. Müxbir vəzifəsində işə başladıqda artıq mənə doğma olan redaksiyamın qəzetçilik prinsiplərini mənimsəmiş, həm də peşəmin məsuliyyətini dərinliyi ilə dərk etmişdim. Bu sahədə fəaliyyət göstərən bütün həmkarlarım etiraf edər ki, qəzetçilik necə çətin, məsuliyyətli, yüksək erudisya, bacarıq tələb edən bir işdir. Elə gün olub ki, əməkdaşlarımızla birgə yorulmadan, usanmadan günün ən gec vaxtına qədər qəzet üzərində işləmiş, çətin də olsa bundan mənəvi zövq almışıq. Qəzeti tam hazır bir şəkildə, necə deyərlər, problemsiz şəkildə nəşrə göndərdikdə, ertəsi gün gərgin əməyin şirin bəhrəsini masalarımızın üzərində vərəqlədikdə bütün yorğunluğumuz da çıxır canımızdan.

***Son bir illik qəzetçilik fəaliyyətinə uğurlu hesabat***

Nə az, nə çox düz bir ildən də artıq bir zaman ötür "Şərq qapısı" qəzetindəki fəaliyyətimdən. Bu zaman kəsiyində muxtar respublikamızın həm bir tələbə-gənci, həm də gənc jurnalisti kimi başda dövlətimizin, müəllimlərimin və mənə doğma olan redaksiyamın kollektivinin etimadını doğrultmağa çalışmışam. İstər təhsil aldığım ali təhsil ocağında, istərsə də müxbir vəzifəsində fəaliyyət göstərdiyim "Şərq qapısı" qəzetində hər bir işimə cidd-cəhdlə, böyük maraqla, şövqlə yanaşmışam. Nə hikmətdir bilmirəm, amma əlimə qələm alıb yazdığım anda bütün problemlərimi unuduram. Bu yaradıcılıq həvəsi, yazıb yaratmaq coşğusu isə günbə-gün daha da artır. Gənc jurnalist kimi ötən bu zaman müddətində bir neçə uğurlar da əldə etmişəm. İstər təhsil aldığım ali təhsil ocağında, istərsə də fəaliyyət göstərdiyim muxtar respublika mətbuatında dəfələrlə əməyim yüksək qiymətləndirilib, müsabiqələrdə, əlamətdar günlərdə təltiflərə layiq görülmüşəm. Mənə ən doğma olan uğuru isə qəzetimizin 100 illik yubiley tədbirində əziz kollektivimin, ən başda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirak etdiyi tədbirdə çıxış etməklə qazandım. Redaktorumuz Mehriban müəllim mənə tədbirdə çıxış edəcəyim haqqında məlumat verdikdə həyəcandan sanki boğazım qəhərlənmişdi. Tədbirə çox az zaman–bir neçə gün qala mətnimi böyük şövqlə yazıb hazır etmişdim, hər gün evdə güzgü qarşısında dayanıb onu təkrar-təkrar oxuyub böyük gün üçün hazırlaşırdım. Nəhayət, həmin gün gəlib çatmışdı. Tədbir başladı, proqram üzrə növbə mənə gəlib çatanda bütün var gücümlə özümü ələ alıb zirək addımlarla kürsüyə yaxınlaşdım. Nəfəsimi dərib çıxışa başladım. Həyəcanım o qədər çox idi ki, necə çıxış etdiyim haqqında ən adi fikrim belə yox idi. Tək bildiyim və çıxışım haqqında məndə təəssürat yaradan şey tədbirdən sonra peşə yoldaşlarımın, həmkarlarımın, tələbə yoldaşlarımın səsləndirdiyi müsbət rəylər idi. Mən də onların fikirlərinə söykənib yaxşı çıxış etdiyim qənaətinə gəlib sevinmişdim, qürrələnmişdim...

Əziz oxucum, deyirlər həyat dünya qapısından içəriyə atılan addımla başlayan bir yolçuluqdu, zamansa lövbərsiz gəmi kimidir, daima irəliləyir. Nə zaman mənzil başına çatacağını isə əfsuslar olsun ki, heç birimiz bilmirik. Bu zamanın əbədi yolçuları öz peşəsinə sədaqətlə yanaşan, elmin və helmin sirlərini bütün incəlikləri ilə dərk edən, hər bir addımında Vətənə, xalqa dərin səadət bəsləyən kəslərdir. İnanıram ki, mənim "Yeni fikir"dən başlayan, "Şərq qapısı" qəzet ilə davam edən şərəfli qəzetçilik yolum da bütün varlığı ilə yalnız və yalnız bu amala xidmət edəcək.

**Məcid Əkbərov**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# YARIMÇIQ QALAN ÖMÜR

İkinci Dünya müharibəsi Azərbaycan xalqına da ağır zərbələr vurmuşdur. Bu müharibədə iştirak edən adi sıravi əsgərdən tutmuş generaladək bütün rütbələrə malik olan həmyerlilərimiz igidliklə döyüşmüş, Sovet İttifaqı Qəhrəmanı səviyyəsinədək yüksələnlər olmuşdur. Müharibənin acı nəticələri, demək olar ki, hər bir azərbaycanlının ailəsində özünü göstərmişdir. Bu sarsıdıcı yaralar hələ unudulmamış, onların sızıltıları qəlblərdən silinməmişdir. Milyonlarla insana fəlakətlər gətirən həmin müharibənin qurbanlarının heç biri unudulmamalı, onlar haqqında müasir oxuculara məlumatlar verilməlidir. Məqaləmizdə belə qurbanlardan biri-taleyi üzünə gülməyən Əqil Qazıyev haqqında bəhs edəcəyik.

Əqil Qazıyev 1918-ci ildə Azərbaycanın qədim mədəniyyət mərkəzi olan İrəvan şəhərində görkəmli maarif xadimi, Azərbaycan SSR əməkdar müəllimi Həsən bəy Qazıyevin ailəsində dünyaya göz açmışdır. O, üç yaşında ikən ailəsi erməni daşnaklarının İrəvanda müsəlmanlara qarşı törətdiyi vəhşiliklər nəticəsində Naxçıvan şəhərinə pənah gətirmişdir.

1925-1935-ci illərdə Əqil ibtidai və orta təhsilini Naxçıvanda almışdır. Qohumlarının dediyinə görə, həkim imiş. Yaxınlarına yazdığı məktublarda ünvan göstərərkən özünün də qeydlərindən həkim olduğu aydınlaşır: "Мой адрес: 2527, полевая почта, мед.сан.взвод 13. Врачу Казиеву А.Г."

Əlimizdə Ə.Qazıyevin həkimliyini təsdiq edən sənəd olmasa da, xalaoğlusu, görkəmli alim və ictimai xadim Əziz Əliyevin öz tərcümeyi-halında qohumları haqqında məlumat verərkən yazdığı bir cümlə sübut edir ki, o, həqiqətən həkim olmuşdur: "Həsən Qazıyevin... övladları Cavad maliyyəçi, Şamil rəssam, Əqil isə həkim idi". Ə.Əliyevin onun həkim olmasını yazması təsadüfi deyildi. Çünki o, Ə.Qazıyevin 1935-1938-ci illərdə Azərbaycan Tibb İnstitutunda təhsil aldığı illər həmin institutun direktoru idi və xalaoğlusu Əqili yaxşı tanıyırdı. Hətta qohumlarının dediyinə görə Əqilin tibb institutuna qəbul olunmasında Ə.Əliyevin məsləhəti və köməyi olmuşdur.

Ə.Qazıyev institutda oxuduğu illərdə direktor Ə.Əliyevin qayğısı, təşəbbüskarlığı və tələbkarlığı sayəsində burada tələbələrin yüksək təhsil alması üçün əlverişli şərait yaradılmışdı. Hələ Ə.Əliyevin 1932-1934-cü illərdə institutda ilk direktorluğu dövründə əməkdaşlar tərəfindən latın qrafikası ilə 45 adda dərslik və dərs vəsaiti tərtib edilərək tələbələrin ixtiyarına verilmişdi. İnstitutda müxtəlif kafedralar yaradılmış, professor-müəllim heyəti yüksək ixtisaslı kadrlarla möhkəmləndirilmiş, nəzəri və təcrübi dərslərin keyfiyyəti yüksəldilmiş, ehtiyacı olan tələbələr yataqxana ilə təmin edilmiş, ayrı-ayrı fənləri daha dərindən öyrənmək üçün yaradılan kitabxananın fondu yerli və xarici müəlliflərin tibbə aid əsərləri ilə zənginləşdirilmişdir.

Ə.Qazıyev belə bir şəraitdə başqa tələbə yoldaşları kimi yüksək tibbi təhsil almağa nail olmuşdur.

1939-cu ildə institutu bitirən Ə.Qazıyev, necə deyərlər, nəfəs almağa macal tapmamış hərbi xidmətə çağırılır. 1941-ci ildə Böyük Vətən müharibəsi adlandırılan rus-alman müharibəsi başlayır və Ə.Qazıyev ön cəbhəyə göndərilir.

Ə.Qazıyevin həkimlik fəaliyyəti, dünyagörüşü, qürbətdə yaşayan vətən oğlu kimi keçirdiyi hisslər, ailəsinə münasibəti, xarakterinin



bəzi özünəməxsusluqları və nəhayət, nakam taleyi haqqında qohumlarından aldığımız məlumatlara və özünün hərbi xidmətdən, həmçinin müharibə illərində cəbhədən bacı və qardaşına yazdığı əlimizə gəlib çatan üç məktubuna əsaslanaraq müəyyən fikirlər söyləmək mümkündür.

Ə.Qazıyev 3 oktyabr 1940-cı ildə bacısı Şölə xanıma göndərdiyi məktubunda "ilimin yarısını başa vurdum. Gözləyirəm ikinci ilimin çıxmağını" sözlərindən aydın olur ki, o, 1940-cı ilin may ayında hərbi xidmətə gedib.

"Unudulmaz və istəkli bacım" müraciəti ilə başlayan və çox təsirli bir dillə yazılan bu məktubdan onun əsgərlik həyatı haqqında müəyyən məlumat almaqla yanaşı, gənc azərbaycanlı əsgərin duyğu və düşüncələri ilə də tanış oluruq: "Bacıcan, indi işimizin olduqcan pis vədəsidir. Belə ki, səhər saat 5-dən durub axşam saat 11-də yatırıq. Bu yaxınlarda 8 günlük manevraya gedirik. Buraların havaları olduqcan soyuqdur. Çöldə yatmaq olduqcan zülümdür".

Mülki həyatda ixtisası üzrə çalışmağa fürsət tapmayan Ə.Qazıyev əsgərlikdə həkimliyini ləyaqətlə yerinə yetirməklə kifayətlənməyərək uzaq bir məsafədən bacısına da tibbi yardım göstərməyə cəhd edir: "Yazırsan ki, yazdığım dərman xeyir edir. O zaman həmin dərmanın reseptini oradakı həkimlərə qol çəkdirib ala bilərsiniz. Əgər ki, mümkün deyil, o zaman bu məktubumla sənə resept də yollayıram".

Ə.Qazıyev məktubunda "qürbətdə yaşamağın nə qədər kədərli olmasını" özünəməxsus tərzdə belə izah edir: "Qürbətdə yaşamaqla ana yurdumda yaşamağın böyük fərqi vardır. Belə ki, mən gözümü açandan qürbətdə oldum, daima doğma atama və bacı-qardaşıma baxmayaraq qocalıb həyatımın sonuna çatıram". Bu sözlərin ardınca isə yazdığı "Ölüm dərdi" adlı üç bəndlik bir şeirindəki

Kimsə dözəməz qürbətdəki
gözlərimin yaşlarına,
Dəyə bir güllə məzar daşlarıma,
Çarə yox gözlərimin yaşlarına,
Deyirəm sus, daha xoşdur qəmli məzar,
Qoy yesin quşlar, ilanlar ətimi.

kimi misralar bir tərəfdən Əqilin romantik təbiətindən xəbər verirsə, digər tərəfdən onun qürbətdə keçirdiyi hiss və həyəcanları, yaşayacağı ömür haqqında ümidsiz düşüncələri və "ölüm dərdi"ni ifadə edir. Bu əhval-ruhiyyə onun müharibə illərində yazdığı məktublarında da özünü göstərir. Məsələn, yenə bacısı Şölə xanıma ünvanladığı və tarixini göstərmədiyi bir məktubunda yazılır: "12 oktyabrda budumdan yaralandım. Çölün düzündə qalaraq səni və ümumiyyəti yad edərək aşağıdakı qəmli şeirimi söyləyərək gözlərimdən uşaq kimi damcı damcılayırdı:

Yaralandım, düşdüm qürbət ellərə,
Yox dilim, söyləyəm çarə ellərə.
Gözüm baxdıqca ətrafım yaddır,
Qılçam yoxdur, yaram bərbaddır.

Bağladım yaramı ağlayaraq,
Ürəyimdə əziz bacım sızlayaraq.
Nə edim, yox bacım yaramı bağlaya,
Nə edim, yox qardaşım çöldən götürə.

Atam qocadır, ölsəm əgər çöllərdə,
Mənim ölümümü xəbər verin ellərdə.
Nə edəcəydi atam, bacım, qardaşım,
Kim tapacaqdı qəbrimi?

Şübhəsiz ki, ciddi qüsurlarına və poetik ruhdan məhrum olduğuna görə bu bəndləri şeir adlandırmaq çətindir. Lakin hər halda həmin sətirlər gənc bir əsgərin qürbətdə keçirdiyi duyğu və düşüncələrini səmimiyyətlə ifadə etməsi baxımından dəyərlidir.

Ə.Qazıyevin cəbhə həyatı və ümumiyyətlə, ona məxsus olan bir çox xüsusiyyətlər haqqında 7 iyul 1942-ci ildə qardaşı Cavad Qazıyevə yazdığı məktubundan daha ətraflı məlumat alırıq: "Mən indi olduqcan yaxşı dolanıram. Çünki özüm özümün ağasıyam. Deyim ki, bronо-tankovıy briqadanı qvardeyis edirlər. Əgər belənçi olmuş olsa, o zaman mənə birə yaxın qat, yəni 150 faiz maaş verəcəklər (o zaman ayda 1500 alacam). Bunun hamısını yollayacam bizə. Lazım olsa, yaz sənə də bir qədər pul yollayım".

Bu sətirləri oxuduqca Ə.Qazıyevin ön cəbhədə maddi baxımdan heç bir çətinliyi olmasa da, ailəsindən nigaran qalmasını hiss etməmək mümkün deyil. Əslində onun ailəsinə diqqət və qayğısı məktubun əsas məzmununu təşkil edir: "Qardaşım, sənin haqqında olduqcan yuxumu hər gecə qarışdırıram. Bir mən ölüm, doğrusunu yaz görüm korluq çəkmirsən ki, yaxud xəstə deyilsən ki, yaxud işin nə kimi haldadır?"

"Qocaya (atası Həsən bəyi nəzərdə tutur – F.X.) köməklik edin. Çünki qazanmaq vaxtı keçdi. Əgər ölməsəm, sağlıqla vətənə qayıdaram, o zaman ona rahatlıq verməklər olar".

"Uşaqların tədris ili necə keçdi?... Yaz, ağamın (atasını nəzərdə tutur – F.X.) meyvəcatı bitib? Ağaclar barlıdırmı?"

Məktubda Ə.Qazıyevin müharibə illərində hansı cəbhədə olmasına dair də bəzi məlumatlar vardır: "Mən indi Leninqrad oblastı (indiki Sank-Peterburq – F.X.) ətrafındayam. Deyim ki, çox yerləri gəzdim... Nə isə, sağ qalmış olaramsa, o zaman sizə 1001 gecə nağılı kimi nağıl edərəm".

Yuxarıda qeyd etdiyimiz kimi Ə.Qazıyev öz taleyindən çox nigaran idi. Sanki ürəyinə dammışdı ki, müharibədən bir daha geri – Vətənə qayıda bilməyəcəkdir. Elə qardaşına yazdığı məktubun ən təsirli yeri də onun bu həyəcanı və təlaşını əks etdirən hissəsidir: "Mən subay adamam, ölsəm də eybi yoxdur. Ancaq səndən bir xahişim budur ki, mənim əksimi böyüdərək ətrafına qara çəkibən onu başımın üstünə vurasan. Mənə nənəmin qəbri yanında qəbr tikdiribən baş daşımın üstünə şəklimi çəkdirəsən və ona subaylığım haqqında yaxşı bir şeir yazdırıb asasan, oxuyan yeniyetmə cavanlara təsir etsin... Hələlik sayıqlamağım haqqında bu qədər".

Ə.Qazıyev yazdıqlarını "sayıqlama" adlandırsa da, onların hamısı gerçəkləşdi. Ailəsinə göndərilən məlumata görə Ə.Qazıyev əsgərlər qarşısında hansısa əmri oxuyarkən yaxınlığına bomba düşür və bombanın bir qəlpəsi gicgahına dəyir və həlak olur. Ə.Qazıyevin hansı ildə həlak olması dəqiq bəlli deyil. Bu barədə İkinci Dünya müharibəsində naxçıvanlıların itkin düşməsi və həlak olmasına aid Naxçıvan MSSR Hərbi Komissarlığının siyahısında da məlumat yoxdur.

Naxçıvan şəhər qəbiristanlığında Ə.Qazıyevin rəmzi məzarı vardır. Lakin keçən əsrin 70-ci illərində Ə.Qazıyevin qardaşı qızı Möhtərəm xanımın axtarışları nəticəsində onun əsl qəbrinin Kaliningradda "Qardaşlıq qəbiristanlığı"nda olması haqqında məlumat əldə edilmişdir. Bu məlumatın doğru olub-olmaması yoxlanılmamışdır.

Sədaqətli, vətənpərvər, nakam eloğlumuz Əqil Qazıyevin qısa ömür yolu ibrətamizdir və müasir gənclər üçün bir örnək ola bilər.

**Fərman Xəlilov**
***AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun baş direktoru, filologiya elmləri doktoru***

# TOFİQ BAKIXANOV – 90

Bu günlərdə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə Xalq artisti, "Şöhrət" və "Şərəf" ordenli bəstəkar Tofiq Bakıxanovun 90 illik yubileyi qeyd olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun sərəncamları ilə T.Bakıxanovun 75, 80 və 85 illik yubileyləri də Muxtar Respublikada təntənəli şəkildə qeyd olunmuşdur.

T.Bakıxanov özünəməxsus yaradıcılıq üslubu ilə seçilən bəstəkar, istedadlı skripkaçı, gözəl pedaqoq, ictimai xadimdir. Zəngin yaradıcılığı ilə milli musiqi mədəniyyətimizin inkişafında Tofiq müəllimin xidmətləri əvəzsizdir.

T.Bakıxanovun yaradıcılığı çox genişdir. Bəstəkar yaradıcılığı boyu, demək olar ki, bütün janrlara (operadan başqa) müraciət etmişdir. O, respublikamızda və bir çox dünya ölkələrinin konsert salonlarında səslənən simfoniyalar, simfonik muğamlar, simfonik poemalar, dəfələrlə tamaşaya qoyulan musiqili komediyalar, baletlər, çox sayda kamera-instrumental və digər irihəcmli əsərlərin, həmçinin mahnı və romansların müəllifidir.

T.Bakıxanovun bəstəkarlıq fəaliyyətinin bütün sahələri xalq musiqi intonasiyaları üzərində köklənmiş və müəllifin fərdi üslubu ilə folklor elementlərinin üzvi vəhdətindən yaranmışdır.

T.Bakıxanovun yaradıcılıq üslubu və zəngin dünyagörüşü onun müəllimi, dahi bəstəkar Qara Qarayevin təsiri altında formalaşmışdır. Tofiq müəllim haqqında görkəmli bəstəkarımız Tofiq Quliyev deyirdi: "Tofiq Bakıxanov ona görə xoşbəxt sənətkardır ki, elə bir ailədə doğulub, böyük bəstəkar və gözəl insan Qara Qarayevin sinfində təhsil alıb. Belə bir şəxsin Azərbaycan musiqisində mühüm rol oynaması təbiidir."

T.Bakıxanov çox vətənpərvər, humanist bir insandır. O, daim öz milləti, xalqı, Vətəni və dövləti üçün çalışır. Bəstəkarın yaradıcılığının leytmotivini vətənpərvərlik, azərbaycançılıq ideyaları təşkil edir.

Tofiq müəllimlə yalnız bir dəfə belə, ünsiyyətdə olan insan artıq onun nə qədər alicənab, əsl ziyalı, yüksək intellekt sahibi olduğunu anlayır. Təsadüfi deyil ki, musiqi ictimaiyyəti və digər peşə sahibləri Tofiq müəllimi "canlı ensiklopediya" adlandırırlar.

T.Bakıxanov ömrünün bu çağında da yaradıcılıqla, elmi fəaliyyətlə məşğuldur. Tofiq müəllim, həmçinin Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Kamera ansamblı kafedrasının professoru vəzifəsində çalışır və kamera ansamblı ixtisası üzrə savadlı kadrlar hazırlayır.

T.Bakıxanovun Naxçıvan Dövlət Universitetinə, ümumiyyətlə, Naxçıvana olan səmimi münasibətini xüsusi qeyd etmək lazımdır. Tofiq müəllimlə Universitetin rəhbərliyi və bütün kollektivi, xüsusilə də İncəsənət fakültəsi arasında geniş əlaqələr mövcuddur. Belə ki, Musiqinin tarixi və nəzəriyyəsi kafedrası əməkdaşları tərəfindən T.Bakıxano-



vun yaradıcılıq irsi tədqiq edilərək onun haqqında monoqrafiya, dərs vəsaitləri, elmi-metodik işlər, çox sayda elmi və publisistik məqalələr yazılır, televiziya və radio verilişləri hazırlanır. Naxçıvana hər gəlişində Tofiq müəllim musiqinin müxtəlif problemlərinə həsr olunmuş yeni kitablarını, yeni not nəşrlərini Universitetin kitabxanasına, kafedramıza hədiyyə edir. Bununla yanaşı, Tofiq müəllim heç vaxt bizdən öz dəyərli məsləhətlərini və tövsiyələrini də əsirgəmir.

Xalq artisti T.Bakıxanova Naxçıvan Dövlət Universiteti Elmi şurasının qərarına əsasən Fəxri doktor diplomunun təqdim olunması isə sənətkarın özü və Universitet kollektivi tərəfindən böyük rəğbətlə qarşılandı. Bəstəkarın özünün dediyi kimi, bir neçə xarici ölkə universitetlərinin Fəxri doktoru olmağına baxmayaraq, Naxçıvan Dövlət Universitetinin Fəxri doktoru diplomuna layiq görülmək onun üçün böyük şərəfdir.

Böyük yaradıcılıq potensialına malik, nikbin, səmimi, həyatsevər, kamillik dövrünün zirvəsini yaşayan 90 yaşlı ustad sənətkarımız T.Bakıxanov yüksək peşəkarlıq prinsiplərinə sadiq qalaraq bu gün də milli musiqi mədəniyyətimizin inkişafı yolunda xidmət göstərir.

Böyük sənətkarımızı təbrik edir, ona möhkəm can saglığı, yaradıcılıq uğurları arzu edirik! deyirdi: "Tofiq Bakıxanov ona görə xoşbəxt sənətkardır ki, elə bir ailədə doğulub, böyük bəstəkar və gözəl insan Qara Qarayevin sinfində təhsil alıb. Belə bir şəxsin Azərbaycan musiqisində mühüm rol oynaması təbiidir. T. Bakıxanov musiqinin bütün janrlarında fəal yaradıcılıq göstərən bir sənətkardır. Onun simfonik, kamera, səhnə musiqisindən ibarət əsərləri dəyərli sənət nümunələridir"

**İnara Məhərrəmova**
***Musiqinin tarixi və nəzəriyyəsi kafedrasının müdiri, sənətşünaslıq elmləri doktoru, dosent, Azərbaycan Respublikasının Əməkdar müəllimi***

# MİLLİ DƏYƏRLƏRİMİZ MİLLİ RUHLU ŞAİRİN QƏLƏMİNDƏ

Bütün xalqlar, bütün millətlər haqlı olaraq milli dəyərləri ilə həm də min illərdir qazandıqları, qazanmağa davam etdikləri, qoruyub saxlamağı özünə borc bildikləri, daim yaşatdıqları milli mənəvi dəyərləri ilə fəxr edirlər. Milli ideologiya, mənəvi yaddaş, milli tarix, milli dil, ənənəvi dini dəyərlər, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, ailə sistemi, dahi şəxsiyyətlərimiz, milli musiqimiz və s. kimi məfhumlar milli dəyərlərin əsasını təşkil edir.

Min il bundan əvvəl də, bu gün də ayrı-ayrı millətlərin yaratdığı milli dəyərlərin xarakteri və mahiyyəti demək olar ki, eynidir. Bütün xalqlar, bütün bəşəriyyət eyni bir məqsədə yüksək mənəviyyata çatmaq üçün çalışır. Hər kəsin eyni cür qəbul etdiyi müsbət keyfiyyətləri tərifləyir, mənfi insani xüsusiyyətləri pisləyirlər. Ancaq maraqlı burasındadır ki, hər bir xalq özünəməxsusluqlarını tamamilə fərqli adət-ənənələrlə, fərqli əsərlərlə, fərqli metodlarla, fərqli dildə nümayiş etdirirlər.

Azərbaycan xalqı da millətin mənəviyyatının yüksəldilməsi üçün kifayət qədər zəngin milli dəyərlərə sahibdir.

Vətən, ata-ana, el-oba, yurd yeri, doğma ocaq sevgisi, namus qeyrət təəssübü, vətənpərvərlik, halal-haram, böyük-kiçik, ədəb-ərkan, inam və inancalarımız, milli adət ənənələrimiz ümumilikdə Azərbaycan milli mentalitetinin əsasını təşkil edir. Milli mentalitetimizin əsasını təşkil edən bu dəyərlər nəsildən nəsilə ötürülür, xalqın adət-ənənələrində, incəsənət əsərlərində, folklorun, poeziyanın, heykəltaraşlığın, musiqinin daxili dünyasında qorunub saxlanılır, təbliğ olunur.

Xalqın həyatını, məişətini, yaşayışını onun bədii yaradıcılığından ayrı təsəvvür etmək olmaz. İnsan dünyaya gəldiyi gündən dünyadan köçənədək, layladan tutmuş ağıyadək xalq şeiri ilə bağlı olur. Əgər bu şeirlər milli ruhda olarsa böyüyən gənc nəslin qəlbinə bir dəyər kimi hopur və onun mənəviyyatının yüksəldilməsinə təsir və xidmət edir.

Şeirləri başdan-başa milli ruhda yazılan, mənəvi dəyərlərə əsaslanan Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri də xalq şairi Məmməd Arazdır.

Məmməd Araz yaradıcılığında folklorun obraz və motivlərinin təsviri, soykökünə bağlılıq mühüm bir yerə sahibdir. "El üçün ağlayan", "Məndən ötdü qardaşıma dəydi", "Ayağa dur, Azərbaycan", "Ata millət, ana millət, ağlama", "Babək qılıncı", "Ulu şahım, qılıncına söykənim", "Ərimgəldi qayası", "Yeddi bulaq əfsanəsi" və s. kimi şeirləri "Üç oğul anası", "Qayalara yazılan səs", "Atamın kitabı" poemaları milli ruha köklənmiş, folklor motivləri əsasında yazılmış milli keyfiyyətin dərki və təbliği rolunda çıxış edir.

Məmməd Araz yaradıcılığında xalq müdirikliyinin bədii ifadəsi olan atalar sözləri və zərb məsəllərə tez-tez rast gəlirik. Şair atalar sözü və məsəllərdən istifadə edərkən bəzən nümunənin öz məzmununu saxlayır, bəzənsə mənası yerində qalmaqla məzmunu dəyişərək şeir diliylə oxucuya təqdim edir: Məsələn, xalqda "Yaxşılıq eylə, minnət qoyma", "Hər başıpapaqlıya kişi deməzlər" nümunələri şairin şeirlərində belə ifadə olunur:

Fəqət yaxşılığı başa çatana
Kişi deməmişdir babalarımız.

Hətta bəzən şairin öz misraları zərb məsəl kimi səslənir. "Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı" qoşa misrası bunun ən bariz nümunəsidir.

Məmməd Araz milli adət-ənənələrimizə də incəliklə yanaşır. "Kəhər at" şeirində "Yol böyüyün, su kiçiyindir" ifadəsinə münasibətini bildirir:

Mən yola çıxsam da dörd qanadlı tək,
Babalardan qalma bir adət idi.
Özündən böyükdən qabağa keçmək
Ədəb qaydasında qəbahət idi.

Şair xalqının "Pis yuxunu suya danışarlar" inancının da təsvirini verərək deyir:

Nənəm deyib, babam deyib bu misalı,
Axar suya yuxunu de sübh çağı.

Məmməd Araz öz əsərlərində milli adət-ənənələrlə yanaşı, Azərbaycan milli geyimlərinin də təsvirini vermişdir. "Göy arxalıq" şeirində şair xalqının dünənini bəyənməyənlərə deyir ki, mən dünənki "çənbər çarıqdan, göy arxalıqdan utanmıram", "nənnimizi, nənəmizi, nəmimizi" danmıram.

Sarı büzmə, yaşıl kürdü
göy nimtənə
geyən nənəm,
Bir nəfəsə neçə dastan
varaqlardı,
deyəmmərəm.

Şair düşüncələrimizə millətimizin keçmişi ilə, sinəsi nağılla, dastanla dolu olan nənə-babalarımızla, milli geyimimizlə, adət-ənənələrimizlə fəxr etməyin nümunəsini göstərməklə, həm də oxucuların .xalqın qəlbinə bu dəyərlərin toxumunu səpir.

Məmməd Araz xalqımızın əsrlərlə qoruduğu, saxladığı milli dəyərlərə nə qədər bağlıdırsa, bir o qədər də novatordur, yenilik tərəfdarıdır. Daim dünənlə sabahın vəhdətini axtarır, onu bu gündə görür:

Könül, bu gün nağıl danış,
Dünənimə qaytar məni.
Ələnməmiş, üyünməmiş
Öz mənimə qaytar məni.

Şair bu günü də, gələcəyi də yad təsirlərdən qorumaq üçün nənələrimizin nağılına qayıtmaq istəyir. Keçmişin ən yaxşı mütərəqqi cəhətlərini bu günə gətirmək, milli dəyərlərimizin əhəmiyyətini dəyərləndirmək, mənimsəmək və onlardan müasir dövrdə də istifadə etməyə səsləyir.



Məmməd Arazın yaradıcıllığının mühüm bir hissəsini təşkil edən Atamın kitabı poeması isə başdan sona mill, mənəvi dəyərlərə əsaslanaraq yazılmışdır. Şairin atasına ithaf etdiyi poemasında 100 yaşına qədərm qoymuş ağsaqqal qocanın, zəhmətkeş, torpağa bağlı qocanın obrazını yaratmışdır. Heç təsadüfü deyil ki, Vaqif Yusifli Məmməd Arazın "Atamın kitabı" poeması haqqında yazırdı: "Atamın kitabı" bütövlükdə Azərbaycan torpağı, təbiəti, xalq mənəviyyatı haqqında bitkin lirik fəlsəfi monoloqu xatırladır."

Əsərdə kənddə yaşayan zəhmətkeş qocanın həyatının müəyyən məqamları, doğma torpağa, yurda, ocağa bağlılıq, insanla torpaq arasındakı təmas mükəmməl şəkildə qələmə alınmışdır. Poemada şair qədim əkinçilik mədəniyyəti haqqında məlumat verir. Əsərin qəhrəmanı qoca ata bu torpağın həm əkinçisidir, həm çobanı, həmdə müəllimi. Onun əlləri əkin vaxtı xışın dəstəyindən yapışır, biçin vaxtı dəryaz götürür. Bu əllər müəllim olub halal zəhmətlə qazancın dəyərini öyrədir və bu əllər yeri gəlir əlifba olur.

Bu əllər mənim ilk əlifbam oldu,
Torpağı çölbəçöl,
Dərəbədərə oxutdu mənə
Çayları bənd-bənd,
Bərə -bərə oxutdu mənə

Əsərdə ata hər gün oğlunun dərsləri ilə maraqlanır, öyrəndiyi hərfləri həyatla əlaqələndirir. Məktəblə həyatın bağını oğluna başa salmağa çalışır.

-Bu gün nə oxudunuz?..
-"D" hərfi, ata!
-Demək, dəryazı döy-deyiblər, dədə...
Mənim çöl əlifbam macqal dilində
"O" keçdim - deməli orağı yağla,
"C" keçdim - deməli, cütü qulaqla...
Nə yaxşı! Əlifba "A"-dan başlanır.
Atadan başlanır,
Anadan başlanır...

Ata əsərdə oğlunun həyat müəlliminə çevrilir, həyatın əsas dərslərini "macqal" dilində danışır, qədim əkinçilik sənətinin öyrənilməsini tövsiyyə edir. Şair həmçinin"Atamın kitabı" poemasında folklor nümunələrimizdən olan xalq yaradıcılığının ən qədim janrı sayılan əkinçiliklə bağlı oxunan holavarlardan da istifadə etmişdir.

Yeri-yeri ,xışım yeri,
Yenir dağdan qışım, yeri.
Yazmaqdan hey yorulmadım
Kağızımdır bu şum yeri.

Ümumiyyətlə, Məmməd Araz Azərbaycanın vətəndaş şairi olmaqla yanaşı xalqın duyğu və düşüncələrini həm vətənpərvərlik hisssləriylə kökləyir, həm də hər bir Azərbaycanlının qəlbinə, ruhuna, beyninə, duyğu və düşüncələrinə milli dəyərlər toxumu səpir. Bu da gələcəyimiz olan gənc nəslin keçmişinə söykənən dəyərlər sistemində formalaşmasına kömək edir.

Bununla da Məmməd Arazın özü və sözü bütövlükdə xalqımızın milli dəyərinə çevrilmə haqqı qazanır. Biz isə məhz bu dəyərlərə sevgi göstərməklə, milli-mənəvi dəyərlərə yiyələnərək xalqımızın qloballaşan dünyada öz əbədi yaşarlılığını qoruyub saxlamasına və inkişaf etdirməsinə öz töhfəmizi verə bilərik.

**Rübabə Məmmədova**
***İngilis dili və metodika kafedrasının baş müəllimi***

# AZƏRBAYCANDA MUSİQİ SƏNƏTİNİN İNKİŞAF TARİXİ - AŞIQ MUSİQİSİ

Məlumdur ki, musiqi həyatımızın ayrılmaz bir hissəsədir. Musiqiyə bağlılıq, musiqidən zövq almaq insan ömürünün ilk anlarından başlayır. Kədərləndiyimiz an musiqiyə qulaq asırıq, sevincli anlarımızda musiqidən zövq alırıq. Bir sözlə musiqi beynimizi, ruhumuzu rahatladır, həyatımıza gözəllik gətirir. Musiqi insan orqanizminə xüsusilə də sinir sisteminə müsbət təsir edir.

Eləcə də aşıq musiqisi insanın zövqünü oxşayır, ruhunu cavanlaşdırır. Aşıq musiqisi qəlbin aynasıdır. Duyğu və narahatçılığı, hüzünü tənzimləməsində aşıq musiqisinin çox böyük rolu vardır. Hər zaman ən yaxşı seçim vasitələrindən biri aşıq musiqisini dinləməkdir. Aydındır ki, aşıq musiqisi insanın xarakter və əhval ruhiyyəsində əks olunur. Aşıq musiqisinin insanın intelektual və müalicəvi xüsusiyyətlıəri haqqında bir çox məqalələr, yazılar yazılmışdır. Aşıq musiqisi şəxsiyyətin formalaşması, onda xoş əhval-ruhiyyənin yaranması və qoruyub saxlamaq gücünə malikdir.

Azərbaycanda aşıq sənəti çox dərin kökləri olan, zəngin tarixə



malikdir. O, qədim dövrlərdən başlayaraq saz-söz sənətinin məntiqi məhsuludur.

Aşıq sənətində musiqi, poeziya, rəqs pantomim, teatr sənəti elementləri bir üzv olaraq birləşmişdir.

Aşıq sənəti üç hissəyə bölünür:

1.Ustad aşıqlar- öz sənətinə mükəmməl yiyələnir, istedadlı, kamil müğənni, aktyor və hətta rəqs sənətkarlığının müdrik ustalığını özündə birləşdirir.

2.İfaçı aşıqlar-qədim ənənələri yaşadan və onu xalq arasında tərənnüm edən sənətkardırlar. İfacı aşıqlar Azərbaycan xalqının folklorunun qorunmasında mühüm rol oynayırlar.

3. Şair aşıqlar -bunlar el aşıqlarıdır. Xalq şeirinin inkişafında böyük xidmət göstərən el aşıqları həm yazıb, həm də oxuyan aşıq sənətini xalqa sevdirən həvəskar aşıqlardır.

Aşıqların əsas musiqi aləti sazdır, üç qrup simi-kvarta-kvinta nisbətində köklənir və başqa interval nisbətləri də var.

Aşıq yaradıcılığının bir neçə növləri vardır. Bunlardan bayatı, gəraylı, qoşma, təcnis və başqa poetik formaya əsaslanan janrlarını göstərmək olar.

Yaradıcılığın bütün növlərində insanın hiss və duyğuları yüksək bədii ifadəsini tapır. Onun daxili aləmi, xarici görkəmi vəsf olunur.

Aışq sənəti- Azərbaycanda xalq mühitində yaranmış şifahi xalq yaradıcılığının musiqi formasıdır və təsir gücü, məhşur olması və kamilliyi baxımından analoqu olmayan bir təzahürdür-bu kiçik bir tamaşadır, burada musiqi improvizatoru, söz və şeir sətirlərinin müəllifi, musiqi alətində, sazda ifaçı və rəqs edən bir simada-aşığın simasında özünü göstərir. Bu təzahür nəinki dərin müdiriklik, böyük bədii təsir gücünə malikdir, həm də tarixi keçmişi və ifaçının müasir mənəvi dəyərlərini tərənnüm edir və xalq kütlələrinin estetik tələblərini ödəyir, həmçinin xalq yaradıcılığının müdiriklik qatlarında irəli gələn musiqi təfəkkürü fəlsəfi mədəniyyətin hərəkətverici qüvvəsi olan bir formaya malikdir.

Bədii yaradıcılıq formasının kökləri xalqımızın dərin tarixinə, mövcudluq təcrübəsinə dayanır və həyatın özündən zənginləşir, Aşıq musiqisinin mövzuları həyatın özü kimi çox rəngarəngdir. Azərbaycanda aşıq sənətinin tarixini öyrənmək və yadda saxlamaq bizim borcumuzdur. Çox mürəkkəb olan və xalq tərəfindən çox sevilən bu incəsənət janrının xalqın fəlsəfi mədəniyyətinin formalaşmasında rolu çox böyükdür.

Azərbaycanda aşıq sənətinin dərin tarixi inkişaf mərhələlərindən söhbət açan bir sıra əbədi mənbələr bizə məlumdur. Sənətşünaslıq elmi sahəsində professor Tariyel Məmmədovun "Azərbaycan aşıqlarının ənənəvi havalar" adlı doktorluq dissertasiyasını qeyd etmək olar. Bu tədqiqatda bilavasitə xanəndə - dastançı aşıqların dilindən dinlənilən əsərlərin musiqi-poetik dili, metrorimatika, forması araşdırılır.

Milli Elmlər Akademiyasının müxbir üzvü Qara Namazov "Azərbaycan aşıq sənəti" adlı kitab yazmışdır ki, burada çoxəsrlik inkişaf dövrü keçmiş, məhəbbəti, insanın alicənab əməllərini, onun istək və arzularını tərənnüm edən aşıq sənətinin kökləri, mənbələri açıqlanır. "Əsli və Kərəm", "Qurbani" , "Abbas və Gülgəz", "Aşıq Qərib", "Məsum və Diləfruz", "Əmrah", "Tahir və Zöhrə", Koroğlu" kimi zərbaycan aşıq dastanlarının adlarını cəkmək olar. Rəngarəng güclü təsirə malik xarakterik musiqi obrazı ilə birgə bədii sözün təsir gücü artıq bir çox əsrlərdri ki, nəinki romantik məhəbbət və əzab-əziyyət, eləcə də doğma torpağa, vətənpərvərliyə, xalq adət və ənənələrinə sədaqət zəminində xalqın həm musiqi təfəkkürünü, eləcə də fəlsəfi mədəniyyətin mənəvi sahəsini formalaşdırır. Aşıqlar çoxsimli sazda " Cəngi" qəhrəmanlıq obrazlarını xüsusulə parlaq yaradırlar.

Zəngin Azərbaycan aşıq lirikası haqqında müasirimiz akademik Həmid Araslı çox dəqiq demişdir: "Orta əsrlərdə adamların insan şəxsiyyətinin azadlığı uğrunda apardıqları mübarizənin ilk pillələrində mənəvi azadlığı və məhəbbəti əks olunurdu".

Aşıq sənəti dünyada baş verən kataklizmlər, təzadlardan asılı olmayan bir vəziyyətdə mövcuddur. Onun xalq yaradıcılığından irəli gələn öz qanunauyğunluqları vardır ki, bu yaradıcılıq məişətdə yaşayır və təkmilləşir.

Aşıq sənəti X-XII əsrlərdə yeni ictimai səslənmə təzahürü kimi formalaşaraq mənəvi tərbiyə vasitəsinə çevrilmiş və cəmiyyətin sosial-iqtisadi və kulturoloji sahələrində az əhəmiyyətli rol oynamamışdır. O, Azərbaycan estetik fikir ənənələrini qoruyub saxlayaraq poetik və fəlsəfi fikrin dahi, bənzərsiz mütəfəkkir Nizami Gəncəvi kimi nəhənginin irsini təbliğ edərək sadə xalq arasında musiqi təfəkkürü fəlsəfi mədəniyyətinin çarçısına çevrilir. Aşıq sənəti indi də bütün xalqın musiqi- yaradıcılığ düşüncəsində öz ictimai əhəmiyyətini saxlamaqdadır. Onun mənbələrindən indiki peşəkar bəstəkarlar də dəyərlənir və öz yaradıcılıqlarında ondan çox dəqiqliklə istifadə edirlər.

**Aidə Novruzova**
***Orkestr Alətləri və dirijorluq kafedrasının müəllimi***

# XXI ƏSRİN İLAHİYYATÇI QADIN ALİMİ

Fəlsəfə üzrə elmlər doktoru, dosent Əbilova Zəkiyyə Ağababa qızı 24.01.1962-ci ildə Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində anadan olmuşdur. O, Bakı Dövlət Universitetini bitirdikdən sonra dissertant olmuş, "Axund Hacı Ağamirzə Əbdülkərim ağa Badkubinin yaradıcılığında islam əqaidi" adlı mövzu üzərində elmi-tədqiqat işləri apararaq "Dinin tarixi və fəlsəfəsi" ixtisası üzrə dissertasiya müdafiə edərək, ilahiyyat üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşdür. Onun 115-dən çox elmi məqaləsi, monoqrafiya, kitab və dərs vəsaitləri çap olunmuşdur. Müəllifin indiyə qədər çap etdirdiyi və onun üçün mühüm göstərici olan kitab və monoqrafiyaları bunlardır:

1.Əbülqasim Mühəqqiq Hillinin "Şəraiul-islam fi məsailil-halal vəl-haram" əsəri Cəfəri məzhəbinin əsas qaynaqlarından biri kimi.



2.Axund Hacı Ağamirzə Əbdülkərim Ağa Badkubinin müasir Azərbaycan islamşünaslığında yeri.

3."Müntəxəbut-toriyyə" Axund Hacı Ağamirzə Əbdülkərim ağa Badkubinin tərcüməsində

4.İrşadüş-şəbab

5.Mənazilüs-salikin.

6.Axund Hacı Ağamirzə Əbdülkərim ağa Badkubinin müasir Azərbaycan islamşünaslığında yeri.

Hal-hazırda Zəkiyyə Əbilova AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Əlyazmaların və əski çap kitablarının tərcüməsi şöbəsinin baş elmi işçisidir. O, 2002-2017-ci illərdə İnstitutun Müdafiə Şurasının elmi katibi vəzifəsində fəaliyyət göstərmişdir. Bir çox ölkələrdə konfrans və simpoziumlarda iştirak edən Zəkiyyə xanım 2020-ci ildə Türkiyənin paytaxtı Ankara şəhərində "Beynəlxalq türk mədəniyyəti və sənəti" simpoziumunda "Azərbaycan ədəbiyyatında Kərbəla mövzusu: Əbdülkərim Ağa Badkubinin əsərləri əsasında" mövzusunda məruzə ilə çıxış etmişdir. O, XIX əsrdə Azərbaycanda doğulmuş, İranda və İraqda İslam hüququ və nəzəriyyəsi üzrə mükəmməl təhsil almış Badkubinin həyat və yaradıcılığı haqqında ətraflı məlumat vermiş, həmçinin müxtəlif dini mövzuda 6 dəyərli əsər yazmış İslam alimi Badkubinin yaradıcılığında önəmli yer tutan Kərbəla mövzusu, eləcə də alimin Məhərrəm ayının rituallları haqqındakı görüşlərindən bəhs edərək təhlillər aparmışdır.

Bu günlərdə Zəkiyyə xanımın 60 illik yubileyi qeyd edilmişdir. Biz də fürsətdən istifadə edərək dəyərli ziyalımız Zəkiyyə xanım Əbilovanı "60 illiyi" münasibəti ilə təbrik edir, ona həyatda xoş günlər və elmi axtarışlarında yeni-yeni nailiyyətlər azulayırıq.

**Səbuhi İbrahimov**
***AMEA Naxçıvan Bölməsi fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

# NOVRUZ MƏRASİMLƏRİ TARİXİ QAYNAQLARDA

Novruz mərasimlərinin mifoloji və tarixi kökləri o qədər içiçə, o qədər qaynayıb qarışmış şəkildədir ki, gerçək mənzərəni aydınlaşdırıb üzə çıxarmaq üçün tarixi mifalogiyaya baş vurmaq lazım gəlir. Astroloji zəmin və mifoloji qaynağa söykənən Novruz mifləri ritual səciyyə daşıyan sistemli mərasim kompleksini hərəkətə gətirən sakral mətnlərdir. Bu mətnləri söyləyənlər onların mahiyyətində gerçək və fövqəladə gücə malik sehrli qüvvənin olduğuna inanırlar. Reallıqla təxəyyülün qovuşmasını əks etdirən bu əsatirlər geniş coğrafi məkan və dərin bir tarix içinə yerləşmişlər.

Tarixi qaynaqların verdiyi bilgilərdən aydın olur ki, Novruz mərasimi dörd mövsümün bəlli olduğu coğrafiya və iqlim qurşaqlarında geniş bir məkan və dərin bir zaman içinə yerləşərək müxtəlif adlar altında öz mövcudluğunu sürdürən qədim bir ritualdır. Novruz günlərində 21 mart və onun davamı olan ilk günlərdə icra olunan bu mərasim öz daxili mahiyyəti etibarı ilə "qurtuluş", "ədalət", "barış", "diriliş-doğum", "bolluq-bərəkət", "sağlıq-şəfa", "aydınlıq", və başqa qavrayış təsəvvürləri yaradır. Əsgi çağlara aid arxeoloji tapıntılardan, folklor və etnoqrafiyaya aid toplama materiyallarından, çağdaş Novruz mərasimlərinin tərkibində yer alan astroloji, kosmik, natural və sosial kultlardan,



simvol və işarələrdən bu ritualın minillərin arxasından baş alıb gəldiyi görünməkdədir. Oturaq həyat tərzi, əkin-biçin , bağ-bağat mövsümünə giriş, geri dönmənin çətinliklərindən xilas olma, artıb-çoxalma, bolluqbərəkət, sağlıq şəfa diləklərinin bənzər inikasının qədim-antik baharyeni il və günümüzdəki Novruz şənliklərini bəzəyən rəmz və işarələrin müqayisəli təhlilindən asanlıqla görmək mümkündür. Bu simvol və işarələrin hər biri müxtəlif çağlara məxsus yaşam tərzini, ictimai quruluşu, tarixi mərhələni əks etdirdiyindən Novruzun kifayət qədər uzun bir zaman boyunca təşəkkül prosesi keçirdiyini söyləmək olar.

Novruzun-bahar fəslinin yeni il kimi Çində həmdə "əkinçilik bayramı" sayılmasından söz açan M.S.Ordubadinin qeydləri də maraq doğurur: "Çin xalqı martın doqquzunda (miladi 21 mart) torpaqdan düzəldilmiş bir öküzü darvazadan çıxarıb bayramı onunla başlar. Bu isə onlarda cüt öküzünün işə çıxdığına və əkin işlərinin başlandığına işarədir"

Novruza qədim türk dastanlarından olan "Oğuz-Kağan" da rast gəlinir: Qara xandan bir oğlan oldu. Adını Oğuz xan qoydular. Oğuzun doğumu ilə çiçəklər, ağaclar, yer üzü həyata başladı. Oğuz bir neçə il sonra ilin həmin vaxtı öz rəqiblərinə və düşmənlərinə qalib gələrək Talas şəhərindən Buxaraya qədər böyük bir ərazini fəth etdi. O gündən etibarən hər il həmin gün "Böyük düyün", "Böyük Şənlik", "Oğuz günü", "Yeni gün-Novruz" adı altında bayram edildi.

Novruzla bağlı bir təqvim dəyişikliyi də Səlcuqlu hökmdarı Məlik Şahın (1052-1092) dövrünün görkəmli şair və alimi Ömər Xəyyama təqvim hazırlamağı tapşırması ilə gerçəkləşmişdir. Hicri təqvimin dövlət işlərində, xüsusən də vergi yığımındakı uyğunsuzluğu 21 mart başlanğıclı "Təqvimi –Cəlali" adlı yeni təqvimə girmək zərurətini ortaya qoymuş, Məlik Şah bu təqvimi rəsmiləşdirmişdir. Cəlali təqvimi ilə yeni il Novruz bayramından başlanır. Bu təqvim İran və Əfqanıstanda hələ də qüvvədədir.

Ümumiyyətlə, Novruz qədim dövrlərdən günümüzə qədər "yenidən yaradılış", "yenidən doğuş" yeni həyatın,yaşamın başlanması düşüncəsini göstərməkdədir: göy cisimlərinin yeni bir düzüm yaratması, təbiətin oyanışı, canlanması, insanın ruhunun yeniləşməsi, diriliş, qurtuluş və s.

Novruzun tarixi baxımdan təhlili göstərir ki, bu qədim mərasim insanlığın ibtidai çağlarından başlamış ən müxtəlif tarixi inkişaf mərhələlərində həyat tərzinin izlərini özündə yaşadır, tarixi bu günə və sabaha daşıyır.

**Əli Allahverdiyev**
**"Roman-german dilləri" kafedrasının dosenti**

# MART GƏLDİ, DƏRD GƏLDİ



Hər bir ayın xüsusi yeri, gözəlliyi var. Aylardan ən təravətlisi, nərgiz qoxulu, bayram əhvallı mart ayıdır. Mart gəlir dedikdə bir deyimi tez-tez eşidirik: "Mart gəldi, dərd gəldi, mart çıxdı, dərd çıxdı"

Bu deyim günümüzdə el məsəli, atalar sözü kimi işlədilir. Əslində isə hər kəsə məlumdur ki, mart bayramlar ayıdır. Maraqlıdır, bəs "Mart gəldi, dərd gəldi, mart çıxdı, dərd çıxdı" deyimi necə yaranıb?

Bəzi folklorşünaslar bildirirlər ki, bu deyimin yaranmasının əsas səbəbi mart ayında hava şəraitinin qeyri-sabit keçməsi ilə bağlıdır. Bəziləri isə qeyd edir ki, yaz fəsli gəlişi ilə insanlarda bayram əhvalı, xoş ovqat yaratsa da, həm də hava şəraitinin dəyişikliyi ilə əlaqədar olaraq sağlamlıqlarında problemlər də yaradır. Belə ki, bu ayda insanlarda tez-tez baş ağrıları, yorğunluq, müəyyən xəstəliklərin şiddətlənməsi müşahidə edilir. Qışın bitməsi, yazın gəlməsi ilə təbiət, ətraf oyandığı halda, havalar yaxşılaşdıqca insanlarda əksinə halsızlıq başlayır, xroniki xəstəliklər kəskinləşir, insanın gücü olmur. Əslində, bunlar boşuna deyil. Qışdan çıxan orqanizm tükənir, "cılğalıq edir". Bu dövrdə mədə-bağırsaq, baş-beyin, qan-damar pozulmaları artır. Məlum olduğu kimi, Boz ay bu təqvimdə özünü daha çox göstərir, hava tez-tez küləkli, dəyişkən, buludlu, tutqun olur. Bu da kənd təsərrüfatı ilə məşğul olan insanlar üçün sıxıntı yaradır. Beləliklə, qədim zamanlarda ölkəmizdə mart ayına problem, dərd kimi baxıblar, onun tezliklə çıxmasını gözləyiblər. Martdan sonra isə təbiət tamamilə oyanmağa, yaşıllaşmağa başlayır. İnsanların da həyatları rahatlaşmağa doğru getdiyindən "Mart çıxdı, dərd çıxdı" deyirlər. Deyilənə görə, əvvəllər "Boz ay çıxdı, dərd çıxdı" deyimi olub. Lakin sonralar poetik səslənməsinə, qafiyələnməsinə görə mart sözündən istifadə edilib.

**Sevda Qənbərova**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# MİLLİ DƏYƏRLƏRİMİZƏ DƏYƏR QATAN BAYRAM - NOVRUZ

Hər bir xalqın öz milli dəyərləri, adət - ənənələri vardır. Bu dəyərlərimizi özündə birləşdirən bayram isə Novruz Bayramıdır. Novruz yazın gəlişi, ilin başlanğacını sevinclə qarşıladığımız adət- ənənələrlə zəngin bayramdır. Torpağın oyanması, çiçəklərin açması, günəşin al şəfəqlərini yerə saçması baharın gəlişindən xəbər verməsidir.

Bu gün nənəm məndən bala, Novuz bayramına neçə gün qaldı deyə soruşdu. Hələ çox vaxt var nənə, niyə soruşdun ki?

İlk çərşənbəyə hazır olması üçün səməni cücərtməliyik. Nənəm dərindən bir ah çəkdi. Nə oldu nənə?

Heç bala, keçmiş günlər yadıma düşdü.

Göyçə mahalının Şiş qaya kəndində keçirdiyim Novruz bayramlarını xatırladım. Biz o vaxtı Novruzun gəlişini səbirsizliklə gözləyirdik. Birinci çərşənbədən əvvəl səməni cücərdərdik. Hər evdə 3 və ya 4 qab səməni cücərdib yazın gəlişinə hazırlaşardıq. Su çərşənbəsində hər kəs, əsas da subay qız və oğlanlar yuxudan tez oyanardılar. Səhər erkəndən 2 qab götürüb bulaq başına gedərdilər. Tez getməli idik, çünki Günəş yerə şəfəqlərini saçmadan su gətirməliydik. Bulaq başına çoxlu qızlar gələrdi və suyu doldurduqdan sonra oradakı balaca daşlardan 5 yaxud 7-ni suya atardılar. Bunu mənası həmin ilin düşərli və su gətirənin arzusunun gerçək olması idi. Həmin suyu evə gətirər və hər ailə üzvünə çiləyərdilər. O sudan hamı içməli idi. Həm də həmin suyu səməninin üzərinə tökürdük ki, tez cücərsin. Çərşənbənin axşamı bişən yeməyə- əriştə aşına da həmin sudan əlavə etmək adətimiz idi.

Axşam hər evin önündə tonqallar qalanırdı. Tonqalı odundan və ya samandan yandırırdılar. Ailənin hər üzvü dairəvi formada tonqalın ətrafina yığılardı. Ailə üzvləri tonqalın üzərindən hoppanar və 3 dəfə (Ağırlığım, uğurluğum bununla getsin deyirdilər). Bu ilk çərşənbəni belə yola salırdılar.

Od çərşənbəsində isə hər ailədə səməni bəzəyib kənarlarına şam düzərək yandırardılar. Axşam isə hər çərşənbə olduğu kimi tonqal qalayar üzərindən atlanardılar. Çərşənbələrin üçüncüsü- Yel çərşənbəsi (Qara bayramı ) ölənlərin bayramı kimi qeyd edilərdi. Qonşuda, qohumda, kənddə hələ ili çıxmamış yas evi varsa, ora gedərdilər. Yas evində yeməklər bişər, ölənlərin məzarı ziyarət edilərdi. Bundan başqa xonça bəzəyər, səməni və bulaqdan gətirdikləri suyu da aparırdılar. Hətta yas olmayan evlərdə də qonşuya hörmət əlaməti olaraq şənliksiz tonqal qalanardı, lakin yas evlərində tonqal qalamaq adətiyox idi.

İlaxır çərşənbənin gəlişinə 3 gün qalmış milli şirniyyatlar bişirərdilər. Süfrəmizin ən ləziz şirniyyatı paxlava, şəkərbura hazırlayardılar. Hər kəs ilaxırdan 1 gün əvvəl kirvə gəlişinə hazırlıq görərdi. Adət idi ki, kirvə 1 gün öncə uşağın bayram payını gətirməli idi.

Aş, bozartma Novruz bayramı süfrəsinin simvolu idi. İlaxir günü səhər tezdən hər kəs erkən oyanar, axşam üçün hazırlıq görərdilər. Axşamüstünə kimi bayram süfrəsi bəzənməli, səməninin kənarına şam düzülməli idi. Axşamüstü gənc qızlar və oğlanlar nənə-baba evinə yığışardı. Onlar bir yerə toplaşaraq novruz fallarına baxardılar. Məsələn üzük, iynə, kökə çati-çati və bulaqdan su falları hər kəsin maraqla etdikləri adətlər idi.



Yaşı 7 və ya 8 olan uşaqları bulağa göndərərdilər. Uşağın hər əlinə 2 qab verib dilək tutardılar. Qabın biri dolu, biri isə boş gəlməli idi. Bu ayında uşaq danışmamalı idi. Niyyətinin dolu qabla birgə həyata keçəcəyinə sonsuz inam var idi. Bu dilək 3 dəfə edilə bilərdi.

Elə həmin suya qızların nə vaxt ailə quracağını bilmək üçün üzük falı edərdilər. Nişanlı qızın üzüyünə subay qızın telini bağlayıb stəkana vururdular, nə vaxt dayandısa o zaman da ailə quracağı yaşı hesablayardılar. Suyu güzgünün qarşısına qoyub insanın başına gələcək hadisələr barədə təxminlər yürüdərdilər. Sonda isə qulaq falına çıxardılar. Evlərin qapısını dinləyir, niyyət tutardılar. Gözəl söz eşitsə yaxşı, pis söz eşitsə niyyətinin pis olacağına yozardılar. Ondan sonra hamı evinə gedərdi. Hər kəs evində tonqal qalayar, bayramı qeyd edərdilər. Yaxın qohumlar bir -birinə gedib gəldikdən sonra qonşulara gedərdilər, gecə yarı olana qədər yeyib içərdilər.

İlaxırın səhəri gün isə "çiləşmə" olardu. Hər kəs səhər gün çıxmadan bulağa su gətirməyə gedərdilər. Gənclər və uşaqların əlində su dolu qab olurdu. Yolda qarşısına çıxan hər kəsə su atardılar. Çiləşmənin mənası aydınlığa çıxmaq anlamına gəlirdi. Ondan sonra axşama kimi qohum- qonşu bir- birlərinə bayramlaşmağa gedərdilər. Çiləşmənin səhəri bayramdan əvvəl qurşaq olurdu. Hər kəs soğan qabığı olan suda yumurta bişirərdi. İnsanlar baca -bacaya çıxardılar. Hər kəs əlində torba ilə gəzərdi. Damın üstdəki bacadan evin içinə torba atardılar və "Bizim baca- baca payımızı verin" deyərdilər. Ev sahibi o torbanin içərisinə yumurta və bayram nemətlərindən qoyardu. Qurtardıqdan sonra isə torbanı çəkib aparardılar. Baca- baca günortaya kimi davam edərdi.

Keçəl və kosa isə Novruzun ən yaddaqalan obrazlarından sayılardı. İlaxir günündən başlayaraq bayram bitənə kimi keçəl və kosa məhlələrdə gəzər, şənlik edərdilər. Şənlik Keçəl, Kosa, Bahar qızı və musiqi çalanlardan ibarət olardı. Kənddəki hər kəs şənliyə gələrdi. Hər evdən şirniyyat xonçaları və yeməklərdən gətirərdilər. Şənlik olan yerdə böyük süfrə qurardılar. Ürəyi istəyən hər kəs yeyə bilərdi. Bayram bitənə kimi hər gün kişilər və oğlan uşaqları kəndin içinə toplayıb xoruz döyüşdürər, yumurta toqquşdurardılar. Kimin yumurtası möhkəm olub qırılmasa, qırdığı bütün yumurtaları özü ilə apardı.

Martin 21-i ilin başlanğıcı qeyd edilirdi. Həmin gün plov dəmlənir, bozartma bişirilərdi. Bu gün ən əziz qohumu görməyə gedərdilər. Həmin gün tonqal qalanar, hər kəs yazın gəlişini böyük sevinclə qarşılayardı. Bayramın səhərisi isə ayin 22-i isə xalq arasında Məhəmməd Peyğəmbərin ( s.ə.s) taxta çıxması günü kimi qeyd edilərdi. Deyimə görə Peyğəmbərimiz qırmızı xalat geyinərək məhz həmin gün taxtda əyləşib. Elə buna görə də səmənin belinə qırmızı lent bağlayırlar. 22 martın səhəri isə hər evdə səməni halvası bişirilərdi . Bu hər kəsin etməli olduğu adətlərdən sayılardı.

Xatirələrə dalan nənəm sanki bir anlıq yuxundan ayılmış kimi eee bala, bizim dövrümüzdə bayramın öz gözəlliyi, təravəti var idi. İndi şükürlər olsun ki, gün-güzəran elə yaxşılaşıb ki, sanki hər gün bayram edir camaat. Amma, bir şey də qeyd edim ki, əziz balam, unutma ki, Novruz bayramımız illərin ağır sınağından keçib bu günümüzə gəlib çatıb. Bizim borcumuz bu milli-mənəvi dəyərlərimizə sahib çıxmaq və gələcək nəsilərə ötürməkdir.

**Şəfa Səfərova,**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# SİZƏ KİMDƏN DANIŞIM...

Təzə bir nəğmə eşitmək istəyirsənmi oxucum? Bu nəğmənin misralarına əziz tutduğumuz, peşələrin ən ümdə məqamında dayanan müəllim zəhmətinin, jurnalist peşəkarlığının, neçə-neçə bitkin obrazlara həyat bəxş edən aktyor əməyinin ətri hopubdur. Bu nəğmənin ahəngi Külüs dağlarının vüqarı, nəqəratı Şahbuz çayının şaqqur-şuqqur axan zümzüməsi, kəklikotunun, yarpızın, nanənin qəlboxşayan təravəti və Külüs almasının dadı kimi şipşirindi. Bu nəğmənin bəstəkarı həyat, qəhrəmanı isə ömrünün 365-ni 50 dəfə yaşayan, bu 50-lərin içərisinə neçə-neçə baharın xoş mehini, yayın hərarətini, payızın çiskinin, qışın bəyazın qataraq onu mənalı, maraqlı müəllim-jurnalist, aktyor ömrünə çevirən teatrımızın sevilən sənətkarı, jurnalist Səməd Canbaxşıyevdir. Sizə kimdən danışım dedikdə həyatını ən gözəl işlərə həsr edən, dərs dediyi ali təhsil ocağında neçə-neçə gənci gələcəyin jurnalisti kimi yetişdirən saf müəllim ömründən söhbət açmaq istəyirəm – Səməd müəllimin ömründən.

Bir ömür kitabını vərəqləyirəm... Bu ömür kitabının hər sətrinə peşəyə sədaqət, dostlara məhəbbət, xeyirxah işlər, gözəl əməllər yazılıb. Nə xoşbəxtəm ki, ömür kitabının qəhrəmanını – Səməd müəllimi mən hələ uşaqlıqdan tanımışam. Onu ölkə və Naxçıvan ictimaiyyəti də yaxşı tanıyır, teatr sevdalıları da, jurnalist adını daşıyanlar da.

...1972-ci il mart ayının 19-da Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun al-əlvan təbiəti ilə gözoxşayan Külüs kəndində, Canbaxş kişinin ailəsində doğulan o balaca Səmədin indi 50 yaşı tamam olur. Bu əlliillik mənalı ömür yolunda Səməd müəllim canla-başla, zəhmətlə çalışaraq öz halal çörəyin qazanıb. Yaxşı müəllim, jurnalist, yaxşı aktyor olduğu kimi, həm də qayğıkeş ailə başçısı, mehriban bir valideyndir. Üç övlad atasıdır. Övladlarının ikisi ali təhsilli, hətta biri öz ata peşəsinə sadiq qalaraq öz yolunu məhz jurnalistikadan salıb. Bu məqamda Səməd müəllimin "Şərq qapısı" qəzetinin 9 avqust 2014-cü ildə nəşr olunan məqaləsinə toxunmaq istərdim. Müəllif peşəyə bağlı talelər mətləbinə toxunaraq yazır: "Elə insanlar var ki, onlar həyatda seçdiyi sənətə o qədər vurğun olurlar ki, onların övladları da bunu görüb o adamların davamçısı olurlar. Nəticədə, bir sənətin, peşənin nəsildən-nəslə ötürülməsi ənənəsi yaranır. Bu həm də peşəyə olan sədaqətin ən gözəl nəticəsidir..."

50 illik ömür kitabına illərin təcrübəsini sığdıran Səməd müəllim 1990-cı ildə yaradılan Naxçıvan Dövlət Kukla Teatrının ilk aktyorlarındandır. Hələ orta məktəbdə oxuduğu illərdə bu sənətə böyük sevgisi olan qəhrəmanımız 4-cü sinifdə oxuyarkən aktyor olmaq arzusuna düşüb. Daha sonra tale elə gətirib ki, aktyorluqla birlikdə Jurnalistika ixtisası üzrə də ali təhsil alıb. 1990-1992-ci illərdə hərbi xidmətini başa vurduqdan sonra qiyabi olaraq Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin teatr kollektivi rejissoru, həmçinin Bakı Dövlət Universitetinin Jurnalistika




fakültəsində təhsil alıb.

Bunun nəticəsində də 1993-cü ildə Kukla Teatrı ilə yanaşı, Naxçıvandakı Zabitlər Evində "Meloman şou" klubunun, həmçinin, "7 ulduz" Şən və Hazırcavablar Klubunun yaradıcılarından biri olub. Buradakı ssenariləri özü yazıb, özü də oynayıb, bir sözlə, hələ gənc yaşlarından aktyorluq kimi çətin və məsuliyyətli peşənin yükünü öz çiyinlərinə alıb.

İnsanın peşəsindən asılı olmayaraq, qəlbə yazıb-yaratmaq eşqi hakim kəsildi, insanı ələ qələm almağa vadar edir. Səməd müəllim də qəlbində bu ülvi peşənin sevgisini hələ gənc yaşlarından, ali təhsil aldığı illərdən, bəlkə də, uşaqlıq illərindən daşıyıb. Hətda Jurnalistika ixtisasının II kursunda təhsil alarkən nəğməkar şair İslam Səfərli haqqında yazısı necə marağa səbəb olubsa, o dövrdə Bakıda nəşr olunan "Naxçıvan" qəzetinin baş redaktoru BDU-ya gəlib və bu gənc jurnalisti əməkdaşlığa dəvət edib. Elə bu məqamda ziyalı böyüklərimdən eşitdiyim bir hikmətli fikir yadıma düşdü. Deyirlər, həyatda iki peşə var ki, onun sahibləri dünyaya həmin peşənin bütün xüsusiyyətlərini daşıyaraq gəlirlər; onlardan biri aktyorluq, digəri isə jurnalistikadır. Səməd müəllim istər teatr səhnəsində, istər videokamera qarşısında, yazıb pozmaq sənətində öz işinin haqqını layiqincə verən sənətkar və telejurnalistdir...

Səməd müəllimin aktyorluq sahəsindəki işi ilə yaxşı tanış olanlar da etiraf edir ki, onun tam fərqli səhnə duruşu var. Deyirlər ki, Səməd Canbaxışiyev 1999-cu ildə Nəriman Həsənzadənin "Atabəylər" əsərindəki Mahmud obrazını səhnədə necə canlandırmışdısa, Xalq artisti Nurəddin Mehdixanlı Səmədin oyununu çox bəyənmiş, hətta Həsən Turabovdan xahiş etmişdi ki, bu cavan oğlanı Akademik Milli Dram Teatrına işə götürsün. O da razılaşmışdı. Amma və lakin Bakı kimi böyük şəhərdə yaşamaq çətinliyi, xüsusən də Naxçıvan sevgisi bu işin alınmasına mane olmuşdu. 1997-ci ildə aktyorluğu, 1998-ci ildə jurnalistikanı bitirən qəhrəmanımız həmin ildən Naxçıvan Dövlət Televiziyasında uşaq verilişləri hazırlamağa başlayır. "Biri vardı, biri yoxdu", "Boğça" tez bir zamanda uşaqların sevimli verilişlərinə çevrilə bilir. Ümumilikdə Səməd Canbaxşıyev Kukla Teatrında 20-yə qədər, Dram Teatrda isə 15-ə qədər müxtəlif obrazların xarakterini yarada bilib. Onun üçün dram, faciə, komediya janrının fərqi yoxdur, hər sahənin haqqını verən, obraza girməyi bacaran istedad sahibidir. Naxçıvan Dövlət Musiqili Dram Teatrında aktyor, ədəbi hissə müdiri (2014-2020) kimi çalışıb. 2020-ci ildən isə həmin teatrda direktor müavini kimi fəaliyyət göstərir. Naxçıvan Teatrının son iki ildə qazandığı uğurlarda Səməd müəllimin də zəhməti var. Bunu danmaq yəqin ki, onun haqqını danmaq kimi çıxardı. Onun səhnə yaradıcılığı sərgisinə göz atanda isə qarşımızda Qacar, Elxan, Akif, Yəhya bəy Dilqəm, Qədir kimi zəngin xarakterlər qalareyası canlanır. Çünki o, tetar səhnələrində onlarla obraza uğurlu, yaddaqalan səhnə ömrü bəxş edib.

Bununla belə, Səməd müəllimin yaxşı rejissorluq istedadı da var. Bunu Tuncər Cücənoğlunun "Rəngsaz" tamaşasına verdiyi quruluş da göstərdi. Bəzi tamaşalardakı rejissor assistentliyini də bura əlavə etsək, gələcəkdə maraqlı tamaşaların rejissoru kimi qarşımıza çıxacağına da hazır olmaq lazımdır. Bu rolları və teatr fəaliyyəti ona tamaşaçı sevgisi qazandırmaqla bərabər bir çox uğurlarına da vəsilə olub. Belə ki, 2000-ci ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti fəxri adına, 2015-ci ildə Prezident Mükafatına layiq görülüb.

Nə az, nə çox düz 2007-ci ildən, 5 yaşım olarkən, hələ jurnalistika anlayışını yeni-yeni dərk etdiyim illərdə, elə ilk olaraq jurnalist kimi şəxsən tanımağa başladığım Səməd müəllimin Naxçıvan televizyasında da özünəməxus peşəkarlıq yolu, maraqlı və özünəxas üslub tərzi olubdur. O, Naxçıvan Televiziyasında redaktor, daha sonra baş redaktor vəzifələrində çalışıb. 2003-cü ildən isə "Lider" televiziyasının Naxçıvan üzrə xüsusi müxbiri kimi fəaliyyət göstərməyə başlayıb. Hətta 2005-2007-ci illərdə Bakıya dəvət olunub və həmin televiziyanın mərkəzdəki müxbiri kimi tamaşaçılar qarşısına çıxıb. Bax elə bu ildən mənim Səməd müəllimlə yuxarıda qeyd etdiyim tanışlığım başlayıb. Çünki atam Rəşadət Əkbərov (yaradıcı imzası Rəşad Əkbərovdur) və Səməd müəllim 2007-ci ildən "Lider" televiziyasının Naxçıvan Muxtar Respublikası üzrə bölgə müxbirləri kimi fəaliyyət göstəriblər. 2007-ci ildən "Lider" televiziyası fəaliyyətini dayandırana kimi hər ikisi bölgə müxbiri vəzifəsində muxtar respublikanın bütün sahələrini Azərbaycan tamaşaçısına çatdırmağa çalışıb. Jurnalistika fəaliyyətinə nəzər saldıqda görürük ki, Səməd müəllim jurnalistikanın, demək olar ki, bütün sahələrində çalışıb. Yuxarıda qeyd etdiklərimdən əlavə, "Naxçıvanın səsi" radiosunda redaktor, Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində "İnformasiya təminatı və saytlarla iş" və "Xəbərlər" redaksiyalarında baş redaktor, Muxtar Respublikanın ilk rəsmi informasiya qurumu olan "Nuhçıxan" İnformasiya Agentliyinin baş redaktoru kimi fəaliyyət göstərib. Bunlarla yanaşı mütəmadi olaraq mətbuat səhifələrində yazıları nəşr olunub. Təsadüfi deyil ki, hazırda Naxçıvan Dövlət Universitetində gələcəyin qələm sahiblərinə, yəni biz tələbə-jurnalistlərə "Televiziya jurnalistikası"ndan dərs deyir. Təsvvür edirsinizmi, günün istənilən saatında ona yolladığımız yazıları oxuyur, redaktə edir, öz irad və təkliflərini bizə bildirir və ən əsası özümüzün də xəbəri olmadan müxtəlif saytlara, qəzetlərə göndərir.

Zəngin təcrübəsinin nəticəsi kimi qələmə aldığı, bizlərin sevə-sevə mütaliə etdiyimiz "Telejurnalistika dünyası" dərs vəsaitinin müəllifidir. Dəyərli müəllimimizin jurnalist istedadı da diqqətdən kənarda qalmayıb. 22 iyul 2020-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalına layiq görülüb.

Ariflər deyirlər ki, həyat dünya qapısından içəri atılan addımla başlayan bir yolçuluqdu. Hər birimiz yıxıla-qalxa, pis-yaxşı bir gün bu yolun sonuna gəlirik. Həyat yolunda o kəslər ölümsüzlük qazanır ki, hər daim saf əməlləri, xeyir işləri, peşəsinə sədaqəti ilə sayılıb-seçilsin. Elə mövzumun qəhramanı Səməd müəllim kimi. Eşidikdə ki, Səməd müəllimin 50 yaşı tamam olur, insanın buna inanası gəlmir. Çünki enerji dolu qəlbi, zəngin təcrübəsindən danışdığı maraqlı sərgüzəştləri, biz gənc jurnalistləri öyrətmək, gələcəyin peşəkar jurnalisti kimi yetişdirmək vüsalı, sanki hər keçən gün daha da artır. Yubileyiniz mübarək olsun, əziz müəllimimiz, həmkarımız. Sizi bütün mətbuat kollektivi adından təbrik edir, sağlam ömür, can sağlığı, işinizdə, peşənizdə hər daim uğurlar qazanmağınızı arzu edirik...

**Məcid RƏŞADƏTOĞLU**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# RİYAZİYYAT BÜTÜN ELMLƏRİN AÇARIDIR

*"Riyaziyyat - elmin müdrikliyinin rəmzidir, elmi ciddiyyətin və sadəliyin nümunəsidir, elmdə mükəmməlliyin və gözəlliyin etalonudur".*

*Qalileo Qaliley*

Elm sahələri arasında qədim elmlərdən biri olan riyaziyyatın elmi biliklər sistemində özünəməxsus yeri vardır. Riyaziyyat elmi dünyanın öyrənilməsində və dəyişdirilməsində, insanların praktik fəaliyyətlərində çox böyük rola malikdir. Demək olar ki, riyaziyyat bizi əhatə edən dünyanı anlamağa kömək edən qanunauyğunluqların sirlərini açan elmdir.

Bəşəriyyətin inkişaf tarixinə və mərhələlərinə uyğun olaraq riyaziyyat elmi formalaşmışdır və inkişaf etmişdir. Bəşər tarixində insanların qarşısına çıxan ən böyük problemlər məhz riyaziyyatın tətbiqi ilə həll edilmişdir. Bu gün müasir informasiya və kommunikasiya texnologiyalarının yaradılmasında da riyaziyyatın rolu əvəzedilməzdir. Bələki, riyaziyyat fərqli bilik sahələrini vahid bir sistemdə birləşdirən elmdir.

Q.Qaliley demişdir: "Dünya riyaziyyat dilində yazılmış əzəmətli bir kitabdır, onu ancaq həmin dilə yiyələnən oxuyub öyrənə bilər". Məhz bu kəlam riyaziyyatın həyatımızdakı rolunu çox gözəl ifadə edir. Çünki müasir dövrdə elə bir elm sahəsi yoxdur ki, orada riyazi anlayışlar və metodlardan bu və ya digər dərəcədə istifadə olunmasın. Ona görə də bu gün hər kəs üçün riyazi savad- mədəniyyətin, sosial, şəxsi və peşəkar səriştənin




zəruri elementi kimi daim diqqətdə saxlanılmalıdır.

Riyaziyyatın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə insanların qarşısına qoyduqları məsələlərin həllində və nailiyyətlərin qazanılmasında, ümumiyyətlə, cəmiyyətin həyatındakı rolunu nəzərə alaraq Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət sahələri üzrə qurumu UNESKO 2019-cu il sentyabrın 3-də hər il 14 mart tarixinin Beynəlxalq Riyaziyyat Günü kimi qeyd olunması haqqında qərar qəbul etmişdir. Həmin ildən etibarən 14 mart dünya riyaziyyatçılarının bayramı kimi qeyd olunur.

Riyaziyyat elmi biliklər dəryasıdır. Bu biliklər aləmindən baş çıxarmaq üçün dərin zəka, gərgin düşüncə, güclü məntiq, mücərrəd təffəkkür prosesi lazımdır. Məhz ona görə də bu elmi "əqlin gimnastikası" adlandırmışlar. Təsadüfi deyil ki, böyük şəxsiyyətlər öz məntiqi düşüncə qabiliyyətlərini inkişaf etdirmək üçün riyaziyyat elmi ilə məşğul olmuş və onu öyrənməyə səy göstərmişlər.

Riyaziyyat dünyanı dərk etməyin metodu və dilidir. Biz riyaziyyatı öyrənərək təkcə riyazi düşüncə tərzini inkişaf etdirmirik, həm də ümumiləşdirmə və təhliletmə bacarığını formalaşdırırıq, nizamlılıq tapmağı öyrənirik, düşünmək və qərar vermək bacarığına yiyələnirik.

Riyaziyyat bütün elmlərin açarıdır. Əgər bu bilik dəryasını sevsək, o bizim üçün həyatda nəinki gərəkli olar, hətta həyatımızın bəzəyinə və sevimli dostumuza çevrilə bilər.

Riyaziyyatın elm, texnologiya sahəsindəki rolunu və tətbiqini nəzərə alaraq deyə bilərik ki, riyaziyyata dair maarifləndirmənin artırılması və bu sahədə təhsilin qlobal səviyyədə dərinləşdirilməsi riyaziyyat elminin inkişafına daha da təkan verəcəkdir. İnanıram ki, 14 mart - Beynəlxalq Riyaziyyat Gününün hər il qeyd edilməsi müasir riyaziyyatın inkişafına təsir göstərəcək və gənc nəsillərin bu elmə olan marağını artıracaqdır.

**Nazilə Muradova**
***Naxçıvan Müəllimlər İnstitutunun dosenti, riyaziyyat üzrə fəlsəfə doktoru***

# ELM SƏNƏTİNİN KRALI TUSİ VƏ ELM FƏDAİSİ ULUQ BƏY

Azərbaycanda elm tarixi çox-çox qədimlərə gedir. Hələ bizim eradan əvvəl Azərbaycanda çox sevilən və yayılan "Avesta" həm fəlsəfi, həm də dini abidə hesab edilirdi və buna görə də bir çox ölkələrdə geniş yayılmışdı.

Tarixi məxəzlərdən məlum olur ki, "Avesta"nın əsasında ataşpərəstlik durur. Ataşpərəstliyin nümunələri indiyə kimi Azərbaycanda mövcuddur. Suraxanıda olan Ataşgah nümunəsi, Qobustanda "Yanar dağ", "Qayaüstü" təsvirlər bunun parlaq nümunəsidir. Erkən orta əsr çağlarında Azərbaycanda Midyanın süqutundan sonra Aran-Alban dövləti yaranır. Hələ eramızın beşinci əsrində Azərbaycanda 52 hərfdən ibarət alban əlifbası yaranmışdı. Orxan-Yenisey kitabələrindən başlayan Azərbaycandakı mədəni inkişaf dünyanın heç bir ölkəsində bu sürətdə deyildi. Bu barədə bir kitaba sığmayan yazı da verə bilərdi.

Dünyanın qədim elm və mədəniyyət mərkəzlərindən olan Bağdadda bir qəbrin üstündə belə bir yazı oxuyuruq: "Dinin və xalqın köməyi, elm aləminin şahı. Zamanın anası belə oğul yetirməyib". Bu qəbir Azərbaycanın şərəfli oğlu, filosof, astronom, riyaziyyatçı və böyük elm sahələrinin ensiklopedik bilicisi Məhəmməd İbn Həsən Nəsrəddin Tusiyə məxsusdur. Tusinin vəfatından 700 ildən bir qədər çox vaxt keçməsinə baxmayaraq, sanki o, bu gün də bizim müasirimizdir.

Məhəmməd Nəsrəddin Tusi 1201-ci il fevral ayının 17-də Azərbaycanın qədim şəhəri Həmədanda dünyaya gəlmişdir. Tusi barədə bir çox elm nümayəndələri çoxlu kitablar yazsalar da, biz bu yazıda çox qısa bəhs etməklə onun xələfi olan Uluq bəyin tədqiqat oxşarlığına nəzər salmağı lazım bildik.

Məhəmməd İbn Həsən ilk təhsilini atasından almışdır. Daha sonra o, İbn Sina və Bəhmənyarın davamçıları ilə əlaqə yaratmış və təhsilini başa çatdırmışdır.

Tusinin zəkasından xəbər tutan Kuhistan başçısı Nəsrəddin Möhtəşəm onu sarayına qonaq dəvət edir və xahiş edir ki, əxlaq barədə bir kitab yazsın. Tusi 34 yaşında olarkən ona dünya şöhrəti gətirən "Əxlaqi Nasir" əsərini tamamlayır.

Əsər hökmdarın xoşuna gəlmir və Tusi Ələmut qalasına sürgün edilir. O, bu sürgündə 12 il dözülməz şəraitdə yaşayır. Buna baxmayaraq, sürgündə ikən "Şərhül-İşarət" əsərini yazır.

1253-cü ildə Çingiz xanın nəvəsi Hülakü xan Ələmut qalasını tutur, Tusini və digər alimləri məhbusluqdan azad edir. Hülakü xan öz dövlətinə mərkəz olaraq ilk dəfə Marağanı, sonra Təbrizi seçir. Ölkənin idarə olunmasında Hülakü xana Tusi dəyərli məsləhətlər verir. Məhz belə bir vaxtda ölkənin mərkəzi 1260-cı ildən Azərbaycan ərazisində olur.

İsti münasibətdən istifadə edən Tusi Marağa ərazisində rəsədxana tikilməsinin faydalı olacağını xana bildirir və bu rəsədxananın tikilməsinə icazə verməyi-kömək göstərməyi ondan xahiş edir. Tusi Hülakü xana bildirir ki, ölkənin daxili həyatı bir çox hallarda xarici mühitdə baş verən hadisələrdən asılı olur. O bildirirdi ki, kiçik şeyləri və hadisələri nəzərə almamaq bir çox hallarda fəlakətə gətirir. Məsələn, qığılcım çox kiçikdir, ancaq o partlayışa, odlu silahların atəşinə səbəb olur. Damcı çox kiçikdir, birləşib yağış və sellər yaradır. Bu sellər kəndləri və şəhərləri su altında qoyur.

Nəhayət, tikintisi 1258-ci ildə başlayan rəsədxana 1259-cu ildə Tusinin başçılığı ilə Marağada açılır. Tusi şərq ölkələrindən: Hələb, Bağdad, Dəməşq və Misirdən kitablar gətirir. Rəsədxana ərazisində zəngin bir kitabxana yaradılır. Bəzi mənbələrə görə bu kitabxanada 400 000 əlyazması olub. Həmin dövrdə kitab nəşr etmə olmadığından, elmi fikirlər əlyazma şəklində saxlanılırdı. Bu əlyazmalar indi də Leypsik, London, Leninqrad, Moskva, İsveçrə və bir sıra ölkələrin yazı muzeylərində saxlanılır. Azərbaycan əlyazmaları fondunda Tusinin "Zic Elxani", "Təhriri Öqlidis" və başqa əsərlərindən nümunələr saxlanılır.

Əldən-ələ gəzən "Əxlaqi Nasiri" əsəri ilə yanaşı, Tusinin elmi əsərləri də bu gün elmi ictimaiyyətin köməyinə gəlir. Tusinin "Zic Elxani" əsərində hələ XIII əsrdə 256 şəhərin coğrafi koordinatları verilmişdir. Təsadüfi deyildir ki, dünya səyahətçisi Kolumbun müəllimi Toskanellinin bu cədvəldən istifadə etməsi barədə qeydlər elm tarixində əks etdirilmişdir.



Səyyahlar bu cədvəldən istifadə etməklə Amerika qitəsini daha asanlıqla kəşf etmişlər.

"Zic Elxani" əsərində təqvimlər, Ay və Günəşin tutulması, tutulma vaxtı, tutulmanın əhatə etdiyi ərazilər, ulduzların ekliptik koordinatları, presessiya hadisəsi əsaslandırılır. Bir faktı qeyd edək ki, Pekin və Səmərqənd rəsədxanalarında fəaliyyət göstərən alimlər, hətta Nikolay Kopenik də Tusinin müəyyən etdiyi presessiyanım qiymətindən istifadə etmişlər. Tusinin "Təhriri Öqlidis" əsəri əsasən həndəsəyə aiddir. Onun riyaziyyata aid "Şəklül qita", "Hesablama məcmusu" adlı əsərləri dünya riyaziyyat aləminin diqqətindən kənarda qalmamışdır. Belə ki, 1963-cü ildə Moskvada nəşr olunmuş "Tarixi riyazi tədqiqatlar" əsərinin XV buraxılışında N.Tusinin "Hesablama məcmusu" əsərindən bir hissə - XI bölmənin tərcüməsi verilmişdir.

Tusinin "Təhriri əl Məcəsti" və "Təsukiriyi Nəsiriyyə" əsərləri planetlərin hərəkətinə həsr edilmişdir.

Tusi təbiətdə maddənin və hərəkətin saxlanılmasına dair ilk fikir söyləyənlərdəndir. Tusi 1274-cü ilin iyun ayının 25-də - 73 yaşında vəfat etmişdir.

Azərbaycanda Tusi həmişə diqqət mərkəzində saxlanılır, elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Onun haqqında 30-a qədər kitab yazılmışdır. 14 samballı əsərin müəllifi olan Tusinin əcdadları indi Naxçıvanda - Ordubadda yaşayırlar. Şamaxı ərazisində Pirquluda inşa edilmiş Astrofizika rəsədxanası Tusinin adını daşıyır. Bu rəsədxana dünya rəsədxanaları arasında layiqli yerini tutmuşdur. Tədqiqat teleskopunun Almaniyadan gətirilmiş 2 metrlik linzası buna sübutdur.

Tusinin elmi nəticələri bir sıra tədqiqatçılar, xüsusən, onun elmi xələfi sayılan Uluq bəy tərəfindən davam etdirilmişdir.

Elm və mədəniyyətin Tusidən tutmuş Uluq bəy Timura qədər Azərbaycan və müsəlman ölkələrindəki vəziyyətinə ekskurs edək. Elm tarixinə nəzər yetirdikdə diqqəti cəlb edən bir cəhət daha maraqlıdır. Orta əsrlərə qədər dövlət başçıları özləri də elmlə məşğul olmağa maraqlı olublar. Bunlar çoxdur, ancaq b.e.ə. Miletli, Fales, b.e. X-XIV əsrlərdə yaşamış Bruni və Əlxəzan Uluq bəyin adlarını oxucuya çatdırmaqla kifayətlənirəm. Haqqında müxtəsər məlumat verəcəyimiz Muhəmməd Torağay Uluq bəy, Əmir Teymurun sülaləsindən olan elm və dövlət adamı olub.

1447-ci ildən başlayaraq o, böyük bir sülalənin, Teymurilər sülaləsinin başçısı olub.

Uluq bəy 1394-cü ildə Novruz bayramı günündə - mart ayının 22-də anadan olub. O, iki böyük nəslin, həm Əbu Reyhan Bruninin, həm də Əmir Teymurun sülaləsindəndir.

Uluq bəy hələ uşaqlıqdan iti zəkası ilə diqqət çəkirdi. Belə ki, kiçik Timur 10-12 yaşında olarkən Qurani-Kərimi əzbərdən söyləyərdi. O, uşaqlıqdan bir arzu ilə, ulduzlara getmək arzusu ilə yaşayırdı.

Uluq bəy cavan ikən Səmərqəndə hakim təyin edilir. Onu da nəzərə almaq lazımdır ki, Səmərqənd həmin dövrdə dünya şəhərləri arasında öz gözəlliyi və əzəməti ilə fərqlənirdi. Həm də Teymurilər məmləkəti çox böyük ərazini tuturdu. Burada, necə deyərlər, Günəş ölkənin bir tərəfindən doğanda əks tərəfində batırdı.

Uluq bəy Səmərqənddə mədrəsə açır və zəkalı elm adamlarını bu mədrəsədə dərs deməyə dəvət edir. Uluq bəy özü də yaratdığı bu mərkəzdə elmlə məşğul olur. O, astronomiya sahəsi ilə daha çox maraqlanır. Elə buna görə də astronomik hesablamalar aparır, göy cisimlərinin hərəkətini müşahidə etmək məqsədilə cihazlar düzəldir və başqa elm mərkəzlərindən yaratdığı Rəsədxana üçün cihazlar alır. Rəsədxana 1420-ci ildə tikilməyə başlayıb, 1428/29-cu ildə istifadəyə verilib.

Həmin vaxtlar Uluq bəyin apardığı müşahidələr ona ulduz kataloqu tərtib etməyə imkan yaradır. Onun yaratdığı ulduz kataloqu uzun müddət dünyaya astronomların əlində ən mötəbər kataloq kimi tanınmışdır.

Uluq bəyin tərtib etdiyi ulduz cədvəli 5 hissəli iki astronomik kitabda nəşr edilmişdir.

Bu kitablar bir neçə dilə tərcümə edilməklə, London, Paris, Florensiya, Cenevrə və b. şəhərlərin elm muzeylərində saxlanılır.



Uluq bəyin cədvəlləri o qədər heyranedici idi ki, bir sıra alimlər ona şübhə ilə baxır, onun bir insan zəkasının məhsulu olduğuna inanmırdılar.

Bütün bu şübhələrə rus alimi Vyatkin 1908-ci ildə son qoydu. Vyatkin arxivləri nəzərdən keçirərək, bir təpədə qazıntı işləri apardı. Bu iş xeyli vaxt çəkdi. Vyatkin rəsədxananın qalıqlarını və bir sıra astronomik müşahidə üçün olan cihazları tapdı. Beləliklə də, Uluq bəyin elmi cədvəlləri və onun yaratdığı rəsədxana barəsində şübhələr rədd edildi və həqiqət üzə çıxdı.

Uluq bəyin həyatının son vaxtları çox faciəli olub, belə ki, aqressiv din xadimləri və bir sıra gözü götürməzlər onun Məkkəyə getməsinə qadağa qoyublar.

Elm tarixinə öz əməlləri ilə şərəfli adını yazdırmış Uluq bəy 1449-cu ilin oktyabr ayının 27-də ömrünü sona çatdırır.

Dahi Nizami belələri üçün demişdi:

*Qızılı udsa da qara torpaqlar,*
*Yenə öz qiymətin özündə saxlar.*

**Fərman Qocayev**
***"Ümumi və nəzəri fizika" kafedrasının dosenti, fizika üzrə fəlsəfə doktoru***

# ŞAHMAT OYUNUNUN YARANMASI VƏ İNKİŞAF TARİXİ

Hind tarixçiləri şahmatın adını ilk dəfə 570-ci ildə çəksələr də onun tarixi daha qədimdir. Vətəni Hindistan olan şahmat oyununun təqribən iki minillik maraqlı bir tarixi vardır. İki min il ərzində şahmat oyunu zamanın imtahanlarından çıxa bilmiş və nəhayət feodal qəsrlərindən aşaraq dünya xalqlarının mədəni həyatında özünə layiqli bir yer tutmuşdur.

Şahmatın yaranmasına dair bir çox maraqlı əfsanələr vardır. Bu əfsanələrdən birini nəzərdən keçirək. Qədimdə zülmkar bir hind knyazı var imiş. O, adi adamlarla hesablaşmaz, onları aciz bir məxluq, özünü isə qüdrət sahibi sayarmış. O, zənn edərmiş ki, ətrafdakıların köməyi olmadan da o, hökmranlıq edə bilər. Knyazın bu cür ədəbazlığını görən ağıllı bir hindli düşünüb elə bir şey icad etmək istəyir ki, knyaz onu görcək öz əməllərini göz qabağına gətirsin və başa düşsün ki, ən qüdrətli hesab edilən hökmdar xalqsız aciz bir adamdır. Ağıllı hindli şahmatı icad edib onu knyaza hədiyyə aparır. Knyaz şahmatı qabağına qoyub fiqurları deyildiyi kimi düzür və oynamağa başlayır. Knyaz görür ki, iki düşmən qoşunu üz-üzə dayanmışdır. Qoşunların başçısı şahdır. Onun bir vəziri, iki topu, iki fili, iki atı, səkkiz piyadası vardır. İki qoşun arasında başlanan döyüş bütün qüvvələrin işə salınmasını tələb edir. Mübarizənin qızğın çağında şah adi piyadaların köməyinə ehtiyac hiss edir. Şahlar bəzən özlərinin piyadaların arasına salıb ölümdən yaxasını qurtarmaq üçün onlara pənah gətirirlər. Oyunun hər hansı bir pilləsində piyadalardan hünər göstərib səkkizinci üfüqi xəttə çatan vəzirliyə qədər yüksələ bilir. Knyaz görür ki, qüdrətli hesab edilən şahın hər addımbaşı köməyə ehtiyacı vardır və beləliklə, şahın özü əslində fərasətsiz bir şəxsdir. Knyaz şahmatın doğrudan da mənalı oyun olmasını öz gözü ilə görsə də onun sirrini başa düşmür.O, hindlinin gizli nəsihətini anlaya bilmədən əmr edir ki, bu oyun müqabilində ona nə istəsə mükafat versinlər. Hindli şahmat taxtasının birinci xanasına bir buğda dəni, ikincisinə 2 buğda dəni, üçüncüsünə 4, dördüncüsünə 16, beləliklə cəmi 64 xana üçün hər bir xananı iki dəfə artırmaq şərtilə ona buğda dəni verilməsinin tələb edir. Knyaz əvvəlcə bunun az olacağını zənn edib gülür. Lakin onun adamları bunu hesablıyıb görürlər ki, bu qədər taxılı əldə etmək üçün nəinki Hindistanın, bütün dünyanın taxıl ehtiyatı çatmır. Nəticə knyazı və xalqi heyrətə bürüyür.

1894-1921-ci illərlə şahmat üzrə dünya çempionu olmuş E.Lasker şahmatın yaranması barədə demişdir: "Şahmat həqiqi müharibə təcrübəsindən götürülmüşdür. Lakin şahmatda qüvvələr həqiqi müharibədəki qüvvələrdən fərqli olaraq bərabərdir. Görünür şahmatı düzəldən adam ədalətli olduğundan ədalətli də oyun düzəltmişdir ki, tərəflərin qüvvəsi bərabər olsun və beləliklə də güc deyil ağıl qələbə çalsın, digər tərəfdən şahmatda nəhs ilə zərbə endirilir. Əsil müharibədə isə bir tərəf o biri tərəfə hətta fürsət də vermək istəmir. Mən istərdim ki, yeganə döyüş meydanı şahmat taxtası kimi olsun".

Şahmat uzun və çox mürəkkəb bir inkişaf yolu keçmişdir. Belə güman edilir ki, təqribən iki min il bundan əvvəl Hindistanın Pəncab və Kəşmir əyalətlərində şahmatın ilk forması çətrəng yaranmışdır. Qədim hind ordusunun



dörd tərkib hissəsini özündə əks etdirən çətrəng oyununu dörd nəfər oynayırmış. X əsr Xarəzm alimi Əl-Biruni Pəncabda çətrəng oyununu görmüş və onun təsvirini vermişdir.

IV-V əsrlərdə Hindistanın Orta Asiya ilə sərhəd olan ərazisində çətrəngin təkmilləşmiş formasına təsadüf edilir.Belə güman edilir ki, çətrəng Hindistandan Orta Asiya və İrana gətiriləndən sonra burada yeni formaya düşmüşdür ki, buna da "şətrənc" deyilir. Şətrəncdə şah, top, at indiki kimi hərəkət etsədə vəzir ancaq dioqanal boyu bir xana, fil isə dioqanal boyunca bir xanadan tullanıb o birisinə düşürdü. Buna baxmayaraq şətrənc müasir şahmata doğru ikinci pillə hesab edilə bilər. Şətrəncdə zər ilə deyil tərəflər öz bacarıq və məharətləri sayəsində oynamağa başlayırlar. Kim kimin daşlarını məhv etsə o da qalib gəlirdi. Ərəb alimi Əl-Ədli yazır ki, Orta Asiyadakı şətrənci hindlilər bilmirdilər. Deməli çətrəng məhz Orta Asiyada inkişaf edib şətrənc halına düşmüş və sonra yenidən Hindistana aparılmışdır.

VIII-XI əsrlərdə isə bir sıra qüvvətli şahmatçılar meydana çıxmışdır. Bunlardan tacik Əbuhafiz, Cabir Əl-Kufə, Əbu-Nəim Ənsari, xarazimli Zöhrab Kətan, Əl-Razi, Serahşi, Məvərdi gözəl şahmatçılar kimi bütün Şərq ölkələrində tanınmışdılar. Məxəzlərə görə Şərq aləmində ilk böyük şahmat yarışı 819-cu ildə, Xorasanda xəlifə Əl-Mömini hüzurunda keçirilmişdir. Bu yarışda Cabir Əl-Kufi Zöhrab Kətan və Əbul-Cəfər iştirak edirdilər. Şahmat həvəskarı olan xəlifə Əl-Məmun onların məharətini görərək demişdir: Təəccüblü işdir ki, mən Şərqdən qərbə kimi dünyanın bir çox yerlərində hökmranlıq etmişəm, amma şahmat taxtası üzərində bu otuz iki daşın öhdəsindən gələ bilmirəm.

IX əsrdə Əl-Ədli şahmata dair iki kitab yazıb, özü də məşhur bir şahmatçı kimi çıxış etmişdir. Əl-Ədli xəlifə Mütəvəkkilin yanında keçirilən yarışda qalib gəlmişdir. X əsrin görkəmli ərəb alimi Əl-Məsudi qeyd edir ki, Əl-Ədlinin şətrənç haqqında kitabı o dövrdə qiymətli bir dərslik idi.

X əsrdə yaşamış türkmən Əbubəkr Əs-Suli mahiyyət etibarı ilə dünya çempionu hesab edilməldir. Belə ki, o bir sıra məsul yarışlarda öz dövrünün demək olar ki, bütün qüvvətli şahmatçılarına qalib gəlmişdir. Əs-Suli şahmata dair iki cildlik kitab yazıb onu mükəmməl təhlil etmişdir.

**Kifayət Hüseynova**
***"Bədən tərbiyəsi və idman" kafedrasının baş müəllimi***

# YOLLAR VƏ YOLÇULAR

Hələ uşaqkən çox sevdiyim və dilimdən heç düşməyən bir şeir vardı: "Dünyada yollar çoxdur, Sayı hesabı yoxdur ". Hər səhər məktəbə gedərkən söylədiyim bu şeir mənim üçün "himnə" çevrilmişdi. O zamanlar yollar mənim üçün dar bir mənanı, ancaq gediş-gəliş üçün ayrılmış yeri ifadə edirdi. Bu gün isə yollar haqqında başqa şeylər düşünürəm.

İndi nəzərimdə yollar döngədöngə uzanaraq sanki sonsuzluğa doğru gedir. Bu yolların bir də yolçuları vardır, aşıb-daşan sular, ağlayan buludlar kimi... Çaylar kimi başını daşdan-daşa vuraraq sonsuz ümmanlara doğru qaçar. Bitib tükənmək bilməyən bu əbədi yolçuluq bir an olsun durmadan davam edir. Günəşlər ölkəsindən torpağın bağrına və oradan da yenidən ulduzlar aləminə köç edər bütün varlıqlar!..



Canlıların aldıqları nəfəsin sayı qədərdir yollar. Hər varlıq özünə xas olan bir yolda hədəfindən ötrü qaçar. Soxulcan sürünərək qət edər yolunu. Tısbağa addım-addım irəliləyər öz yolunda. Atlar qaçaraq, quşlar qanad çırparaq gedərlər yollarında. İldırımların ayrı bir səyahəti, günəşin, ayın bir ayrı gedişi var bu yollarda...

Amma əsl yol isə insanla birlikdə yaranmış, onun şüuruyla aydınlığa qovuşaraq, onun duyğu və düşüncəsiylə sonsuzluq qazanıb. Çox qəribədir ki, yolsuzluq da insanla birgə yaranmış və bir an olsun belə onun yaxasını buraxmayıb. Hər dövrdə ulduzlara səyahət edənlərlə birlikdə bataqlıqda yol axtaranlar da az olmayıb.

Əslində yollar getdiyi yolun ədəb-ərkanını bilənlər üçündür. Hər günü ayrı bir vəsvəsə ilə keçənlərə isə yolun varlığı və ya yoxluğunun heç bir əhəmiyyəti yoxdur. Hədəfinə çatmaq üçün yolda sağlam addımlarla irəliləmək ilk şərtdir. Amma bəzən eyni yolun bir çox eniş-yoxuşları, dərə-təpəsi, çətinliyi və əzabı da olur. Yalnız yolunu sevgi və ümidlə gedənlərə, öz doğru bələdçilərini tapanlara qarşılarına çıxan dağlar düz, düzlər isə hamar olar. Belə insanlar qanlı, fırtınalı dənizləri şimşək kimi aşıb gedərlər. Onların ilişib yolda qalmaları, yaxud da öz məqsədindən imtina edib geriyə dönmələri mümkün deyildir.

Bir də hədəfindən imtina edib geri dönənlər, gündüz vaxtı yolunu itirənlər, bir tikana ilişib də qalanlar, qarşılarına çıxan cüzi maneələri belə aşa bilməyənlər də vardır bu yollarda. Yolda düzgün getməyin həzzini yaşamamış və bu fani dünyanı əbədi zənn edərək burada sonsuza qədər qalacağını düşünənlərə getdikləri səkilərin ulduzlarla bəzədilməsinin belə heç bir mənası yoxdur.

Unutmayın, hər yolun səfası olduğu kimi cəfası da vardır. Hələ bu yol əbədiyyətlə qucaq-qucağa, iç-içə isə... Hər səadət aşılması çox çətin olan sıldırım təpələrin arxasında və hər nemət isə min imarət olan uzun bir yolun son dayanacağındadır. Çətinlikləri görmədən və dadmadan əsl xoşbəxtliyə qovuşmaq olmaz.

İnsanın ruhu cismi ilə qovuşaraq dünyaya gəldiyi ilk gündən bəri qəlibdən qəlibə girər, əziyyət çəkər, əzab-əziyyətlə dirilər, bütünləşərək əbədi səadətini ilmə-ilmə toxumağa çalışır. İnsan çətinliklər üçün yaradılmış və yolunu çoxlu iztirabların gözlədiyi bir yolçudur. Onun əsl qəhrəmanlığı isə yolundakı çətinliklərə qalib gələ bilməsi ilə bağlıdır.

Öz xalqına xidmət edə bilmək üçün yolda mətin addımlayanlar bu həqiqətləri ruhuyla duya bilən insanlardır. Həyatın əsl fəlsəfəsi də elə bu yoldan, xalqa xidmət etmək yolundan başlayır. Bu fəlsəfəni anlamayanlara isə nə yoldan nə də yolçudan danışmağın faydası yoxdur, elə deyilmi?

**İlahə Allahverdiyeva**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# MƏNİ İSTƏYİMƏ APARAN YOL

Uşaqlıqdan bəri jurnalist olmaq həvəsində idim. Hələ uşaq ikən nəyisə götürər, onu mikrofon edib, guya xəbər aparıcısı kimi danışardım. İlk dəfə məktəbə gedəndə müəllim sual verdikdə belə cavablamışdım: "Mən şagird deyiləm, jurnalistəm"!

Gün keçdikcə daha da həvəslənir,oxumaqdan yorulmurdum. Çünki mənim gələcəkdə arzum, amalım var idi. Məni bu yolda yorulmadan irəliləməyə qəlbimdəki həvəs aparırdı. İllər sürətlə keçir, aylar-illəri əvəzləyirdi. 11-ci sinfi bitirirdim artıq, qarşımda isə həyatımı həll edəcək imtahan var idi. Bu imtahanı keçmək üçün, qəlbimdəki amala çatmaq üçün çox çalışırdım, gecələri yatmadım, oxuyurdum... Oxuyurdum dayanmadan, ancaq oxuyurdum. İmtahana bir gün qalmış özümdə qəribə hal hiss etdim. Elə bil arxadan başıma kimsə vurmuşdu, birdən-birə bütün bildiklərimi unutmuşdum. Sabah imtahandır və mən illərdir öyrəndiklərimin bir anda yadımdan çıxdığını düşünürdüm. O an çıxış yolunu əziz və dəyərli müəllimim, Cəbrayıl müəllimin yanına getməkdə gördüm. Yarım saatlıq söhbətdən sonra, sanki quş qanadında uçurmuş kimi gəlib yatdım. Birdə oyandım ki, artıq imtahan getmək vaxtıdır. İçimdəki qorxu, həyəcan məni titrədirdi, elə bil imtahan zalına yox, uçuruma gedirdim. İmtahana daxil olduqdan sonra yavaş-yavaş yazmağa başladım. Bütün tapşırıqları həll etdim. Artıq sadəcə cavabların bəlli olmasını gözləməliydim. Cavablar bəlli olana qədər ruhum qocaldı, sanki kainat hər gün üzərimə uçurdu. Hər gün qorxu-qorxu oyanırdım. Nəhayət cavablar bəlli oldu, mən Naxçıvan Dövlət Universitetinin jurnalistika ixtisasına qəbul oldum.Çox sevindim, lap çox. Çünki həsrətində olduğum, sevdiyim sənətə yiyələnəcəkdim.



Beləcə, artıq mən yola düşdüm. Naxçıvana təyyarə ilə gəldim. Yad bir şəhərdə tanımadığım insanların arasında özümü tənha hiss edirdim. Bir neçə gün evimdən uzaq bu şəhəri seçdiyim üçün sanki peşiman olmuşdum. Lakin Universitetə gəldiyim ilk gündə düşüncələrim dəyişdi, nə yaxşı ki, burdayam, deyə fikirləşdim...İndi çox xoşbəxtəm, çünki mən sevdiyim yerdə, arzuladığım ixtisasa yiyələnirəm. Əziz insanlar, qarşınıza çıxan kiçik əngəllərdən qorxmayın, sizi güclü edən o əngəllərdir.

**Əli Yariyev**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

# "MƏNƏVİ SƏRVƏTİMİZ - ANA DİLİMİZ"

Ana dili həyat cövhərimizdir, milli mədəniyyətimizin bünövrəsidir. Müdriklərimiz də əbəs yerə deməyiblər: " Dil xalqın anasıdır". Bu baxımdan dilin təəssübünü çəkmək, milli mədəniyyətin ümumiyyətlə tariximizin keşiyində dayanmaq deməkdir. Axı, dil dünənimiz və bugünümüz deyil, həm də sabahımızdır. Dilimizin hərtərəfli inkişafı, onun rəsmi dövlət dili statusu alması, beynəlxalq münasibətlər sisteminə yol tapması, xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər dil siyasətinə mühüm əhəmiyyət vermiş və demişdir: "Dilimiz çox zəngin və ahəngdar bir dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm".

Hər bir xalqın ana dili o xalqın milli varlığı və yaşamaq haqqıdır. Azərbaycan dili xalqımızın milli varlığının əsasını təşkil edir. Bu dilin çoxəsrlik tarixi vardır. Ədəbiyyatımızın möhtəşəm abidələri "Kitabi-Dədə Qorqud" eposu, "Koroğlu" dastanı məhz bu dildə yazılmışdır. Mənim Ana dilim! Bu o dildir ki, gözümüzü dünyaya açan gündən o ana südü, ana laylası ilə birgə beynimizə süzülür, yaddaşımıza həkk olunur, canımıza, qanımıza hopur, ruhumuzu qidalandırır. Ana dili ömrümüzə məna verən, onu gözəlləşdirən əxlaq dərsliyidir. Bu adicə bir ifadə deyil, ürəkləri hərarətə gətirən, insanı öz keçmişinə bağlayan, gələcəyə səsləyən mənəvi xəzinədir. Harada yaşamasından asılı olmayaraq, milyonlarla soydaşımızın mədəni inkişaf və ünsiyyət vasitəsi olan dilimiz, tarixən böyük inkişaf yolu keçmiş, zaman-zaman müxtəlif təqib və təzyiqlərə məruz qalmış lakin öz varlığını qoruyub saxlaya bilmişdir. Bu gün 50 milyondan artıq insan bu dildə danışır.

Bizim ana dilimiz həm də poeziya dilidir, lətif və şairanədir. Həqiqətən də şair və yazıçılar bu dili poeziya dili kimi şirinləşdirmiş, ona əbədiyaşarlıq bəxş etmişlər. Füzuli, Xətai, Nəsimi, Vaqif, Səməd Vurğun, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Məmməd Araz ana dilimizin inkişaf etməsində əvəzsiz xidmətlər göstərmiş və ömürlərini bu yolda sərf etmişlər. Şəhriyar nahaq demirdi ki:

*Türkün dilitək sevgili, istəkli dil olmaz,*
*Ayrı dilə qatsan bu əsil dil əsil olmaz.*
*Fars şairi çox sözləri bizdən aparmış*
*Sabir kimi bir süfrəli şair pəxil olmaz.*

Həmçinin Azərbaycan dilinin gözəlliyi orasındadır ki, XIII əsr Azərbaycan şairi olmuş İzzəddin Həsənoğlu bu gündə aydın başa düşülür:

*Apardı könlümü, bir xoş qəmər üz canfəza dilbər,*
*Nə dilbər, dilbəri şahid, nə şahid, şahidi sərvər.*

Azərbaycan dilinin bədii ifadə imkanları olduqca zəngindir. Bu dildə hər kəlmənin neçə məna çalarları vardır. Ədəbiyyatımızın görkəmli söz ustaları bu ifadə imkanlarından istifadə edərək onun gözəlliyini, zənginliyini nümayiş etdirmiş, öz ölməz sənət əsərləri ilə Azərbaycan dilini ən yüksək zirvəyə qaldırmışlar. "Ana dilini xalqın varlığının mənəvi pasportu" adlandıran Bəxtiyar Vahabzadə demişkən:




*Bu dil bizim ruhunuz, eşqimiz, canımızdır,*
*Bu dil bir-birimizlə əhdi-peymanımızdır.*

Dil və xalq ayrılmaz məfhumlardır. Xalqın tarixi taleyini onun dili də yaşayır. Hələ XVI əsrdə Səfəvilər dövlətinin banisi, dahi Azərbaycan şairi və hökmdarı Şah İsmayıl Xətai Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırmış və demişdir: "Ey türk oğulları! Babalarımızdan bizə 3 şey yadigar qalmışdır. Dilimiz, torpağımız, qeyrətimiz.

Dil milli mədəniyyətin təzahürüdür. Hər birimiz öz doğma dilimizi dərin bilməli, onun incəliklərinə yiyələnməli, qorumalı və gələcək nəsillərə çatdırmalıyıq.

**Gülarə Babayeva**
***Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası və metodologiyası üzrə I kurs magistrant***

# GÜLLƏR ÖMRƏ BƏZƏKDİR

Bizi əhatə edən təbiət, ətraf aləm əsl gözəllik məbədidir. O, özünəməxsus səsi ilə və möhtəşəm rənglər palitrası ilə sonsuzdur. İnsanların həyatdan zövq alması, gözəllikləri görüb hiss etməsi üçün təbiət bizə çiçəkləri, gülləri bəxş edib. Çiçəklər təbiətin gözləridir-məxmər bənövşələr, qürurlu zanbaqlar, əzəmətli qızılgüllər, ağ kirpikli çobanyastığılar, ilk sevginin şahidi yasəmənlər, öz ətri ilə küləyin xəfif qanadlarında baharın müjdəsini verən nərgizlər…



Hər dəfə bu gözəllikləri görəndə, onların nə qədər fərqli, zərif, ətirli şahidi olursan. Sanki güllərin rəngarəngliyi müəyyən mənaların metaforasıdır. Gözümüzü oxşayan, qəlbimizə sevinc bəxş edən bu gözəl güllərin, çiçəklərin də öz aləmi, öz dünyası var. Yazda açılır, yayda ləçək-ləçək olur və ətrafa xoş ətir saçır bu güllər. Adicə bir gül kolunda nə qədər mənalı bir həyat var. Bütöv açılmış gül artıq öz ömrünü başa vurub budağından ayrılmaq, torpağın qoynuna düşmək üzrədir. Onun yanında başqa bir gül isə tər ləçəkləri ilə xoşbəxt bir halda dünyaya gülümsəyir. Digər bir qönçə isə nazlı gülüşləri ilə sanki dünyaya naz satır. Ömürləri az da olsa, çox da olsa gözəl bir ömür yaşayır bu güllər.

Hələ sarı çiçəklər sanki günəş parçasıdır, baxdıqca baxmaq istəyir insan bu çiçəklərə. Onları dərib evimizdə əziziləməkdən xüsusi zövq alırıq. Torpağın üzərində, yaşıl çəmənlikdə, sanki təbiətin hökmü ilə çiçək donunda ağ, sarı işıqlar yanır. Üzünü günəşə tutaraq sinəsində onun od rəngini alovlandıran qeyri-adi çiçəklər nə qədər füsunkardır! Məhz buna görə onların şanına mahnılar bəstələnir, şeirlər yazılır. Güllərin, çiçəklərin ecazkarlığına heyranlıq bəzən fırça ilə, bəzən də poetik ifadə vasitələri ilə öz əksini tapır. Bu gözəlliklərdən danışarkən Ömər Xəyyamın aşağıdakı misralarını xatırlayaq:

Səhərin mehindən açılıb güllər,
Gül-çiçək eşqilə ötür bülbüllər.
Zövq al bu bağçadan, çox belə güllər,
Yaradıb, sovurub torpağa illər…

Çiçəklər həmdə ən yaxşı hədiyyədirlər. Müxtəlif çiçəklərdən, güllərdən heyrətamiz kompozisiyalar yığıb, onları ən təntənəli anlarında yaxın insanlara təqdim edirik. Tək bir gül isə, diqqətin, rəğbətin və sevginin əlamətidir. Buket hədiyyə edən zaman onların mənalarını da nəzərə almaq lazımdır. Qadınların ən çox sevdiyi çiçəklərdən biri Çobanyastığı çiçəyidir. İstər gözəlliyi, istərsə də faydaları ilə xanımların sevgilisi olan bu çiçəyin mənası məsumiyyət, təmiz bir qəlbin öz hislərini ifadə etməsidir. Lalələr həyat, eşq və ölümsüzlüyün simvoludur. Həm görünüşünə, həm də mənasına görə xanımların sevimli güllərindəndir. Orxideya çiçəyi isə gözəlliyin, zərafətin simvoludur. Təbiətin bu füsunkar canlıları ömrümüzə bəzəkdir. Onları qorumalı və sevməliyik. Unutmamalıyıq ki, onların da ruhu var!

**Gülarə Babayeva**
***Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası və metodologiyası üzrə I kurs magistrant***

# DƏM QAZI NƏDİR VƏ ONDAN NECƏ QORUNMALI?

Son zamanlar ölkəmizdə dəm qazından zəhərlənənlərin və ölənlərin sayı getdikcə artır. Dəm qazından zəhərlənmənin insan üçün çox ciddi fəsadları var və bu cür zəhərlənmələrin ən təhlükəli tərəfi insanın dəm qazı sızmasını hiss etməməsi və asanlıqla huşunu itirməsidir.

Kimyəvi adı karbon-monooksid (CO) olan dəm qazı təmiz halda gözə görünməyən, rəngsiz, iysiz, dadsız; havadan yüngül, suda pis həll olunan qazdır. Dəm qazı natamam yanma məhsulu olub, güclü zəhərləyici xassəyə malikdir. Bu qaz üzvi maddələrin, o cümlədən, təbii qazın, neft məhsullarının və odun yanacağının natamam yanması nəticəsində əmələ gəlir. Çünki yanma tam getməyəndə dəm qazı karbon qazına çevrilə bilmir. Normal yanma zamanı isə dəm qazı tam yanaraq karbon 4-oksidə çevrilərək tüstü boruları vasitəsilə xaric olunur.

Məişətdə işlədilən təbii qazın əsas tərkib hissəsini metan qazı təşkil edir. Qaz sızması olarkən, onun iyini hiss etmirik. Təbii qazın yanması üçün normal hava çatmadıqda isə dəm qazı yaranır ki, bu da tez bir zamanda orqanizmi zəhərləyir.

Dəm qazı başqa yanacaq növlərindən istifadə zamanı da məsələn, kömür yandırılarkən yarana bilər. Onun əmələ gəlməsinin qarşısını almaq üçün yanma məhsulları olan otaqlarda tez-tez havanın dəyişdirilməsi, qızdırıcıların hava sorucu borularının yaxşı işləməsinə nəzarət etmək lazımdır.

Qapalı mühitdə qaz yandırılarkən mütləq nəfəsliklər açıq olmalıdır. Mütəxəssislər bunlarla yanaşı, təhlükəsizlik baxımından dəm qazı yarandıqda onu işarə verən müasir qaz cihazlarından istifadəni məsləhət görür.

Dəm qazı ilə yüngül zəhərlənmə zamanı zərərçəkəndə başgicəllənmə, baş ağrısı, quru öskürək, ürəkbulanma, qusma kimi əlamətlər meydana çıxır. Daha ağır zəhərlənmə zamanı isə qıcolmalar, huşun uzun müddət itirilməsi, beyin ödemi, ürəyin zədələnməsi baş verir. Yadda saxlamaq lazımdır ki, kiçikyaşlı uşaqlar, hətta, az miqdarda dəm qazından həyatlarını itirə bilərlər.

Dəm qazının orqanizmə öldürücü təsiri bununla izah olunur ki, o qanda tez bir zamanda hemoqlobinlə birləşir. Bu zaman toxumaların hüceyrələrinə oksigen daşınmır və oksigen qıtlığı nəticəsində insan huşunu itir. Həmin vaxt bədəndə süstlük əmələ gəlir, nitq tutulur.

***Dəm qazı ilə zəhərlənmə zamanı ilk tibbi yardım!***

Zəhərlənmə zamanı həyəcanlanmadan ilkin tədbirlər görmək lazımdır. İlk olaraq, zərərçəkəni dərhal açıq havaya çıxarmaq, əynindəki paltarın yaxasını, kəmərini və s. açmaq, ona yarıoturaq vəziyyət vermək (ağciyər ödeminin qarşısını almaq üçün) lazımdır.

Bundan başqa, zərərçəkənin alnına, sinəsinə soyuq kompres qoymaq, əgər zərərçəkən nəfəs almırsa və ürəyi dayanmışsa, ürəyin xarici masajı və süni tənəffüslə dərhal reanimasiya tədbirlərinə başlamaq lazımdır.

Əgər insanın huşu üstündədirsə, qızdırıcı içki, çay və ya kofe vermək lazımdır. Huşu özündə deyilsə, başını sağa-sola çevirib, ağız boşluğundakı seliyi təmizləmək lazımdır. İlkin olaraq, şirin çaya limon qatıb vermək olar.

Dəm qazı ilə zəhərlənmənin ilk əlamətləri meydana çıxan kimi, dərhal təcili yardım çağırmaq lazımdır.

Dəm qazı ilə zəhərlənmənin əlamətləri:

- başgicəllənmə
- başağrısı
- ürəkbulanma
- qulaqlarda küy
- qusma
- yuxululuq
- bəzən oyanıqlıq
- müvazinətin itməsi
- sayıqlama
- qıcolma tutmaları
- koma



Toksikoloqların fikirlərinə görə, dəm qazından zəhərlənmə hallarında ilkin tibbi yardımın köməyi ilə zəhərlənəni həyata qaytarmaq mümkündür: "Hər kəs bilməlidir ki, əgər yanacaq məhsullarının xaric olması üçün yer yoxdursa və ya həmin yer tutulubsa, natamam yanma nəticəsində dəm qazı əmələ gəlir. Ona görə də yanacaq yandırarkən çox ehtiyatlı olmalıyıq. Qaz iysiz, rəngsiz olduğundan insan bunu hiss etmir. Oksigendən fərqli olaraq, qazın havada az miqdarda olması belə kifayət edir ki, 5-6 dəqiqəyə insan zəhərlənsin. Dəm qazının oksigenlə birləşməsi nəticəsində karboksihemoqlobin yaranır. Məhz bu birləşmənin hesabına toxumalar oksigensizləşir, hipoksiya yaranır. Zəhərlənmə 3 dərəcədə - yüngül, orta, ağır ola bilər. Belə halda ilk növbədə zəhərlənən həmin sahədən çıxardılmalı, hipebarik oksigenasiya tətbiq olunmalıdır. Süni tənəffüs verilməlidir. Daha sonra zəhərlənənə amonium tərkibli məhlul iylətmək lazımdır".

Dəm qazı ilə zəhərlənmənin ilk əlamətləri meydana çıxan kimi təcili yardım çağırmaq lazımdır. Əgər ilk tibbi yardım düzgün yerinə yetirilərsə, sonrakı yardımlar həkimlər tərəfindən aparılacaq. Odur ki, zəhərlənən şəxsə həkim gələnə qədər göstərilən ilkin tibbi yardım mühüm, həyati əhəmiyyət kəsb edir: Əgər həmin şəxsin huşu özündədirsə, dərhal qapalı mühitdən təmiz havaya çıxarmaq lazımdır. Sonra ilk növbədə zərərçəkənin üstü örtülməlidir ki, bədən hərarəti düşməsin. Daha sonra mütləq mütəxəssisə müraciət olunmalıdır. Huşu özündə olmayan insanı da təmiz havaya çıxarmaq, ağız boşluğunu selikdən təmizləmək, nəfəs almasını bərpa etmək, süni nəfəs vermək lazımdır. Digər tədbirləri görmək üçün zərərçəkəni mütəxəssisə çatdırmaq zəruridir. Əgər insan sadə suallara reaksiya verir, cavablandırırsa, bu o deməkdir ki, onun huşu itməyib. Yox, cavab verə bilmirsə, reaksiya yoxdursa, hər an təhlükəli sayılmalıdır. Bu məsələdə hər saniyə çox önəmlidir. Vaxt itirilsə, beyin hüceyrələri, toxumaları ilə bağlı az bir zamandan fəsadlaşma başlayır. Bundan başqa, ən yüngül halda belə, dəm qazından zəhərlənən şəxs sonradan fəsadların yaranmaması üçün bir sutka ərzində həm toksikoloqun, həm də nevropatoloqun nəzarətində olmalıdır.

***Beləliklə, dəm qazından zəhərlənmə zamanı ilk yardım:***

1. Zərərçəkmiş şəxsi dərhal təmiz havaya çıxarın
2. Ağciyər ödeminin qarşısını almaq üçün onu yarı oturaq vəziyyətdə saxlayın
3. Dar paltarlarını soyundurun. Əynindəki paltarın yaxasını, kəmərini və s. açın
4. Ətraflarını və bədənini ovuşdurun
5. Başına və sinəsinə soyuq kompress qoyun
6. Əgər huşu özündədirsə, ona isti çay içirin
7. Əgər huşsuzdursa, naşatır spirtində isladılmış pambığı burnuna yaxınlaşdırıb iylədin
8. Əgər zərərçəkən nəfəs almırsa və ürək dayanmışsa, dərhal ürəyin xarici masajı və süni tənəffüs olunmalıdır.

Buna görə də qazdan zəhərlənmə və ölüm hallarının, eləcə də qaz partlayışlarının qarşısını almaq üçün evlərə detektorlar quraşdırılmalıdır. Xarici ölkələrdə bütün mənzillərə bu cihaz quraşdırılır ki, dəm qazı yarandıqda, qaz açıq qaldıqda abonentin xəbəri olsun. Çünki cihaz bu zaman siqnal verir. Bizdə isə təəssüf ki, çox az mənzildə detektor var. Hesab edirəm ki, bu cihazdan istifadə məcburi olmalıdır.

Beləliklə, əhali qazdan düzgün istifadə etməli, maarifləndirici məlumatlara diqqət yetirməlidirlər: "Dəm qazının yaranmaması üçün qaz cihazı saz və standartlara uyğun olmalı, cihaz olan məkanın hündürlüyü 2 metr 20 santimetrdən az olmamalı, havaçəkən sistem işləməli (tüstü bacaları), nəfəslik açıq olmalı, hamam otağında ventilyasiya borusu, qapının aşağısında ən azı 5-7 dəliklər olmalı, tüstü bacaları ildə iki dəfə təmizlənməlidir. Əks halda dəm qazı ölüm təhlükəsi yarada bilər.

**Oktay Rzayev**
***Çağırışa qədəki hazırlıq və mülki müdafiə kafedrasının müdiri, dosent***

# MİN BİR DƏRDİN DƏRMANI- ÇAY

İnsanlar bəzi bitkilərdən yeni birləşmələr əldə edərək ondan istifadə edirlər. Bir çox Şərq ölkələrində, xüsusən də ölkəmizdə sudan sonra ən çox istehlak edilən içki çaydır. Çay daha çox təvazökar məkanlarda istiliyi ilə çox ürəyə və söhbətə dərinlik qatar, "Buyurun bir stəkan çayımızı için"- sözləriylə başlayan dostluq qapısının açarıdır. Dost və həqiqət məclislərinin, elm və hikmət söhbətlərinin içkisidir çay. Söz sultanlarının kəlamları yaddaşlara həkk olunarkən onun hərarəti qəlbləri isidir. Soyuq qış günlərində bir stəkan isti çayla isinərkən, yayın istisində də hərarətimizi çayla söndürürük. Bəzən də çay bəhanəsiylə həsrətimizi söndürürük dost və sirdaşlarımızla.



Çay bitkisi əsasən tropik və rütubətli, çox yağışlı mülayim bölgələrdə bitir. Əhəngsiz asitlə zəngin torpaqları sevər. Bu şərtlərə sahib olan və dəniz səviyyəsindən yüksək olan bölgələrdə daha keyfiyyətli məhsul yetişdirmək olur. Çay bitkisinin böyüməsi üçün xüsusilə inkişaf mərhələlərində müntəzəm və davamlı yağış yağmalıdır. Bu bitkinin orta hesabla boyu 180 sm-dir. Bitki tək göyərdikdə isə 30 metrə qədər böyüyə bilir.

Vətəni Çin olan çay oradan Hindistana və Yaponiyaya, sonra Avropa və Rusiyaya, XVII əsrin sonlarında isə Yeni Dünyaya yayılıb. Çay bitkisinin ziyanvericisi olmadığından yetişdirilərkən heç bir dərmanlama aparılmaz.

Çay bizim eradan öncə III minillikdən bəri ictimai səbəblər və ya müxtəlif vərdişlər üçün istifadə edilən dərman bitkisidir. Çinlilərin çaya olan aludəlikləri, "Üç gün çaysız qalmaqdansa üç gün yeməksiz qalmağı seçərəm"- cümləsi ilə ifadə edilər.

Çay deyincə bir çoxlarımızın ağlına dərhal qara çay gəlir. Ancaq yaşıl çay yarpaqları da istehsal edilir və son illərdə evlərimizdə yaşıl çay öz yerini tutmağa başlayıb .

Qara və yaşıl çay eyni bitkinin yarpaqlarından əldə edilir. Lakin onların dadı və kimyəvi tərkibi saxlandıqları fermentasiya proseslərindən asılı olaraq çox dəyişir.

Qara çay yaşıl olaraq kəsilən yarpaqlar qaralana qədər rütubətli otaqlarda, soyuqda saxlayaraq əldə edilir. Aparılan araşdırmalar zamanı məlum olub ki, bu prosedur zamanı çayın tərkibində olan maddələrin çoxu, xüsusilə də xərçəng xəstəliyinin əmələ gəlməsinin qarşısını alan maddələr güclü antioksidantlarla birləşərək bu xüsusiyyətlərini müəyyən dərəcədə itirir. Buna görə də yaşıl çay qara çaydan daha faydalıdır. Çay bitkisinin faydalarından yararlanmaq üçün onu yaşıl çay olaraq istifadə etmək daha məqsədə uyğundur.

Tərkibi C və E vitaminləri ilə zəngin olan çay eyni zamanda damar sərtliyinin meydana gəlməsinə mane olur. Çayın xərçəngə qarşı qoruyucu təsiri antioksidant xüsusiyyətindən irəli gəlir. Bundan əlavə çayın tərkibində olan xüsusi maddələrin digər faydası isə qandakı yağların damarlarda və ürəkdə qalıcı zərərlər yaratmasına mane olmaqdır. Araşdırmalar zamanı sübut edilib ki, lazımı miqdarda çay içildiyində qanda xolesterinin səviyyəsi aşağı düşür. Çinli alimlərin apardığı tədqiqat zamanı çay içənlərin içməyənlərdən iki qat artıq xolesterinli qidalar yeməsinə baxmayaraq onlarla eyni xolesterol səviyyəsinə sahib olduqları məlum olmuşdur.

Çayın digər faydaları sırasında ağız qoxusunu aparması, tərkibindəki C vitamini ilə soyuqdəymə və qripin qarşısının alınması, "Tip 2" adlandırılan şəkər xəstəliyindən qorumaq, vücudun suya olan ehtiyacını eyni ölçüdə saxlamaq, stress və yorğunluğu azaltmaq, qanda laxtalanma riskini azaltmaq, çay yarpaqlarında olan florid sayəsində diş çürüməsinə qarşı dişləri qorumaq xüsusiyyətlərini sadalamaq olar.

Amma hər şeydə olduğu kimi çayın da normadan artıq istifadəsi faydadan çox zərər verə bilər. Gün ərzində 10 stəkandan artıq çay içildikdə qəbul etdiyimiz qidalardakı dəmirin sorulmasını vacib bir ölçüdə azaldır. Nəticədə dəmir azlığı anemiyası (yəni qansızlıq) yaranır. Çayı limonla birlikdə içmək isə onun dəmirbağlayıcı təsirini azaldır.

Allah hər varlığı kainat sistemi daxilində bir vəzifə üçün yaratmışdır. İnsanların bu möcüzəvi sistemdə istifadə etdiyi çay şüurlu şəkildə istifadə edildikdə bizim üçün faydalı bir bitkidir. Çayın faydalarından yararlanmaq üçün dəmləmə üsullarına da diqqət etmək lazımdır.

Çay xarici qoxulardan və rütubətdən uzaq, quru və ağzı bağlı qabda saxlanılmalıdır. Çayın tez soyumaması və daha ətirli olması üçün saxsı çaynikdə dəmləmək lazımdır. Əvvəlcədən qızdırılan çaynikə hər stəkan su üçün bir çay qaşığı çay tökmək və bir az gözlədikdən sonra qaynamış su əlavə etmək məsləhət görülür. Çay bütün ləzzətini ortaya çıxarsın deyə ən azı 5-7 dəqiqə gözləməli və yarım saat içində istifadə edilməlidir.

Bütün deyilənlərə əməl etməklə becərilməsi, yığılması, istehsalı əmək tələb edən lakin bizim istifadə etdiyimiz içkilər arasında ən asan hazırlanan çayın faydalarından yararlanmaq olar.

**İlahə Allahverdiyeva**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# "CƏVİZ AĞACI"

Gözəl bir payız səhəri yavaş-yavaş açılırdı. Oyanan günəş öz şüaları ilə qızılı yarpaqlarına boyanmış təbiəti canlandırırdı. Səmada üzən buludlar zaman-zaman payız günəşini öz arxalarında gizlətməyə çalışırdılar. Lakin günəş yenidən sanki rəssam kimi fırçanı əlinə alıb hər şeyi rəngləyirdi.

O, gözlərini ovuşdura-ovuşdura yerindən qalxdı. Demək olar ki, bütün gecəni bugünki günü xəyalında canlandırmışdı. Bu gün ilk dəfə anası ilə bərabər cəviz ağaclarından ibarət kiçik bir bağ salacaqdı. Bu yerlərin torpağı cəviz ağacları üçün əlverişlidir. Kök saldığı torpaqda ağaclar təbiətin bu yerlərə bəxş etdiyi şirinsulu bulaqlardan qidalanır, qolqanad açırdılar.

Anasının təndirdə bişirdiyi " tapı" nın ( yağlı kökə) iyi bütün evə yayılmışdı. Yenicə qurulmuş odun sobasının üzərində çay dəmlənirdi. Səhər süfrəsi hazırlanırdı. Nəhayət səhər yeməyindən sonra cəviz ağacları əkiləcəkdi.

O, həyətə düşdü, əllərinu yudu. Payızın nəfəsini canında hiss etdi. Əsən zəif külək xəzəli saralmış yarpaqları sovuraraq, o küçədən bu küçəyə aparırdı. Sanki ağacların arasında dolaşaraq həzin payız nəğməsini səsləndirirdi.. Quşlar da öz cəh-cəhləri ilə bu nəğməyə qoşulurdular. Şən sərçələr ucadan cikkildəyir, payızın son günlərində sevinirdilər. Gah budaqdan budağa tullanır, gah da həyətdə bacada uçuşurdular. Əsəd əzəldən bəri payızı sevirdi, çünki payız həm də bolluq, bərəkət fəsli idi.

—Əsəd, ay Əsəd, harda qaldın, a bala? Gəl çörəyini ye, işimiz çoxdu.

Anasının səsi onu xəyallardan oyatdı. Tez evə qalxıb bardaş qurub əyləşdi. Bacısı Nərgiz artıq çayları süzmüşdü. Süfrədən bir tapı götürdü, arasını kəsdi, yağ yaxdı. Tapı hələdə isti olduğundan yağ arasında əridi. Əsəd ləzzətlə şirin çayla tapıdan yedi.

—Sağ ol Anacan, ağzımız dada gəldi.

—Nuş olsun, bala, yedinsə dur işimiz çoxdu. Nərgiz, sən süfrəni yığışdır, bala, biz getdik.

Budur artıq cəviz ağacları əkilməyə hazır idi. Əsəd payızın əvvəlindən ağac üçün yerləri bəlləmiş torpağı yumşaltmışdı, lazımı bütün qulluqları göstərmişdi. Babası həmişə deyərdi ki, torpaq deyər öldür məni dirildim səni.



Ağacın yeri anası təyin elədi, tingi salıb, ətrafını basdırdılar. Beləliklə 10 -a yaxın cəviz tingi əkdilər. Əsəd çox sevinirdi, axşamdan bəri bu mənzərəni düşünürdü, artıq kiçik cəviz ağacları torpağa lövbər salaraq hər yana qulacqulac qol-budaq atacaqdılar. Kim bilir, bəlkə də Əsədin balaca qardaşının toy mağarı da bu ağacların altında qurulacaqdı.

…Gündoğan tərəfdən xəfif meh əsir, arabir yağış çisələyirdi. Ağaclarda sarı-qırmızı işıqlar kimi yanan almaların yanağını isladırdı.Hava tutqun və bozumtul idi. Hər il olduğu kimi, bu il də cəviz ağacları bol məhsul gətirmişdi. Lakin Əsəd heç nə ilə maraqlanmırdı. Ona elə gəlirdi ki, sanki içində tənha bir yalquzaq ulayır, xəyalı anali günlərini, şirin xatirələri gəzirdi…

**Gülarə Babayeva**
***Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası və metodologiyası üzrə I kurs magistrant***

Baş redaktor:
ŞƏHLA ŞİRƏLİYEVA
shshahla36@gmail.com

Ünvan: AZ 7012,
Naxçıvan şəhəri,
Universitet şəhərciyi
Telefonlar:
544-08-61 (13-60)
yenifikir.ndu@gmail.com

Qeydiyyat №330
Sifariş №
Tiraj 500

Redaktor:
Samir Tarverdiyev
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.